# BAKI AVRASİYA UNİVERSİTETİ
## Elmi-nəzəri jurnal


# SİVİLİZASİYA

## ЦИВИЛИЗАЦИЯ

## CIVILIZATION


"Sivilizasiya" jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin 06 iyul 2012-ci il (Protokol №10-R) tarixli qərarı ilə aşağıda göstərilən elm sahələri üzrə dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlərin siyahısına daxil edilmişdir: Tarix, Antropologiya və Siyasi elmlər; Fəlsəfə və Sosiologiya elmləri; Filologiya elmləri; Sənətşünaslıq sahəsi.

DRJI

**Directory of Research Journals Indexing (DRJI) ilə indekslənmişdir.**

**Cild 8 №3 2019 (43)**
**Vol. 8 №3 2019 (43)**
**Том 8 №3 2019 (43)**

**BAKI – 2019**

**Təsisçi**
**Bakı Avrasiya Universiteti**

**Baş redaktor**
**F.e.d., prof. Hüseynli Nazim Ziyad oğlu**

**Baş redaktorun müavini**
**S.e.d., prof. İbrahimova Gülzar İsaxan qızı**

**Məsul katib**
**Fil.ü.f.d., dos. Şıxıyeva Səadət Məmməd qızı**

**REDAKSİYA HEYƏTİ**

**Tarix, ant ro po logiya v ə si ya si el mlər ü z rə:**

Prof.Dr. Attar Aygün (Türkiyə)
S.e.d., prof. Ryabova Yelena Lvovna (Rusiya)
T.e.d., prof. Nikonov Aleksandr Vasilyeviç (Rusiya)
T.e.d. Natia Mirianaşvili (Gürcüstan)
AMEA-nın həqiqi üzvü, t.e.d., prof. Bünyadov Teymur Əmiraslan oğlu
T.e.d., prof. Cəfərov Əsədulla Qüdrət oğlu
T.e.d., prof. İsgəndərov Anar Camal oğlu
T.e.d., prof. Qasımlı Musa Cəfər oğlu
T.e.d., prof. Şükürov Kərim Kərəm oğlu
T.e.f.d., dos. Mehdiyev Aqşin Şəfaət oğlu
S.e.d., prof. Məmmədov Hikmət Baba oğlu
B/m.Qasımov Səyavuş Kamran oğlu
S.e.d., prof. Nəsirli Elman Xudam oğlu (şöbə redaktoru)

**Fəl səfə v ə so sio logi ya el mləri üz rə:**

Prof. Dr. Suat Günsel (KKTC)
Prof.Dr. Məmmədov Nizami Mustafa oğlu (Rusiya)
Doç. Dr. Abdıldayev Kurmanbek (Qırğızıstan)
F.e.d., prof. Orucov Zahid Məlik oğlu (Rusiya)
AMEA-nın müxbir üzvü, prof. Əliyev Bəxtiyar Həmzə oğlu
F.e.d., prof. Rüstəmov İzzət Əşrəf oğlu
F.e.d., prof. Məmmədov Əziz Bəşir oğlu
F.e.d., prof. Talışlı Siyavuş Murtuza oğlu
F.e.f.d., dos. Məmmədov Hüseyn Qaraxan oğlu
F.e.f.d. Rəhimov Mütəllim Qara oğlu (şöbə redaktoru)

**Filologiya elmləri üzrə:**

Prof. Dr. Bozkurt İsmayıl (Türkiyə)
Prof. Dr. Hikmət Koraş (Türkiyə)
AMEA-nın müxbir üzvü, fil.e.d., prof. Cəfərov Nizami Qulu oğlu
Fil.e.d., prof. Qasımov Cəlal Əbil oğlu
Fil.e.d.,prof. Cəlilov Firudin Ağası oğlu
Fil.e.d.,prof. Qasımov İkram Ziyad oğlu
Fil.e.d. prof. Veysəlli Fəxrəddin Yadigar oğlu
Fil.e.d., dos. Rzayev Seyfəddin Gülverdi oğlu
Fil.ü.f.d, prof. Məmmədov Novruz İsmayıl oğlu
Fil.ü.f.d.,dos. Quliyev Əsgər Qədir oğlu
Fil.ü.f.d.,dos. Gündoğdu Səriyyə Gülağa qızı
Fil.ü.f.d.,dos. Məmmədova Elmira Kekeç Fikrət qızı
Fil.ü.f.d.,dos. Rzayeva Sevda Ramiz qızı
Fil.ü.f.d.,dos. Cəlil Fərəh Cabbar qızı
B/m. Musayev Nəsrəddin Musa oğlu
Fil.e.f.d., prof. Tahirzadə Ədalət Şərif oğlu (şöbə redaktoru)

**Sənətşünaslıq sahəsi üzrə:**

T.ü..f.d., prof. Muradov Vidadi Aydın oğlu
Fəl.ü.f.d., dos.Qaraməmmədli Yasin Alı oğlu
Sən. ü.f.d., prof., əməkdar incəsənət xadimi Hacızadə Bayram Kamal oğlu
Sən. e.d., prof. Həsənzadə Cəmilə Yusif qızı (şöbə redaktoru)

**© Bakı Avrasiya Universitetinin nəşri, 2019**

# İ Ç İ N D Ə K İ L Ə R

## F Ə L S Ə F Ə V Ə S O S İ A L O G İ Y A

**Nazim HÜSEYNLİ**
*Şumer fəlsəfəsinə giriş* ................................................................................................ 6

**Röya MİRZƏBƏYOVA**
*Eduard Qranvil Braunun hürufilik təriqətinin əsas doktrinaları və hürufi ədəbiyyatına dair bəzi qeydləri* ..................................................................................... 25

**Səadət MƏMMƏDOVA**
*Sosial dövlətin inkişafının nəzəri əsasları*.................................................................... 32

**Müslüm NƏZƏROV**
*Qlobal təhsil sisteminin inkişafının əsas istiqamətləri* ............................................. 40

## TARİX, ANTROPOLOGİYA VƏ SİYASİ ELMLƏR

**Elgün QƏHRƏMANOV**
*Erməni kimliyinin formalaşmasında din faktorunun rolu* ......................................... 48

**Əhməd QƏŞƏMOĞLU**
*Mədəniyyət sisteminin sosial-iqtisadi proseslərin idarə olunmasında aparıcı rolu* 56

**İlham HƏSƏNOV**
*Azərbaycan SSR-də ali tibb təhsili (XX əsrin 20-ci illəri)* ....................................... 64

**İlyas HÜSEYNOV**
*Azərbaycan və Yunanıstan arasında ticari-iqtisadi münasibətlərin mövcud vəziyyəti və inkişaf perspektivləri* ......................................................................................... 72

**Kəmalə QURBANOVA**
*Geosiyasi reallıqlar və Azərbaycanın xarici siyasətində prioritet vəzifələrin müəyyənləşməsində Heydər Əliyevin rolu* ............................................................. 78

**Rəşad ƏYYUBZADƏ**
*Fars körfəzində İngiltərənin geosiyasi strategiyası* ................................................. 87

**Tamerlan ƏHMƏDLİ**
*Suriyada vətəndaş müharibəsinin tarixi kökləri və onu doğuran səbəblər* ................ 95

**Tərlan ORUCOVA**
*Avropada miqrant böhranı və islamafobiyanın artması* ............................................ 107

**Züriyə QARAYEVA**
*Türkiyədə idarəçilik sisteminin dəyişikliyi: parlament idarəçiliyindən prezident idarəçiliyinə keçidin konseptual təhlili* ........................................................................ 114

**Kəmalə HƏSƏNOVA**
*Azərbaycan Respublikasının Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisi ilə münasibətlərinin inkişaf tarixindən* ......................................................... 123

**Samәddin İMANOV**
*Dəniz hüququna dair mübahisələrin həlli prosedurasında çəkişmə prinsipinin ümumı müddəaları* ........................................................................................... 131

## S Ə N Ə T Ş Ü N A S L I Q

**Emil Ağayev**
*Asif Azərelli yaradıcılığında mənzərə janrı* ................................................................ 139

**Təbriklər** .................................................................................................. 146
**Bizim müəlliflər** …………………………………………………………………….. 147
**Yazı qaydaları** ……………………………………………………………………… 149
**Правила написания** ……………………………………………………………… 151
**Rules of writing** ………………………………………………………………… 153
**Yazı kuralları** ………………………………………………………….............. 155

**F Ə L S Ə F Ə V Ə S O S İ O L O G İ Y A**

**UOT 1**

# ŞUMER FƏLSƏFƏSİNƏ GİRİŞ

**Nazim HÜSEYNLİ***

Məqalə redaksiyaya daxil olmuşdur: 26 mart 2019; Çapa qəbul edilmişdir: 9 iyul 2019; online-da çap edilmişdir: 25 sentyabr 2019.
Received: 26 March 2019; accepted: 9 July 2019; published online: 25 September

***Açar sözlər**: şumer, Tanrı, fəlsəfə, din, mif, filosof, qalaktika, ilahiyyat*

## Giriş

Mən sevimli müəllimim görkəmli filosof Pyotr Elmlər və İncəsənət Akademiyasının həqiqi üzvü, əməkdar elm xadimi, fəlsəfə elmləri doktoru, professor Cəmil Teymur oğlu Əhmədli ilə dəfələrlə diskussiyalar aparır, fikir mübadiləsi edirdik. Belə söhbətlərinin birində o, mənə söylədi ki, "Demokrit və Epikurun atomizminin müqayisəsi" (17) fəlsəfəsinin tədqiqinə həsr etdiyi doktorluq dissertasiyasında epiqraf olaraq, K.Marksın bu sözlərini yazmışdır: "Hər bir gerçək fəlsəfə qanad çalmadan havada süzən quş kimi sərhədsiz səmada süzə bilməz. O, dövrün ən aktual problemlərinin cövhəri, mahiyyətlərinin ifadəsi rolunu icra edir" (18; 19). Bu fikirdə fəlsəfənin funksiyalarına aid olan iki məqam önə çıxır:

- Birincisi, fəlsəfə yaranışından cəmiyyətin sosial praktikasının, onun bütün formalarının "daim artan tələblərinin, o cümlədən insanın dünyadakı yerini və dünyanı dərk etməsində rolunu müəyyənləşdirmək tələbatına cavab olaraq meydana gəlmişdir. Deməli, fəlsəfənin ilkin funksiyası məhz bu tələbatı ödəmək olmuşdur. Həmin tələbata daxil olan məsələlərə: insanın digər canlılardan fərqli olaraq ətraf mühit predmeti və hadisələrini öngörmək, gerçək həyatın mahiyyəti və mənası, bu gerçək həyatdan sonra həyatın olub-olmaması, ölümün mahiyyəti, insan həyatının mənası, bu həyatı necə yaşaması və s. bu kimi suallar daxildir.
- İkincisi isə, fəlsəfə dövrün ictimai şüur forması kimi biliyin bütün növləri və səviyyələri ilə bağlıdır. Deməli, bu gün fəlsəfə nədir sualının qısa cavabı ondan ibarətdir ki, coğrafi fəlsəfə pluariet iqtisadi, siyasi, sosial, ideoloji, dini, əxlaqi struktura malik olan cəmiyyətin ictimai və fərdi fəaliyyət qarşısında qoyduğu və əslində bugünki həyatın mahiyyət və məzmununu açmaq, onların müxtəlif fərqli sosial, siyasi, hüquqi, əxlaqi kimi mədəni səviyyələrə malik olan ölkələrin, millətlərin, eləcə də bizim ölkəmiz və millətimizin fərqli sosial "sifarişlərə" nə adekvat cavab vermək, bu sifarişlərin gerçəkləşdirilməsini deyil, onun vasitə və metodlarının optimal seçilməsi, onların praktik fəaliyyətdə uğurlu tətbiqi üsullarını müəyyənləşdirməkdir.

### *Klassiklərin fəlsəfənin mahiyyətinə dair fikirləri*

Fəlsəfi fikrin təməl sütunlarından biri olan Aristotel fəlsəfənin müdriklik elmi adlandırmış və ona aşağıdakı keyfiyyətləri aid etmişdir: əvvələn, müdrik insan hər bir konkret predmet (xassə, əlaqə və s.) haqqında biliyə malik olmasa da, ümumi mülahizə yürütmək qabiliyyətinə malikdir. Məsələn, qədim dövr filosofları (qədim hind, Çin,

* fəlsəfə elmləri doktoru, prof., BAAU
*e-mail: hüseynlin1956@rambler.ru*

yunan, Şərq filosofları) obyektiv aləm hadisələrinin – təbiət, cəmiyyət əsasında duran konkret qanun və qanunauyğunluqlar haqqında biliyə malik olmasalar da, bütün aləmin qanunauyğun surətdə formalaşması, dəyişməsi və inkişafı haqqında dərin fəlsəfi ideya irəli sürmüşlər (rita, dxarma, Karma-Hind filosofları; daoçin filosofları; loqos, ananks-yunan filosofları; tale, qismət-Şərq filosofları). İkincisi, müdrik insan (filosof) hissən qavranılanı, birbaşa təzahürləri yox, insanın hiss üzvlərinə yox, zəkasına müyəssər olanı "arxada gizlənəni" dərk edəndir. Üçüncüsü, müdrik insan (filosof) aləm hadisələrində olan səbəbləri aşkarlayan və onu öyrədəndir. Dördüncüsü, fəlsəfə birbaşa xeyir gətirən bilik sahəsi deyildir, fəlsəfi idrak özlüyündə xeyirli olan prosesdir. Beşincisi, fəlsəfə digər bilik sahələrində üstün olan, onları yönləyən, prinsipləri onlar üçün aydınlaşdıran bilik sahəsidir. Konkret elmlər sahəsində edilən hər bir önəmli kəşf hökmən fəlsəfi təmələ söykənməlidir. Fəlsəfi bilik həmişə təəccübdən doğmuşdur. Əvvəlcə anlaşılmadığından insanlarda təəccüb doğuran və sadə səbəb-nəticə əlaqələri təəccüb doğurur. Ona görə də onların gerçək məzmununu aşkarlanmağa çalışılırdı. Sonradan Ayın, Günəşin, səma cisimlərinin, bütövlükdə kainatın quruluşu, mövcudluğu və inkişafı təəccüb doğururdu. İlk astronomik, kosmonomik, dini, mifoloji təsəvvürləri yaranması zəminində də həmin təəccübə cavab axtarılması dururdu. Deməli, fəlsəfi biliyin özək sütunu aləmdə mövcud olan, predmet və hadisələrin gerçək səbəblərinin axtarışıdır. Tomos Hobbsa görə, fəlsəfə, yəni təbii zəka, hər bir insana fitri xasdır, çünki hər kəs hansısa şeylər haqqında müəyyən qədər düşünür (15). Yəni ümumiyyətlə, insanın düşünmə obyektinin nə olmasından asılı olmayaraq (əxlaq, siyasət, biznes, idarəetmə və s.) bu düşüncə idrakın müəyyən səviyyəsində onu fəlsəfi aspektlərlə üz-üzə qoyur. "Fəlsəfə hər hansı bir şeyi yaradan səbəblərdən çıxış edərək onun nəticələrini tədqiq edən, yaxud tərsinə, nəticələrin idrakına söykənərək, onu törədən səbəbləri dərk etməyə cəhd edən" bir elmdir. Həqiqi fəlsəfə təkcə layiq olduğun şöhrəti ayaq altına atmamaqdan deyil, öz xoşbəxtliyini bu şöhrətdən asılı etməməkdən ibarətdir (14). Hər bir fəlsəfənin başlanğıcında təəccüb durur (13). Fəlsəfənin mənası ən aydın görünəndən başlayaraq, ən paradoksalla qurtarmaqdan ibarətdir (11).

Didroya görə isə, tarixən filosoflar da, ruhanilər də bir-biri haqqında həmişə bir-biri haqqında xoş olmayan fikirlər söyləmişlər. Lakin filosoflar heç vaxt ruhaniləri öldürməmişlər. Ruhanilik isə çox filosofları öldürmüşdür (16). Şepenhauerin fikrincə, teologiyanın başlanğıcında qorxu, fəlsəfə də isə saf və təmənnasız təfəkkür durur. Əgər insanlar xoşbəxt olsaydılar, onda teologiya lazım olmazdı. Əksinə, dünyada heç bir əziyyət və ölüm olmasa da, fəlsəfə dahi ağılların tələbatı olacaqdır, çünki aləmi dəyişdirərək mənimsəyən insan daim mahiyyət və həqiqət axtarışındadır. Fəlsəfəni iqtidarın baxışları ilə uyğunlaşdırmaq, bu yolla da onu pul və vəzifə əldə etmək vasitəsinə çevirmək fikri isə aclığı və susuzluğu dua ilə səngitməyə bənzər (16). Gətirdiyimiz bütün bu fikirlər fəlsəfənin insan və cəmiyyət üçün zəruri və gərəkli olmasını vurğulamaqla yanaşı göstərir ki, fəlsəfənin cəmiyyət həyatındakı rolu üç sütuna – həqiqətə, xeyirxahlığa və gözəlliyə söykənir. Təfəkkürdə və cəmiyyətdə bu keyfiyyətlərə ehtiyac davam etdiyi müddətcə fəlsəfəyə də ehtiyac davam edəcəkdir.

**Şumerlərin dini dünyagörüşü**

Dini dünyagörüşünün ilkin başlanğıcda mifoloji dünyagörüş ilə eynilik təşkil etməsi, varlığın emosional hissi qavrayışla bağlılığına və mifologiyanın ideya platformasına əsaslanmış, sonrakı inkişaf mərhələsində isə, fikrin adlar formasına istinad edilmişdir. «Din» termininə 250-dən çox tərif verilmişdir. Məsələn, Roma yazıçısı, mütəfəkkiri Mark Siserona görə din sözü «relegere» felindən götürülmüş, mənası arxaya getmək, geriyə dönmək, yenidən oxumaq, seyr etməkdir. Vicdanlı, namuslu, mömin mənasını bildirən din sözü latınca «religio» sözündən götürülmüşdür. «Din» termini iki mühüm

mənaya malik olub və etimologiyası «reliqare» (birləşdirmə, əlaqələndirmə ittifaq) sözünün etimologiyası ilə əlaqəlidir. İnsan ruhunun hər hansı Ali reallıqla (Tanrı, mütləq, Atman, kosmik zəka və s.) ünsiyyət praktikasıdır. İkinci mənbə isə dinlərin konkret növləri ilə bağlıdır. Dini dünyagörüş ikinci anlamda qəbul olunmuşdur. İnam insan idrakının və təbiət qanunlarının tənzimlənə bilməyən fövqəltəbii, səbəbsiz və izaholuna bilməyən mövcudluqlarını, varlığını inandırmaq, məzmun və mahiyyəti qəti müəyyənləşdirmiş adət və etiqadlar, müqəddəs kitablar və s. dini dünyagörüşünün əsas ünsürləridir.

Dinə verilmiş təriflər bu və ya digər fəlsəfi cərəyanların ilkin müqəddəm şərtlərindən asılılığı ilə yanaşı, bəzən konkret-elmi əsaslarına görə də fərqləndirilir. Dinə sosioloji, etnoloji, biopsixiki, psixoloji və başqa tərifləri də verilmişdir. Dinə tərif verərkən deskriptiv (empirik əlamətlərin sadalanması), genetik («təsis» amillərinin aşkar olunması), semantik (dini işarə- simvolların aşkarlanması), struktur (invariant strukturların aşkar edilməsi) və s. üsullardan istifadə olunmuşdur.

Din təbii həyatın formalarından biri, dünyanın cəmiyyət, müəyyən sosial qrup, fərd tərəfindən praktik-mənəvi mənimsədilməsi üsuludur. O, zəruri olaraq cəmiyyətin, insanların təşəkkülü prosesinin gedişində meydana gəlir, onların mahiyyət və mövcudluqlarının müəyyən aspektini təşkil edir. Din Kosmosun, Yer planetinin, bəşəriyyətin, sosial qrupların, fərdlərin müəyyən tərəflərində ilkin şərtlərə malik olur və köləlilik, asılılıq, hegemonluq və s. xüsusiyyətlərdə təzahür edir. Bu, insanlar, insan-təbiət münasibətlərinin tənzimlənməsində meydana gəlmişdir.

Dinin ünsür və strukturları tarixi prosesin gedişində yaranmış və dəyişmişdir. Bəşəriyyətin ilkin ibtidai dövrlərində etiqadlar deyimlərlə əlaqədar olduğu üçün sərbəst fəaliyyət sahəsi olaraq ayrılmamışdır. Fetişizm, totemizm, magiya, animizm və s. ibtidai dinə daxil idi. Din sonrakı inkişafda mənəvi həyatın formalarından biri kimi strukturlaşır, ünsürləri və onlar arasındakı münasibətlər müəyyənləşdirilir. Dinin strukturuna aşağıdakı ünsürlər daxildir: 1) dini şüur; 2) ibadət, pərəstişlə bağlı fəaliyyət; 3) ayin, mərasim və s. arasındakı münasibətlər; 4) dini təşkilatlar.

Dinin məzmunu dini şüurun məzmununu yaradır. Dini şüura xəyali olaraq obrazların yaradılması, inam, gerçəkliyin məzmununun xülyalarla və simvollarla əlaqələndirilməsi daxildir. Bütün bunlar dini dünyagörüşün əsasını təşkil edən parametrlərdir. Dünyagörüşün mifoloji və dini tipləri demək olar ki, əksər insan kütləsini əhatə edir. Bu tip dünyagörüş bütün xalqların inkişafının müxtəlif dövrlərində meydana gəlmiş, xarakterlərinə görə fərqlənmişdir. Əgər mifoloji dünyagörüşün xarakterik xüsusiyyətlərindən biri və önəmlisi, sadəlövhlükdürsə, eyni bir predmetə müxtəlif adlar mənimsədilirdisə, fikrin predmeti ilə fikir bir-birindən ayrılmışdırsa, fərqləndirilmişdirsə, dini dünyagoruşündə nəinki eyni bir predmet, hətta predmetlər çoxluğu eyni bir adla mənimsədilirdi.

### Miflərin qnoseologiyası

Mif və fəlsəfə arasında müəyyən genetik əlaqə – məntiqi dəlil, sübuta əsaslanan əlaqədir ki, bunun kökündə müdriklik durur. Mif insanların özlərinin onları əhatə edən dünyaya, ətraf mühitə münasibətini və sosial münasibətlərin müəyyən tamlığına nail olmağı ifadə edən fikir formalarından biridir. Bu dünyanın meydana gəlməsi, təbii nizam-intizamın mənası haqqında suallara fantastik cavablardan ibarət fikir formasıdır. Miflər vasitəsilə fərdi insan mövcudluğunun məzmunu və təyinatı müəyyənləşdirilir. Dünyanın miflər vasitəsilə təsviri dini təsəvvürlərlə qırılmaz tellər ilə bağlıdır, burada bir sıra irrasional ünsürlər mövcuddur, təbiətin antropomorfizmi ilə şəxsləşdirilmiş qüvvəsi bir-birindən fərqləndirilmişdir. Bununla yanaşı, bu miflərdə insanların əsirlər boyu əldə etdikləri təcrübə əsasında insan cəmiyyəti və təbiət haqqında biliklər əksini tapmışdır. Miflərin diferensiasiyaya məruz qalmayan tamlığı cəmiyyətin sosial-iqtisadi struktu-

runda, qədim şəhər-dövlət şəbəkəsinin mərkəzləşməsi prosesindəki siyasi güclərin də-yişməsi inikas olunmuşdur. İnsan və onu əhatə edən təbiət qüvvələri haqqında yeni məlumatların təzahürünün mühüm şərtlərindən biri və vacibi dərinləşən əmək bölgüsü və sinifli cəmiyyətin formalaşmasıdır. K.Marks və F.Engels "Alman ideologiyası" əsərində bu anı istənilən nəzəri təfəkkürün ilkin müqəddəm şərti hesab etmişlər: "Əmək bölgüsü o vaxtdan həqiqi əmək bölgüsü olur ki, maddi və mənəvi əmək bir-birindən ayrılmış olsun" (10).

Mifologiyanın strukturuna birincisi, dünyanın mənəvi-praktik mənimsədilməsi üsulu, dünyanın idrakın hissi mərhələsinə müvafiq qavranılması; ikincisi, müəyyən etnosların miflərinin məcmusu; üçüncüsü isə miflər haqqında bilik daxildir.

Mifoloji və dini dünyagörüşlər idrakın adi və düşüncə səviyyələrinə uyğun olduq-larına görə, onlar arasında elə bir ciddi fərq yoxdur. Hər iki dünyagörüşü əslində hissi qavramın, dünya seyrinin nəticələri və onların özləridir. Bunların hər ikisində real mövcud gerçəklik xülyalardan fərqləndirilmir. Bu gün də insan şüurunun yüksək inkişaf etdiyi bir mərhələdə cənnət-cəhənnəm münasibətlərini öz gündəmlərinə gətirən ayrı-ayrı fərdlər, sosial qruplar və cəmiyyətlər hələ də mövcuddur.

Baxıcılar, fala baxanlar, mollalar, keşişlər və s. bu tip insanlar dini şüuru, mifoloji şüuru çox asanlıqla öz tabeçiliklərinə salır və bununlara da inananların sayı durmadan artır. İnam, birincisi, obyektiv mövcudluqda hipostazlaşdırılmış (hər hansı xülyaya, yalana, illüziyaya, mücərrəd təsəvvürə) əlamətə müstəqil obyektiv xarakter vermək, mövcudluğu yaratmaq, məsələn, cənnət-cəhənnəm və s; ikincisi, bu cür mövcudluqla əlaqəyə girmək, ünsiyyət yaratmaq imkanı, eyni zamanda onlardan kömək ummaq və arxa durmaq; üçüncüsü, dini təsəvvürlərin, baxışların, ehkamların və s. doğruluğu, dini yazılarda əks olunan məlumatların həqiqətən mükəmməlliyinə; beşincisi, dini nüfuz sa-hibləri: şeyx, molla, keşiş və s.- də özünü göstərir.

İstənilən qnoseoloji tədqiqat işlərində subyektin obyektə təsiri və izahetmə prob-lemi həmişə ön planda olmaqla, bir sıra məsələlərin qoyuluşu və həllini tələb edir. Bu günə çatdırılmış miflərdə subyekt və obyekt arasındakı münasibətlərdə aydınlığın ol-maması fikrini irəli sürən müəlliflər çoxluq təşkil edir. Onların gəldiyi qənaətə görə, subyekt rolunda ayrı- ayrı fərdlər deyil, xalq yaradıcılığı oynayır, obyekt isə subyektə tam aydınlığı ilə verilmir. Təbii ki, əgər bunu belə qəbul etsək, miflərin qnoseoloji funksiya-larından danışmağa dəyməz.

Bununla yanaşı, hesab etsək ki, miflər obyektin təsvirini və izahını vermirsə, onda onun gələcək nəsil üçün hansı idraki əhəmiyyətlər daşıdığı məlum olmur. Bunlardan biri mətndəki təsvir və izahın reallığa uyğunluq dərəcəsidir. Reallığın özü obyektə, yoxsa subyektə aiddir? Digər tərəfdən mətndə göstərilən təsvir və izah hansı dərəcədə obyektə, yaxud subyektə şamil edilməlidir? İnsanların idraki fəaliyyətində tez-tez belə suallar müşahidə olunur: bir tərəfdən obyekt bütün şəffaflığı, aydınlığı ilə subyektin sərəncamına verilir, digər tərəfdən isə subyektin obyekti qavramaq qabiliyyətinin dərəcəsi yüksəkdəmi olur? Qeyd etmək yerinə düşər ki, obyekt heç bir zaman heç bir məkan müstəvisində aydın və şəffaf olmur və bu şəkildə də subyektin sərəncamına verilmir. Eyni zamanda subyektin dərketmə qabiliyyəti, hissetmə, düşüncə və təfəkkür tərzləri də müxtəlif olur. Mifləri xalq yaradıcılığının məhsulu hesab etmək və yaxud, xalq yaradıcılığını subuekt rolunda götürmək kökündən yanlışdır. Çünki hər etnosun yaratdığı miflər konkret fərdin yaradıcılıq məhsuludur və yarandığı andan nəsildən-nəslə məhz xalq yaradıcılığı sayə-sində ötürülür.

Deyilənlərlə yanaşı, əgər hesab etsək ki, mifologiyada subyekt obyektdən fərqlən-mir, onda onun qnoseoloji əhəmiyyətindən danışmaq nonsesdir. Bu suala müxtəlif ca-vablar olmuşdur. A.F.Losefə görə, mif ibtidai insan fəaliyyətinin cəmiyyəti izah və ya anlamağa cəhdidir. Deməli, o, idraki funksiyanı yerinə yetirə bilməz (6, s. 457-458)

F.X.Kissidi hesab edir ki, hər cür mif kortəbii və ən sadə izahın məhsulu olduğuna görə, o, elm və fəlsəfənin ilkin forması ola bilməz (2, s. 41)

Q.M.Fredenber bele hesab edir ki, mif heç vaxt normal izahat verə bilməz; hər bir normal izah məsələnin dəqiq qoyuluşu və rasional həllini tələb edər (7, s. 21)

Bu fikirlərdən belə nəticəyə gəlmək olar ki, əgər izah, normal, yəni elmi və yaxud fəlsəfi deyildirsə, onda o, izah olunmaz olaraq qalır. Bu fikirlərlə razılaşmaq qeyri- mümkündür. Şumer sivilizasiyası, xüsusilə mifləri ilə uzun müddət məşğul olan bir tədqiqatçı kimi belə qənaətə gəlmişəm ki, bəşəriyyətin ilkin çıxış nöqtəsinin formalaşmasında şumerlər çox mühüm rol oynamışdır. Məhz onların sayəsində bəşəriyyət meydana gəlmiş və inkişaf etməyə başlamışdır. Qədim şumerlər həyat və fəaliyyətlərində dəqiq idarə olunan təsərrüfat və sosial sistemləri, çevik idarəetmə mexanizmini, elmi biliklər (riyaziyyat, astronomiya, ədəbiyyat, dilçilik və s.) şəbəkəsini qurmuş və bunları reallaşdıran şəhər-dövlətlərin əsasını qoymaqla, insanlar arasında sosial, iqtisadi, siyasi və s. münasibətləri tənzimləyən qanunlar məcmusunu (Ur- Nammunun qanunları, fermer qaydaları, ailə münasibətlərini tənzimləyən qaydalar) yaratmışlar.

Göstərilən fikirlər ona dəlalət edir ki, şumerlər həm yaratdıqlarını, həm də onların tədbiqi sahələrini aydın düşüncə və təfəkkür tərzinə istinadən həyata keçirmişlər. İrəli sürdükləri ideyalarda məntiqi ardıcıllıq, ziddiyətsizlik, ümumiləşdirmə, səbəb-nəticə əlaqələri həmişə müşahidə olunmuşdur. Buradan görünür ki, onların yaratdıqları mif və digər ədəbiyyat nümunələri adi şüurun məhsulu deyildir. Eyni zamanda, onu da qeyd etmək yerinə düşər ki, şumerlərin hamısı eyni təfəkkür tərzinə malik olmamışdır. Belə ki, maddi və mənəvi əmək bölgüsü yeni sosial qrupların meydana gəlməsinə səbəb olur. Bu sosial qrup profesional şəkildə "xalis" nəzəriyyə ilə məşğul olur. Şumerlərdə mirzələr, həkimlər, baxıcılar, kahinlər söylənilən tərtib sosial qruplardır. Gil üzərində yazılmış gilqameşlərdən aydın olur ki, müxtəlif bilik sahələrinə aid yazılar mirzələr tərəfindən həyata keçirilmişdir. Sosial qruplar içərisində Şumer tanrılarına xidmət göstərənlər daha xüsusi statusa malikdirlər. Onların dünyanın mifoloji dünyagörüşü çərçivəsində izahı və modifikasiyası onların siyasi və iqtisadi maraqları dini təsəvvürlərdə öz əksini tapmışdır. Bu miflərdəki təsəvvürlər sitayişin bir hissəsi olmaqla həyata keçirilir. İnsanların əldə etdikləri təcrübə biliklər toplumunun meydana gəlməsinə, bunların arasında qanunauyğun əlaqələrin aşkar edilməsi, yeni-yeni elmi fənlərin meydana gəlməsinin müqəddəm şərtlərini yaratmaqla nəzəri təfəkkürün inkişafına təsir göstərmişdir. Yəni fəlsəfədə, xüsusi halda mifologiyada yayılmış "miflər heç bir elmi və fəlsəfi biliyin əsası ola bilməz" fikrinin məntiqi əsası yoxdur. Şumerlərin "dünyanın yaranışı", "insanın yaranışı", "qızıl əsr və onun süqutu", "Enanna və onun nişanlıları" və s. mifləri ilə tanışlıq fikrimizi bir daha təsdiqləyir. Bu miflər məsələlərin qoyuluşu və həlli baxımından orijinallığı ilə fərqlənir. Məsələn, "dünyanın yaranışı" mifində dünyanın yaranması, onun dörd başlanğıcı, idarəetmə sistemi, ailə-məişət münasibətləri və s. öz əksini tapmışdır. Bu ideyalar qədim Yunan fəlsəfəsinin, xüsusilə Platon, Aristotel fəlsəfəsinin və ondan sonrakı filosofların yaradıcılığının inkişafında mühüm rol oynamışdır. Başqa miflərində kosmoqoniya sahəsində irəli sürdükləri ideyalar, məsələn, heliosentrik sistemin yaradılması ideyası sonralar Qaliley, Kopernik, Kepler və başqalarının əsərlərindən məharətlə istifadə olunmuşdur. "Qızıl əsr və onun süqutu" mifindəki fikirlərin sonralar Karl Marksın elmi kommunizm, elmi sosializm ideyalarının formalaşmasında məntiqi əsasa malik olduğunu görməmək ədalətsizlikdir.

Müasir alimlərin sərəncamında nəzəriyyə və metodoloji qaydalar, idraki üsullar, elmi-tədqiqat laboratoriya və inistitutlar şəbəkəsi olmasına baxmayaraq, onlar qədim şumerlər kimi təbiəti hiss etmək, duymaq və anlamaq qabiliyyətində deyildir. Hal-hazırda elmi bilik müasir tələblər səviyyəsinə uyğun inkişaf edir, yeni-yeni kəşflər edilir, elmin praktik sahələr şəbəkəsi genişlənir. Ancaq buna baxmayaraq, müasir insan təbiətə o qədər

də yaxınlaşa bilmir və hadisələr qarşısında aciz qaldığı görünür. Eramızın ayrı-ayrı dövrlərində müxtəlif xarakterli kəşflər edilmiş, konsepsiya və nəzəriyyələr formalaşmış, metodoloji qaydalar yaradılmış, təfəkkür və düşüncə tərzləri dəyişmişdir. Ancaq bunların ömrü zaman baxımından o qədər də uzunmüddətli olmamışdır.

Şumerlərin yaratdıqları sivilizasiya nümunələri, irəli sürdüyü fikirlər sonralar sossublimata çevrilsələr də, bu gün istək və arzularımızdan asılı olmayaraq, bizim elmi gündəmə daxil olmuşdur. Məlumdur ki, elmi biliyin əsas funksiyaları insanın özü də daxil olduğu təbiət hadisələrini təsvir və izah etmək, anlamaq və qabaq söyləməkdir. Odur ki, Şumer təfəkkür və düşüncə tərzinin məhsulları daha dayanıqlı olmuş, nəsildən-nəslə ötürülmüşdür. Deməli, şumerlər müasir həmkarlarından daha dərin düşüncəyə və zəkaya malik olmaları ilə fərqlənmişlər. Məhz onların yaratdıqları epik poemalar, tanrılar sistemi, siyasi sistem, qanunlar toplusu, riyaziyyat, kosmoqoniya, linqvistika və s. elmi biliyin inkişafında ya birbaşa, ya da dolayısı istifadə olunmuşdur. Bu baxımdan müasir alimlər şumerlərə minnətdar olmalıdır. Çünki onlar yaratdıqları ilkin çıxış nöqtəsini, yanaşma üsulunu özləri gündəmə gətirmişlər. Nəticə belədir: şumerlər məsələnin qoyuluşu, həlli və digər sahələr üzrə başqalarından əsaslı şəkildə fərqlənmişlər.

Totemizmin meydana gəlməsi ilə şumerlərin qnoseoloji imkanları genişləndi. Bu da, insanlarda öz bütövlüyünü, tamlığını təbiətdən kənarda yox, onunla yaxın təmasda olmasını göstərdi. İnsan ilə təbiətin tamlığının dərk edilməsi, insanların özlərini və dünyanı dərindən anlamasına və əvvəllər məlum olmayan yeni münasibət və əlaqələrin aşkar olunmasına gətirib çıxardı. İnsanlar idrakı fəaliyyətlərinin tətbiq sahələri, istehsal fəaliyyətlərinin genişləndirilməsi və məzmununun zənginləşdirilməsinə güclü təsir etdi; maldarlıq və əkinçiliyin, peşə hazırlığı və sənətkarlığın intensiv inkişafını da sürətləndirdi. Bunların sayəsində də insanlar arasında sosial münasibətləri tənzimləyən icma kollektivlərinin formalaşması icma daxilində münasibətlərin adət-ənənə və qaydaların tənzimlənməsi zərurətini gündəmə gətirdi. Adət və ənənələrdə bitkilərin əkin yerləri və heyvanların çoxaldılması üsulları, ova icazə və qadağaların qoyulması, ov ətindən yemək hazırlanması və s. haqqında biliklər qeydə alınır və nəsildən-nəslə ötürülürdü.

Totemizm insanların idraki fəaliyyətində əsas diqqəti dünyanın predmet və hadisələrinin təsvirini və izahını verməyə yönəldirdi. Məsələn, şumerlərin "dünyanın yaranışı" mifində əvvəlcə Nammu, An, Ki, Enlil və başqa tanrıların necə meydana gəlməsinin təsvirini verir ,sonra isə onların fəaliyyət istiqamətlərinin izahını göstərir. Onların adı çəkilən və digər miflərində ön planda təsnifləşdirməyə əsaslanan təsvir və səbəb-nəticə əlaqələrinin izahı durur.

Şumerlərin apardıqları təsnifləşdirmələr, bütün təbiət hadiəslərini və insan həyatının tərəflərini əhatə edir. Elmi biliyin inkişafından məlumdur ki, heç bir təsnifat idrakın abstraktlaşdırma fəaliyyətindən kənarda reallaşa bilməz. Çünki insanların idraki fəaliyyətinin özü də abstarktlaşma və ümumiləşdirmənin, o cümlədən abstrakt və konkretin, analiz və sintezin, induksiya və deduksiyanın, ümumi və xüsusinin və s. qarşılıqlı əlaqə və təsiri fonunda həyata keçirilir.

Qədim şumerlərin idrak imkanlarının genişləndirilməsində animizmin meydana gəlməsi mühüm rol oynamışdır.

Anima (lat. Anima - ruh) ruhlara inamla bağlı termindir. Bu termini ilk dəfə ingilis etnoqrafı R.E.Teylor tərəfindən elmə gətirilmişdir. Onun fikrincə, animizm ibtidai İcma dövründə insanların inamını təsvir etmək üçün meydana gəlmişdir. Birinci animistik inam şumerlərdə yuxu, xəyal, qarabasma, xəstəlik, ölüm, təbiət qüvvələri qarşısında acizlik və s. hadisələrlə bağlı sıxıntılar insanların canında yerləşərək və insanlar öldükdən sonra onların bədənini gəzib-dolaşan ruh haqqında təsəvvürləri formalaşdırdı. Bununla yanaşı, ətraf gerçəkliyin hadisə və predmetlərini canlandırmaq, ruh vermək, təcəssüm etdirməklə bağlı miflər yaratmışlar. Onlar dəhşətli təbiət qüvvələri, bitkiləri, canlıları və dünyasını

dəyişmiş əcdadların ruhunun mövcudluğuna inanmış və bunun əsasında öz dini sistemlərini qurmuşlar.

Şumerlər öz mənəviyyatını duymaqla nəinki bütövlükdə bədən, həmçinin hər bir bədən üzvünün, müxtəlif xəstəliyin ruhlar tərəfindən yarandığına inanırdı. Şumerlər bütün ruhların insan simasında olmaqla bütün dünyanı gəzməsi və bununla da dünyanı nizama salmaq haqqında təsəvvürləri formalaşdırmışlar. Ruhların təkcə ürəkdə, qəlbdə, ciyərdə, mədədə yox, hətta təbiət hadisələrində təzahür etməsinə də etiqad güclü idi. Şumer miflərndə ruhların insan kimi şüurlu, yaradıcı və dağıdıcı gücdə olması göstərilmişdir.

Həyatın özünə belə, yaradıcı, məhvedici isə dağıdıcı gücün təzahürü kimi baxılmışdır. Həyatla ölüm arasında daimi mübarizə olduğu öz əksini tapır.

Şumer miflərində insandan nəinki onun bioloji xassələri, həmçinin psixiki vəziyyətləri, hətta psixiki funksiyaları abstraktlaşdırılır. Kainat sadəcə obrazlara görə deyil, insan ruhlarına görə də modelləşdirilir. Abstraktlaşma prosesində analiz və sintez, induksiya və deduksiya, ümumiləşdirmə və təsnifləşdirmə və s. kimi idrakın sonrakı imkanları da genişlənirək zənginləşir. Bununla da dünyanın izahınında səbəbiyyət əlaqələrinin aşkar edilməsi istiqamətində insanların idrak fəaliyyətinin məhsuldarlığı artır.

Adətən, hadisələrin qarşılıqlı əlaqə və səbəblərinin səbəbinin dərk edilməsini sehrbazlıq, ovsunçuluq və cadugərliklə bağlayırlar.

**Fəlsəfə və mifologiya**

Mifologiya (yun. mythos-əfsanə, nağıl; loqos-təlim) ictimai şüurun forması olmaqla, insanların təşəkkülü və inkişafının ilkin mərhələsi üçün xarakterik olan təbiət və sosial gerçəklik hadisələrinin anlam üsulu haqqında təlimdir. Mifologiyanın arxaik (yun. archdios – qədim) mərhələsində insanların heyvanlardan və yaxud heyvanların insanlardan əmələ gəlməsi motivi üstünlük təşkil edir. İnsanlar arasında qəbilə münasibətlərinin təşəkkülü mərhələsində totemik (ing.totem - onun cinsi) təsəvvürlər formalaşır. Ən arxaik tayfaların miflərində təsvir olunan qəhrəmanlar-totemik ulu babalar ikili – antropomorf və zoomorf təbiətə malik olur. Başqa sözlə, onlar bir tərəfdən insan qruplarının, digər tərəfdən isə heyvanların və yaxud bitkilərin əcdadları olur. Mifoloji dünyagörüşü fəlsəfəyə doğru gedən yolda ilkin mərhələdir. Dünyagörüşünün bu səviyyəsində insanlar təbiət hadisələrini izah edir, insanlar arasında sosial münasibətləri tənzimləyən qanunlar və bu əsasda universal baxışlar sistemini formalaşdırır.

Müasir dövrə çatmış ən qədim dövrə aid miflərdə təsvir olunan hadisələrə, daha doğrusu, baxışlar sisteminə genetik və funksional yanaşsaq, bir tərəfdən mifi yaradan etnosun bəşəriyyətin inkişaf tarixində yeri və rolunu, statusunu, digər tərəfdən isə qonşu etnoslarda sivilizasiyanın inkişafına təsir mexanizmini müəyyənləşdirmiş olarıq. Məlumdur ki, sivilizasiyanın inkişaf səviyyəsi müxtəlif etnoslarda həmişə rəngarəng olmuşdur. Bununla yanaşı, bütün xalqların mif yaradıcılığında ümumi, qanunauyğun bir əlaqə vardır. Mifoloji dünyagörüşdə insan öz şüurundan ayrılmır, predmet və predmetin obrazı, subyektiv və obyektiv cəhətdən fərqləndirilmir, fəaliyyət prinsipləri fəaliyyətin özündən ayrılmır. Nəsnələrin mahiyyəti onların mənşəyinə şamil edilməklə izah olunur, eyni bir nəsnə müxtəlif adlara malik olur, müxtəlif predmetlərə və mövcud olanlara (canlı və cansızlar, heyvanlar və bitkilər, təbiət predmetləri və insanlar və s.) eyni bir ad mənimsədilir. Göylə Yer, xeyir-şər, qadın-kişi, gecə-gündüz, həyat-ölüm və s. arasında münasibətlər bu qəbildəndir. Mifologiya insanların mənəvi mədəniyyətinin xüsusi forması olmaqla, insanların ətraf mühitə və öz aralarındakı sosial əlaqələrə münasibətlərin dərk edilməsi və tənzimlənməsinə xidmət etmişdir. Mifoloji şüur subyektivliyi bir-birinə uyuşmayan ziddiyyətli fikirlərin birləşdirilməsinə görə fərqlənmişdir. Mifoloji dünyagörüşü dini eti-

qadları, elmi biliyin rüşeymlərini, subyektiv-bədii adı, obyektiv-bədii, sosial, siyasi, fəlsəfi təsəvvürləri özündə ehtiva edir. Tarixən nağıl, dastan, əfsanə, əsatir və müxtəlif deyim formaları miflərin ifadə forması olmuşdur.

A.F.Losev, F.K.Kessidi, O.M.Freydenberq və başqalarının iddia etdikləri kimi, miflər qarşıya qoyulan məsələni dəqiq və dürüst qoya və rasional həll edə bilməz. Onların bu fikri həm predmet qiyməti, mənası və həm də məzmununa görə absurddur. Sual olunur: Əgər, şumerlər hadisələr arasındakı münasibətləri təsvir və izah edə bilmirdilərsə, onda təbiət hadisələrini miflərdə necə təsvir və ifadə edə bilmişlər? Şumerlərin miflərinə diqqətlə yanaşsaq görərik ki, onlar obyekt və subyekt, söz və nəsnə, doğru və yalan, xeyir və şər, həqiqət və yanılma, fikir və gerçəklik, xülya və reallıq arasında fərqləri müəyyənləşdirməklə, harmonik əlaqəni qura bilmişlər. Gerçəkliyin bu inikas üsulunun ümumi qnoseoliji əsası vardır. Bununla bağlı iki məsələ ortaya çıxır: birincisi, insan təbiəti dəyişdirmək, dərk etməklə, özünü dərk edir, dəyişir; ikincisi, insan öz daxili aləmini anlamaqla, xarici aləmi duya bilir. Bunlardan birincisi fəlsəfi xarakter daşısa da, ikincisi mifoloji yanaşmadır. Hadisə və predmetlərə məkan müstəvisi ilə zaman oxunun kəsişməsində fəlsəfi və mifoloji yanaşma tərzləri nəinki bir-biri ilə ziddiyyət təşkil edir, həm də bir-birini tamamlayır. Mifologiya hər cür idrakın, yaradıcılığın zəruri ünsürüdür. Başqa sözlə desək, mifologiya elmi idrak üçün ilkin müqəddəm şərtlərlə təmin edir, dayanıqlığını qoruyur. Təfəkkürün mifoloji düşüncə tərzi idrakı fəaliyyətin ilkin çıxış nöqtəsi olmaqla, onun istiqamətinin müəyyənləşdirilməsində zəruri ünsür kimi çıxış edir. Başqa sözlə desək, miflər sayəsində fəlsəfi, xüsusi halda elmi idrakın universal prinsip, üsul və qaydaları gündəmə gətirilmişdir (6; 7; 10)

Tarixi baxımdan miflər biliyin inkişafının ilkin dönüş nöqtəsidir. Xarici aləmin predmet və hadisələri haqqında ilkin təsəvvürlər miflərdə «kristallaşmış», sonra isə insanların əməli fəaliyyətinin müxtəlif sahələrinə şamil edilmişdir.

Müxtəlif etnoslar tərəfindən yaradılmış miflərdə dünyanın meydana gəlməsi, onun quruluşu, tarixi inkişafı tanrı-yarımtanrı-insan triadası fonunda izah edilmişdir. Bununla yanışı, bu cür miflərdə ulu əcdad ana (dəniz, okean), ondan törəyən Göy-Yer tanrıları və onların münasibətlərindən başqa tanrıların törəməsi, meydana gəlməsi, həmçinin, insanların torpaqdan yoğrulması və s. təsəvvürlər öz əksini tapmışdır. Məsələn, qədim şumerlərdə ulu ana Nammu (okean, dəniz), onun övladları An (Göy) və Ki (Yer) olmuşdur. Sonra isə An və Kidən digər tanrılar (övlad tanrı, nəvə, nəticə, kötücə tanrılar), başqa sözlə, ***anunakilər*** meydana gəlmişdir.

Qədim Misir miflərində ilk başlanğıc olaraq Aptumi (su) ulu əcdad ana və ondan Şu (Göy) və Tefnut (Yer) və onların törəmələri olmuşdur. Qədim Çin miflərində Böyük Başlanğıc kimi Hun-tun qəbul olunur, Tyan və ya Şandi (Göy), Kayti (Yer) kimi götürülmüşdür. Qədim dövr miflərində nəhənglər dünyada insan fəaliyyətlərinin üsul və normalarını müəyyənləşdirir. Məsələn, Qədim Şumer, Qədim Hindistan, Qədim Çin və digər etnosların miflərində ulu əcdadlar antromorf (yun.anthopos – insan +yun. morphe – forma, yəni insanabənzər, insanaoxşar) şəklində təsvir olunur. Antromorf nəhənglər öldükdən sonra Yer, Göy, heyvan, bitki və insanlar meydana gəlir. Məsələn, belə nəhənglər Şumuer miflərində Gilqameş, hind miflərində Puruşa, Çin miflərində Pançu, Misir miflərində isə Ptaha və Sehmet kimi verilir. Pançu öldükdən sonra sümüklərindən daş və qızıl, bədənindəki tüklərdən bitkilər, başındakı tüklərdən ulduzlar, gözlərindən ay və günəş, tərindən kəniz və şah, göz yaşından çaylar, damarlarından yollar, nəfəsindən külək, səsindən ildırım, bədənindəki həşəratlardan insan yaranmışdır.

Arxaik düşüncənin xarakterik xüsusiyyətləri, şəraiti və düşüncə tərzi alman alimi F.Kliks arxaik düşüncənin dörd xassəsini müəyyənləşdirmişdir. Bunlardan birincisi, fərdin onu əhatə edən təbiətlə yüksək səviyyədə birləşdirilməsidir. Bilavasitə və həmişə fiziki aləm və bioloji mühitlə mübarizələrdə ayrı-ayrı insanlarda bu qüvvə haqqında

emosiyalar formalaşır. Belə təsəvvürlərdə heyvanların, bitkilərin insanlar kimi söhbətləri və s. əks olunurdu. İkincisi, fərd və sosial qrupların, qəbilələrin yüksək inteqrasiyası fərdlərin qəbilələrdə birləşdirilməsi totemik simvolların və ayinlərin mühüm şərtlərindəndir. Bu, əcdadlar arasında ümumi arxaik, düşüncənin mənbələrindən biridir. Deməli, arxaik düşüncə cəmiyyətlə emosional əlaqəni yaradır. Arxaik düşüncənin üçüncü xassəsi prosesdə yüksək emosionallığı və effektliliyin gərginliyi ilə əlaqədardır. Dördüncü xassə isə yaddaşın məzmununda təxəyyül fərdiyyətinin əks olunmasıdır (3, s. 152-153). Deməli, arxaik düşüncə 1) fərdin təbiətdə; 2) fərdin qəbilə daxilində; 3) fərdin təbiət qüvvələri qarşısında acizliyi, qorxunun, effektliyin meydana gəlməsi; 4) emosional fəaliyyətin tamlığı yaddaşın məzmununda əks olunması ilə əlaqədardır. Müəllif arxaik düşüncənin funksiyalarına iki cəhətdən yanaşır. Bunlardan birincisi təbiət hadisələrində, təsirlərdə dərk olunmayanlar, yenilərin məlumatlar vasitəsilə interpretasiyası, ikincisi isə, birgə yaşayış tərzi ilə əlaqədardır (3, s. 154-155). Arxaik düşüncə tərzi ilk dəfə olaraq şumerlərdə təşəkkül tapmış və inkişaf etmişdir. Onda belə bir sual ortaya çıxır: şumerlər kimdir? Onların arxaik şüurunun xüsusiyyətləri hansı əlamətlərdən ibarətdir? şumer mədəniyyətinin yaranması və inkişafı, dünya elminə onların verdikləri töhfələr haqqında, şumerşünasların dünya ölkələri alimlərinin bir-birindən maraqlı əsərləri işıq üzü görmüşdür.

***Şumer arxaik təfəkkürünün üfüqlərində***

Şumerlər onları əhatə edən dünya, insan və təbiət, insan və insan münasibətləri haqqında təsəvvürləri yaratmışdır. Arxeoloji qazıntılar nəticəsində əldə olunmuş qədim mədəniyyət bu cür baxış və təsəvvürlərin olmasına dəlalət edir. İbtidai istehsal üsulu və cəmiyyətin təşkili forması, həmçinin mədəniyyətin inkişaf səviyyəsi onun daşıyıcılarının dünya görüşü haqqında məlumatlar verir. Məhsuldar qüvvələrin inkişafının xarakteri və cəmiyyətin istehsal münasibətlərinin mürəkkəb strukturu bir daha sübut edir ki, həmin dövrdə insana və təbiətə təsir edən qüvvələrin qanunauyğunluğu, həmçinin dünya haqqında bilik və təcrübə hansı səviyyədə olmuşdur. Məhsuldar qüvvələr və istehsal münasibətləri arasındakı əlaqənin dərinləşməsi və əhatə dairəsinin genişlənməsi daha mürəkkəb strukturlu sinifli cəmiyyətin formalaşmasına gətirib çıxardır. Yekunda insanlar arasında əmtəə mübadiləsi, əmək bölgüsü və s. istehsalın daha çevik təşkilinə və piktoqrafik yazıların meydana gəlməsinə səbəb oldu. Gil lövhələr üzərindəki piktoqrafik yazılar vasitəsilə ilk dəfə təsərrüfat və işgüzar işlər qeydiyyata alınırdı. Sonralar piktoqrafik yazılar fikirlər dünyasını əhatə etməyə başladı. Piktoqrafik yazıların meydana gəlməsi fəlsəfi fikrin formalaşmasına gətirib çıxardı. Bu özünə məxsus anlayışlar sistemindən ibarət dünya görüşü idi. Bu sistemdə varlıq və dünyanın mövcudluğu problemi, dünyanın dərk edilməsi haqqında məsələlər öz həllini tapmışdır. Bu sistem üç mühüm ünsür vasitəsilə strukturlaşan bütöv tamdır. Bunun birinci səviyyəsində miflərə əsaslanan dünya görüşü, ikinci dini təsəvvürlər əsasında formalaşan dini dünya görüş, üçüncü isə riyaziyyat, kosmoqoniya, tibb, təhsil və elmin digər sahələri əsasında formalaşan elmi dünyagörüşüdür.

Şumerlərin İkiçayarasında oturaq əkinçiliklə məşğul olması, suvarma sistemlərinin yaradılması və inkişafı prosesi onların sinifli cəmiyyətinin mədəni inkişafına güclü təsir etmişdir. Çünki İkiçayarasına məxsus olan spesifik təbii şərait əmək bölgüsü prosesini çevikləşdirdi və bununla da sosial qrupların daxilində onların diferensiasiyasını sürətləndirdi. Dərinləşən əmək bölgüsü, sənayenin və ticarətin inkişafı, əməyin sonra ixtisaslaşması əhalinin şəhərdə mərkəzləşməsinə gətirib çıxardır. İnsanların maddi həyatlarında baş verən dəyişikliklər ya birbaşa, ya da dolayısı insan şüuruna və dünya görüşünə intensiv şəkildə təsir etməyə başladı. Bütün bu faktorlar, yeni-yeni təsərrüfat fəaliyyətləri insanları təbiətin qanunauyğun əlaqələrini aşkar etməyə və anlamağa vadar etdi. Geniş həcmli suvarma sistemlərini, möhtəşəm sarayların, zikkuratların, məbədlərin tikintisi, sənayenin inkişafı və kənd təsərrüfatının intensiv cicəklənməsi paralel olaraq onların bilik

və təcrübəsinin məzmuna görə dərinləşməsini və həcmə görə genişlənməsi məsələsinin ortaya qoydu. Şəksiz bu prosesin özü bilik sahəsində yeni terminologiyanın, adların və demək mümkündürsə anlayışların ilk rüşeymlərini yaradılması tələbini irəli sürdü.

İnsanların maddi həyatlarındakı sosial təbəqələşmə də onların şüurunda təbəqələşməni yaratmağa başlamışdır. Bu cür təbəqələşmə nəticəsində mövcud bilik riyaziyyat, həndəsə, ədəbiyyat, dil, kosmoqoniya və s. sahələr üzrə diferensiasiya olunmuşdur. Bu prosesin hər bir diferensiasiya olunmuş bilik sahəsinin anlayış kateqorial aparatından kənarda təsəvvür etmək qeyri-mümkündür. Gerçəkliyə diferensial real yanaşmanın irrasional yanaşmadan fərqi ondan ibarətdir ki, tədqiqata məruz qalan obyekt ayrı-ayrı hissələrə ayrılır və onların məna, məzmun əlamətləri müəyyənləşdirilir. Burada ayrı-ayrı hissələrin muxtar şəkildə, həmçinin bütöv sistemin daxilində ona münasibətdə yerinə yetirdikləri funksiyalar bir-birindən fərqləndirilir. Məsələn, bütövlükdə insan orqanizmi müxtəlif sahələr üzrə müəyyənləşdirilmiş funksiyaları yerinə yetirir. Bu isə insanın bioloji, sosial varlığa malik olması ilə müəyyənləşdirilir. Ancaq insan orqanizmi daxilində bədən üzvləri bir-birindən fərqli funksiyaları yerinə yetirir. Magiyalılar orqanizmlərin müxtəlif təbii funksiyalarını dərk edərək, öz praktikalarına müxtəlif əməliyyatlar keçirirlər. Bu gün nəzəri və praktik tibb elminin yüksək inkişaf səviyyəsinə baxmayaraq insanlar hələ də ara həkimlərinə müraciət edirlər və nicat tapırlar. Ara həkimlərinin reallığa münasibətini irrasional yanaşma kimi qəbul etsək, səhv etmiş olarıq. Onların təbiət hadisələrinə yanaşmasının rasionallığı konkret əmək fəaliyyəti ilə bağlı olmuşdur. Bu isə öz növbəsində bir sıra elmi istiqamətlərin təşəkkülü üçün ilkin müqəddəm şərtlər olmuşdur. İnsanların təbiətə bu cür yanaşma tərzi daimi, durmadan tərəqqi istiqamətində inkişaf edir. Bu prosesdə adi insan və təbiət arasında müəyyən xüsusiləşmiş insanlar qrupu dayanır. Şumerlər də belə insan qrupları şəxsləşdirilmiş tanrılar və tanrıçalar olmuşdur. Onların fəaliyyəti və yalnız dini vasitəsilə dərk olunurdu Bununla yanaşı "tanrı və tanrıçaların iradəsi" monopollaşdırılmış sitayiş xidmətçiləri tərəfindən şərh edilərdi.

Şumerlərin tarixi inkişafında mifoloji dünya görüş müəyyən mənada fərddən asılı olmuşdur. Bu dövrə aid olan mənbələr göstərir ki, bu cür təsəvvürlər dəyişikliklərə məruz qalmışdır (5). İctimai münasibətlər sahəsində bu cür dəyişiliklər təfəkkürün dünyəviləşməsində özünü aşkar büruzə vermişdir. Bunun kökündə isə insanlar arasında ictimai münasibətləri tənzimləyən hüquqi norma və qanunların meydana gəlməsi olmuşdur. Bu cür hüquqi normalar b.e.ə. III minilliyin sonu və II minilliyin əvvəllərində yaranmışdır. Ali tanrıların və tanrıçaların, şəhər-dövlət himayədarlarının və hökmdarlarının göstəriş və tapşırıqları cəmiyyət həyatına hüquqi norma kimi daxil olmuş və insanlar arasında münasibət bu prizmadan tənzimlənmişdir. Bu isə öz növbəsində insanların dünyaya unversal mifoloji baxışlarına münasibətdə insan təfəkkürünün muxtarlaşdırılması prosesinin mühüm təzahürlərindən biridir. Günah və cəza məsələsi ənənəvi mövcud etik normalardan yox, yeni iqtisadi və sosial tələbatdan gündəmə gətirilmişdir. Bu cür normalar dini həyat sahəsindən kənarda, hətta müxtəlif "fövqəltəbii" müdaxiləsi olmadan tətbiq olunur. Hökmdarların qərarları qəbul olunarkən fövqəltəbii qüvvələrə müraciətlər edilir, ancaq hüquqi aktların konkret məzmunu və onların tətbiqi əsasən kübar cəmiyyətin ədəb və xarakterinə müvafiq olur, cari praktika hökmdarın əsasən cəmiyyətin təşəkkülündə və məxsusi hakimiyyətinin möhkəmləndirilməsində öz təcəssümünü tapır. İnsanların cəmiyyət və təbiətə rasional münasibəti onların gündəlik praktikasındakı təbii və ictimai qanunauyğunluqları dərk etməsi ilə müşayiət olunur. Bunun əsasında isə şumerlərdə kosmosun meydana gəlməsi, təbiət hadisələrinin mahiyyəti və insanın dünyada yeri haqqında suallara cavablar durur. Şumerlərin əski miflərindəki kosmoqonik baxışlar dəyişərək inkişaf etmiş onlarda yeni sosial və siyasi təcrübə öz əksini tapmışdır. Bu dəyişikliklərə insanın dünyada yeri və etik normaları haqqında təsəvvürlərdə rast gəlmək olur, ancaq buna baxmayaraq miflər həmişə dünya görüşü təsəvvürlərini izah etməklə əlaqədar

olmuşdur. Şumerlərdə miflər idrakın müəyyən səviyyəsində əldə olunmuşların universal izahından ibarət olmuşdur. Miflər dini təsəvvürlərlə yanaşı elmin və fəlsəfənin ilkin müqəddəm şərtlərini özlərində ehtiva etmişlər. Bu anlamda miflər bir-biri ilə daimi ziddiyyətdə olan ünsürləri intiqrasiya etmişlər. Burada bir tərəfdə dərk edilən və mənimsədilmiş nəsnələr durursa, digər tərəfdə təbiətin dərk edilməmiş, mahiyyəti aşkarlanmamış nəsnələri durur. Bu bir növ xaos və nizamın əksiklərini vəhdət və mübarizəsidir. Miflərdə təbiətin dərk olunmayan hadisələri təbiətin düşmən aləminin yaratdığı hal kimi təqdim olunur. Ona görə də kosmoqonik miflərdə xaos və nizam prinsiplərinin simvonik mübarizəsi gedir, yəni xaos tanrı və insanlar tərəfindən yaradılmış düşmənlərdir. Mifoloji təsəvvürlərdə sosial maraq anlarını izləmək həddən artıq izləmək çətindir, çünki bu hal bütün təsəvvürlərdə vardır. Bununla yanaşı, ictimai şüurda baş verən dəyişiklikləri göstərmək tamamilə zəruridir. Birincisi, əski şumer miflərində təzahür etmiş arxaik fəlsəfi təfəkkürün ideoloji aspekti tamamilə vacibdir. İnsanın cəmiyyətdə yeri məsələsinə aid olan problem həmişə yaşar olmuşdur. Kosmosun meydana gəlməsi, dünyanın yaranışı və quruluşu və tanrı qanunları şumer təfəkküründə yeni bir sahənin, yəni insan həyatının mənası, həmçinin etik normalar haqqında məsələni gündəmə gətirmişdir. Bu problemin öyrənilməsi üçün atalar sözləri və məsələləri mühüm rol oynayır. Buna misal olaraq "Gilqameş haqqında dastan"nı göstərmək olar (8, s. 28). Bu dastanda şumerlərin mifik qəhrəmanı Uruk hökmdarı Gilqameşin həyat və fəaliyyəti öz əksini tapmışdır. Bu dastanda həyatın mənası, ölməzliyə qovuşmaq, sonsuzluq məsələləri müəyyən mənada işıqlandırılmışdır.

Maraq doğuran belə bir sualı cavablandırmağa cəhd edək: görəsən dünya sivilizasiyasının beşiyi olan, riyaziyyat, botanika, zoologiya, linqvistika kimi fundamental elmi biliyin əsasını qoyan, "müdriklik" kəlamını ilk dəfə dünya fəlsəfəsinə daxil edən, dəqiq dövlət quruculuğunu ilk dəfə təşkil edən və düzgün idarətmə sisteminə malik olan bir xalq şumerlər fəlsəfəsi biliklər sisteminə malik olmasa nə baş verərdi? Şumer filosofları kifayət qədər, yaşadıqları dövr ərzində dərin zəkaya malik olmuşlar. Onlar dünyanın yaranışı, kosmosun meydana gəlməsi, özlərini dini sistemlərinin yaradılması, məktəblərin təşkili, ilk tibb akademiyasının yaradılması baxımından heç nədən çəkinmədən, demək olar ki, onlar bəşəriyyətin bugünkü istifadəsinə verilmiş bir çox təlimlərin, konsepsiyaların, nəzəriyyələrin baniləridir. Bunlar şumerlərdən bizlərə miras qalmış gil lövhələr üzərindəki piktoqrafik yazılarda öz əksini tapmışdır. S.N.Kramer "Tarix şumerlərdən başlayır" əsərində Şumer sivilizasiyası sahiblərinin dəyərini belə qiymətləndirmişdir: "Şübhələnmək olmur ki, hədsiz dərəcədə yeni materialların toplanması, hədsiz yeni kəşflər idrakın indiyə bəlli olmayan üsullarının, yeni perspektiv və horizontlar bizim bu günün alimlərinin məhdudluğu və fərasətsizliyi haqqında hər hansı nəticəni çıxarmağa vadar edir. Ancaq mühüm bir fərq vardır: müasir mütəfəkkir öz nəticələrinin nisbi xarakterə malik olduğunu qəbul edir və istənilən qəti müddəaya skeptik baxır. Qədim şumerlər haqqında bunları söyləmək olmaz. Onlar inanırdılar ki, nəsnələrə onların baxışları mütləq düzgündür və onlar tamamilə dəqiq bilirdilər ki, kainat necə meydana gəlmişdir və necədir (4, s. 95).

***Şumerlərin natur fəlsəfəsi*** kainatın yaranışı, təbiəti və qanunlardan ibarət olmuşdur. B.e.ə. III minillikdə dünya quruluşunun qanunauyğunluqları, insan və təbiət münasibətlərinin tənzimlənməsi, əksliklərin vəhdəti və mübarizəsi, inkişafda inkar və inkar və s. bu xarakterli məsələlər və onların həlli onlarda kosmoqoniya və teoloji sistemin yaradılmasına gətirib çıxarmışdır. Şumerlərin yaratdıqları baxışlar sistemi, təbii ki, ya birbaşa ya da dolayısı yolla özündən sonrakı təlimlər sistemi üçün ilkin müqəddəm şərtlərdən olmuşdur. Şumerlər ilk dəfə səbəbiyyət qanunu ortaya qoymuşdurlar. "Hər cür nəticə özünün səbəbinə malikdir" fikri səbəb-nəticə əlaqəsinin düzgün ifadəsidir. Başqa bir misal, "heç bir insan uşağı ağuşdan məsum çıxmır". Demək olar ki, şumer fəlsəfəsi,

texnologiyası və kosmologiyası haqqında məlumatı onların ayrı-ayrı ədəbi əsərlərindən, o cümlədən miflərindən, dastanlarından və epik deyimlərindən alınmışdır. Şumer filosofları (müdriklik) üçün quruluşunun əsas ünsürləri yer və göy olmuşdur. Onlar kainatı "An-ki" adlandırmışlar. "An-ki", "göy-yer" deməkdir. Onların fikirlərinə görə, Yer dairəşəkilli, göy isə yuxarı və aşağı tərəflərdən bərk səthlə əhatə olunmuş boşluqdur. Yer və göy arasında "Lil" ünsürü yerləşdirilmişdir. "Lil" sözü təxminən "külək" anlamında işlədilmişdir. Külək isə hava deməkdir. Bunun mühüm cəhəti boşluğu doldurmaq qabiliyyəti və hərəkət etməsidir. Bu isə atmosfer anlayışına müvafiqdir. Günəş, ay, ulduzlar işıq salma qabiliyyətinə malikdirlər və atmosferi yaradan maddi şeylərdən əmələ gəlmişlər. "Yer-göy" aşağı və yuxarıdan sonsuz okeanlarla əhatə olunmuşlar və onlar "Yer-göyün" hərəkətsizliyini saxlayırlar. Məhz bu əsasda şumerlər öz kosmologiyalarını yaratmışlar. Onların fikirlərinə görə, okean kainatda ən qədim olmaqla bütün "ilk səbəb" və "ilk hərəkətvericidir". Bunun sayəsində bir-birindən hərəkət edən və hər yerə keçən atmosferlə ayrılan göy və yer yaranır. Bundan sonra atmosferlərdən günəş, ay planetlər və ulduzlar yaranmışlar. Yer və göyün ayrılması, işıq saçan ulduzlu cisimlərin meydana gəlməsi sayəsində bitkilər, heyvanlar və insanlar yaranmışlar. Yer və Göyün ayrılması, işıq saçan ulduzlu cisimlərin meydana gəlməsi sayəsində bitkilər, heyvanlar və insanlar yarandılar (1, s. 15).

Şumer mifləri və texnologiyalarından bizə çatan ədəbiyyatdan məlumdur ki, insanlara oxşayan panteonlar mövcuddur. Panteonlar dəyişməz plan əsasında fəaliyyət göstərən ölməz və ədəbi fövqəlbəşəri qüdrətə malik canlı mövcudluqlar vardır. Onlar dünyanı möhkəm sarsılmaz qanunlarla idarə edirlər. Antromorf ancaq fövqəltəbii mövcudluqlardan hər biri dünyanın bir hissəsinə malik olur və ciddi müəyyən qaydalar əsasında fəaliyyət göstərirlər. Bunlardan birisi yerə, digəri göyə, başqa birisi dənizə, havaya və s. nəzarət edir. Şumer panteonunda ilahi qüvvələr atmosferdə, çaylarda, dağda, düzənlikdə külək, tufan, fırtına yaratmaq gücünə malik olmuşlar. Bununla yanaşı, hər bir şəhərin, ölkə, kanalın, hər bir təsərrüfat və tarlanın, əmək vasitələrinin xüsusi ilahi qüvvələri olmuşdur. Şumerlər belə ilahi gücləri yalnız özləri məntiqi inandırma yolu ilə yaratmışlar. Çünki heç bir insan insanabənzər allahları görməmişlər. Onlar insan cəmiyyətinin strukturunu əsas götürmüş və əsasda insanabənzər yaratmışlar. Onlar bilirdilər ki, ölkə və şəhərlər, saray və məbəd, təsərrüfat və mülk, bir sözlə bütün ictimai həyatın bütün sahələri canlı mövcud insanlar tərəfindən dəqiq idaretmə sistemləri ilə idarə olunur, nəzarət edilir. Ona görə də şumerlər kainat və onun tərkib hissələri, ünsürləri insana bənzər canlılar tərəfindən idarə olunması, rəhbərlik edilməsi və nəzarət olunması haqqında fikirlər irəli sürmüşlər. Bununla yanaşı, belə canlılar ölməz olmalıdırlar. Əgər onlar ölərlərsə, onda kainatda xaos əmələ gələr, dünyanın sonu olar. Şumerlər yaratdıqları antromorf, fövqəlbəşəri mövcudluqları "dingir" sözü ilə ifadə etmişlər. "Dingir" "allah" anlamında işlədilmişdir. Şumerlərdə də panteonlar əhəmiyyətlilik dərəcələrinə görə struktrlaşdırılmış strukturlaşma prosesində insanabənzər allahların əhəmiyyətlilik dərəcələrinə görə rütbələri müəyyənləşdirilmişdir. Məsələn, bənd və kanal allahı Günəş allahı da eyniləşdirilə bilməz. Ona görə də şumerlər özlərinin dövlətlərinin siyasi təşkilatlandırılmasına uyğun olaraq allahlar arasında subordinasiya və koordinasiya münasibətləri yaratmışlar. Baş allah bütün allahlardan yuxarıda durur. Baş allah allahlar şurasının sədri və ali idaredicisidir. Baş allah strukturlaşdırmada birinci səviyyədə durur. İkinci səviyyədə "taleləri həll edən" allah və üçüncü səviyyədə əlli "böyük allah" durur. Şumerlər allahlar arasında yaradıcı və yaradıcı olmayanlar fərqlənmişlər. Bu fikir kainat haqqında təsəvvürlər əsasında formalaşmışdır. Kainat haqqında fikirlərə görə, göy, yer, dəniz və atmosfer ən başlıca ünsürlər, yerdə qalanlar bu dörd ünsürdən törəyənlərdir (1, s.15-20). Deməli, bu ünsürlərin allahları yaradıcı gücə malik olanlardır. Bu allahların istifadə etdikləri üsul, şumer filosoflarına görə allah sözünün yaradıcı gücə malik olması haqqında

doktrinadır. Bu doktrina Şərq-Qərb fəlsəfəsində allahın yaradıcı gücə malik olması haqqında fikrin formalaşmasının əsasında durur. Şumerlərin bu təliminə görə, yaradıcı allah haqqında fikirləşir, sonra sözü səsləndirir və ad qoyur. Allah sözünün yaradıcı gücə malik olması haqqında təsəvvürlər insan cəmiyyəti üzərində aparılan müşahidələr nəticəsində yaranmışdır. Rəhbər vəzifədə duran şəxs istədiyi hər şeyə nail olur, onun verdiyi əmrlərin gücü özünü göstərir, onda onların sözləri də həmin gücə malik olur. Deməli, əgər buna insan nail olursa, o zaman fövqəlbəşəri gücə malik olan allahın da sözü daha güclü, daha qüvvətli olacaqdır. Burada başqa hal da mövcuddur, yəni onlar kosmologiya problemini həll edərkən söz və fikrin vəhdəti mühüm əhəmiyyət kəsb edir. Şumer ilahiyyatçıları təbiət və cəmiyyət hadisələrinin qarşılıqlı təsirini özlərinə məxsus şəkildə izah edən konsepsiyanı yaratmışlar. Onların fikrincə, bu hadisələr harmonik və kəsilməz şəkildə bir-birinə qarşılıqlı təsir edir. Şumerlər bu təsvirləri "me" terminilə ifadə etmişlər. Bu barədə S.N.Kramerin fikri maraq doğurur: "Fərz etmək olar ki, bu söz (me-N.H) allah tərəfindən təbiət və ya cəmiyyətin hər cür hadisəsinə əmr elilmiş qanunauyğunluq və qaydaların kompleksidir, sonrakı bu hadisələr əvvəlcədən düşünülmüş plana uyğundur" (4, s. 94). Fikrimizcə, bir çox yunanların sonralardan yaratdıqları "loqos" sözünün əcdadıdır.

Şumerlərin kosmoloji, teoloji və fəlsəfi baxışları bu günə daşlı-kəsəkli yolla bizə gəlib çatmışdır. Eyni zamanda bu fikirlər miflər, himnlər, dastanlar və s. formada qırıq-qırıq, hissə-hissə, oğurlana-oğurlana, başqa xalqlar tərəfindən (məsələn, semitlər, akkadlar, hettlər, ərəblər, farslar və s.) mənimsədilə-mənimsədilə bu günə çatdırılmışdır. Təbii ki, belə olan şəraitdə fəlsəfəyə aid olan faktların aşkar olunması çox çətin bir işdir.

***Şumer filosofları*** kifayət qədər zəkaya və intellektə malik olmuşdur. Onlar istənilən problem, o cümlədən dünyanın yaranışı, Kainatın quruluşu, insanlar arasında sosial münasibətlərin qanunlar vasitəsilə tənzimlənməsi, dövlətçilik ənənələrinin formalaşması, idarə edən və olunanlar arasında dəqiq sxemin qurulması və s. haqqında məntiqi, ardıcıl mühakimə yürütmək qabiliyyətinə malik olmuşdular. Onlar öz fəaliyyətlərində ümumiləşdirmə, təsnifləşdirmə və sistemləşdirmə prinsiplərinə əməl etmişlər. Şumerlər hər hansı sahədə sistem yaratmışdırlarsa, orada həmin sistemi strukturlaşdıran ünsürlər və səviyyələr bir-biri ilə qarşılıqlı əlaqə və təsirdə olmuşlar. Bu özünü Şumerlərin dilini yaratmaqda, təsərrüfat və digər fəaliyyət sahələrində özünü aşkar büruzə vermişdir. Şumerlər rəngarəng parametrlərdən təşkil olunan çoxluq ilə eyni cinsli əlamətlərdən yaranmış sinif anlayışını fərqləndirmək qabiliyyətinə malik olmuşlar. Onların dilinin qrammatikasında determinativ anlayışından istifadə olunur. "Determinativ" sözünün mənası təyin etmək, göstərmək, ayırmaq anlamını verir. Məsələn, " geş" və ya "ğeş" Şumer sözləri determinativ kimi hər hansı sözlə birgə verilirsə , deməli həmin sözün işarə etdiyi, göstərdiyi obyekt birbaşa ağac məmulatı ilə əlaqədardır və yaxud şumerlərin "Ku" sözü hansı şumer sözü ilə bitişik gəlirsə, mütləq mənada həmin sözün balıq və balığa aid məhsulların qeyd olunduğunu göstərir. Başqa sahələrdə də belədir. İstər kənd təsərrüfatına, istər yaşayış məskənlərinə aid tərtib olunan siyahılarda bunu aydın görmək mümkündür. Məsələn, bir siyahıda ağaclar, digərlərində bütün kənd təsərrüfatı məhsulları növlər üzrə, başqasında ölkə, şəhər və kənd, başqa birisində daş və minerallar, bundan başqa linqvistikada, xüsusən qrammatikada mürəkkəb mübtəda, feil formaları və s.-dən ibarət cədvəllər yaratmışlar. Deməli, onlar intellektual silah kimi təyinetmə və ümumiləşdirmə üsulundan istifadə etmişlər. Bununla yanaşı, şumerlər hərəkət, inkişaf, təkamül terminlərindən də istifadə etmişlər. Bütün bunlar onu göstərir ki, şumerlər analitik və sintetik dünya görüşünə malik olmuşlar. Bu baxımdan S.N.Kramerin fikirləri maraqlıdır. O, qədim dövr şumer filosoflarının düşüncə qabiliyyəti ilə müasir filosofların, təbiətşünasların yaratdıqlarını müqayisə edərək yazırdı: "Şübhələnmək olmur ki, hədsiz yeni materialların toplanması, hədsiz yeni kəşflər idrakın indiyə bəlli olmayan üsularının, yeni perspektiv və

horizontlar bizim günün alimlərinini məhdudluğu və fərasətsizliyi haqqında hər hansı nəticəni çıxarmağa vadar edir. Ancaq mühüm bir fərq vardır: müasir mütəfəkkir, adətən, öz nəticələrinin nisbi xarakterə malik olduğunu qəbul edir və istənilən qəti müddəaya skeptik baxır. Qədim şumerlər haqqında bunları söyləmək olmaz. Onlar inanırdılar ki, şeylərə onların baxışları mütləq düzgündür və onlar tamamilə dəqiq bilirdilər ki, onların kainatı necə meydana gəlmişdir və necədir". (4, s. 95)

Şumerlərin natur fəlsəfəsi ontoloji və qneseoloji baxımdan ayrı-ayrı cəhətləri nəzərə almasaq, bütöv bir sistemdir. Bu sistem üç müxtəlif səviyyə əsasında strukturlaşır. Bunun birinci səviyyəsində kainatın və insanın yaranışı, təbiət və insan münasibətləri, insanların öz aralarındakı münasibət və onları tənzimləyən qanunlardan ibarət olmuşdur. İkinci səviyyə onların teoloji sistem baxımından fikirlərdə inikası və nəhayət, üçüncü səviyyə göstərilən səviyyələri bir-biri ilə əlaqələndirən sistemli adların yaradılmasıdır. Əslində sonralar Platon, Aristotel, stoiklər tərəfindən elmə daxil edilmiş semantik üçbucaqlar, semantik dördbucaqlar ilk dəfə şumerlər tərəfindən gündəmə gətirilmişdir. Şumerlərin leksikonuna daxil edilmiş adların predmet qiyməti və mənasını, həcmi və məzmununu diqqətlə təhlil etsək, onda dediklərimiz öz təsdiqini tapmış olar. Buna misal olaraq, şumer adlarından bir neçə nümunə gətirək. Məsələn, An "göy", Ki "yer", En "yuxarı, yüksəklik", Lil "atmosfer, yer, külək", Anki "kainat", Enlil "yerüstü dünyadakı atmosfer", Enki "yerdə olan yüksəklik, müdriklik", Ninlil "yeraltı dünyadakı atmosfer" və s. adları göstərmək olar. Burada müvafiq olaraq göy, yer, yüksəklik, atmosfer, kainat, yer və göy arasındakı atmosfer və s. həmin adların predmet qiymətləridir. Göstərilən adların predmet qiymətləri həmin adlarda müxtəlif üsullarla verilir və müxtəlif mənalar kəsb edir. Məsələn, An adı ulu ata, dünyanın yaradıcısı, göylərin ağası, göydə və yerdə olan tanrıların başqanı, hər şeyi yaradan və hər şeyi idarə edən mənalarını verir. Enlil adı An adından sonra ikinci təbəqəli addır. Şumerlər bu ad vasitəsilə ən ali idarəedicilik sistemini verib, həm də bu adın mahiyyətində yaratmaq və dağıtmaq, inkişaf müxtəlif üsullarla verilmişdir. Enki yer üzərində hər şeyi nizama salan, qanunların yaradıcısı, qanunların tətbiqinə nəzarətçi, bir sözlə, müdrikliklə dolu "Me"nin sahibi, b.e.ə. III minillikdə dünya quruluşunun qanunları, dünyanın təbiəti və statusuna aid fikirlər əsasında kosmologiya və teologiyalarını yaratmışlar. Onların formalaşdırdıqları baxışlar sistemi, təbii ki, özündən sonra yaradılmış fəlsəfi sistemlər üçün ilkin mənbə olmuşdur.

İlk dəfə səbəbiyyət qanunu şumerlər tərəfindən yaranmışdır. "Hər cür nəticə özünün səbəbinə malik olur" fikri səbəb-nəticənin ən ümumi əlaqəsinin düzgün ifadəsidir. Demək olar ki, şumer fəlsəfəsi, teologiyası və kosmologiyası haqqında məlumat onların ayrı-ayrı ədəbi əsərlərindən, o cümlədən mif, dastan və epik deyimlərindən alınmışdır.

Şumer filosofları (müdrikləri) üçün dünya quruluşunun əsas ünsürləri yer və göy olmuşdur. Onlar kainatı "An-ki" adlandırmışlar. "An-ki" "göy-yer" deməkdir. Onların fikirlərinə görə, Yer dairəşəkilli, göy yuxarı və aşağı tərəflərdən bərq səthlərlə əhatə olunmuş boşluqdur. Yer və göy arasında "lil" ünsürü yerləşdirilmişdir. "Lil" sözü təxminən "külək" anlamında işlədilmişdir. Külək isə hava deməkdir. Bunun mühüm cəhəti boşluğu doldurmaq qabiliyyəti və hərəkət etməsidir. Bu isə atmosfer anlayışına müvafiqdir. Günəş, ay, ulduzlar işıq salma qabiliyyətinə malikdirlər və atmosferi yaradan maddi şeylərdən əmələ gəlmişdir. "Yer-göy" aşağı və yuxarıdan sonsuz okeanlarla əhatə olunmuşdur və onlar Yer-göy münasibətlərinin daimi qarşılıqlı əlaqə və təsirin olduğunu göstərmişdir. "Hər şey göydən idarə olunur" fikri şumer fəlsəfəsində önəmli yerlərdən birini tutur. Həmin bu fikir bizim gündəlik həyatımızda tez-tez eşitdiyimiz "hər şey kosmosdan idarə olunur" fikri ilə tamamilə uzlaşır. Şumerlər dünyanın, insanın yaranışını xaos və nizamın qarşılıqlı əlaqə fonunda vermişdirlərsə, bizim təbiətşünaslarımız dünyanın, sonralar isə insanların "Böyük partlayış" nəticəsində əmələ gəlməsi fikrini irəli sürmüşlər. Lakin neçə minilliklər bundan öncə şumerlər bunu "Tanrıların səmada döyüşü"

kimi vermişdirlər. Şumerlər "Tanrıların səmada döyüşü"nün sxemini belə vermişlər. Onların fikrinə görə, dünya ucu-bucağı görünməyən, üzündə nəhəng dağın üzdüyü xaosdur. Bu boşluğun içində mahiyyət etibarı ilə su olan Nammu peyda olur. Şumerlər onu ulu ana-tanrıça adlandırmışlar. Sonralar təbiətşünasların dünya üzərində mövcud canlıların ilkinin məhz sudan əmələ gəlməsi fikri təsdiqini tapmışdır. Bundan sonra Şumerlər nikahsız anadan oğul və qızın, müvafiq olaraq, An və Kinin yaranışının təsvirini verirlər. An və Ki əksliklərinin vəhdəti və mübarizəsindən əvvəlcə yeddi, sonralar isə çox uşaqların meydana gəlməsini göstərmişlər. Sonradan meydana gələn hər bir uşaq-tanrı təyinatına uyğun sistemdə fəaliyyət göstərmişdir. Bu sistemdə okean kainatda ən qədim olmaqla bütün "ilk səbəb" və "ilk hərəkətverici" olmuşdur. Bunun sayəsində bir-birindən hərəkət edən və hər yerə keçən atmosferlə ayrılan göy və yer yaranır. Bundan sonra atmosferlərdən günəş, ay, planetlər və ulduzlar yaranmışdır. Yer və göyün ayrılması, işıq saçan ulduzlu cisimlərin meydana gəlməsi sayəsində bitkilər, heyvanlar və insanlar yarandılar. Şumerlərin bizə çatan mif və teologiyalarına dair ədəbiyyatdan məlumdur ki, şumerlər idarə edən insanları tanrı, yarı tanrı, yarı insan obrazında vermişdilər. Qulluq edən insanları isə gildən yoğrulmuş fiqurlar kimi təqdim etmişlər. Tanrılar sisteminə daxil olan hər bir panteon sistemin struktur səviyyəsində yüksək mövqedə duran ali tanrıların təqdim etdikləri dəyişməz plan əsasında fəaliyyət göstərməli idilər. Ölməz və əbədi fövqəlbəşəri qüdrətə malik olan tanrılar bütün Şumerlər üçün ən ümumi statusa malik olmuşdular. Onlar dünyanı möhkəm sarsılmaz qanunlarla idarə edirlər. Antromorf, ancaq fövqəltəbii mövcudluqlardan hər biri dünyanın bir hissəsinə malik olur və ciddi müəyyən qaydalar əsasında fəaliyyət göstərirdilər. Bunlardan birisi yerə, digəri göyə, başqa birisi dənizə, havaya və s. nəzarət edir. Şumer panteonlarında tanrı qüvvələr atmosferdə, çaylarda, dağda, düzənlikdə külək, tufan yaratmaq gücünə malik olmuşlar. Bununla yanaşı, hər bir şəhərin, ölkə, kanalın, hər bir təsərrüfat və tarlanın, əmək vasitələrinin xüsusi tanrı qüvvələri və himayədarları olmuşdur. Bu sistemin özündə şumerlər ən ümumi, ümumi, xüsusi və fərdinin dialektik əlaqəsini vermişdilər (9).

Şumerlər yuxarıda göstərilən "tanrı güclərini", bu cür inancları abstraktlaşdırma və məntiqi yüksəlmə üsulu ilə formalaşdırmışlar. Əgər bu cür etməzdilərsə, nə şumeri cənnətə çevirərdilər, nə də dəqiq idarəetmə mexanizmini verə bilərdilər. Təbii ki, heç bir şumer nə tanrını, nə də tanrıya bənzər tanrıları görməmişdilər. Şumer cəmiyyətində müxtəlif fəaliyyət sahələrində yaranmış xaosu nizamlamaq üçün mütəfəkkirlər insanların qabiliyyətlərinə görə təbəqələşmə məsələlərini ortaya atdılar və bunun üçün onlar insan cəmiyyətinin strukturunu əsas götürmüş və əsasda insana bənzər tanrıları yaratmışlar. Onlar bilirdilər ki, ölkə və şəhər, saray və məbəd, təsərrüfat və mülk, bir sözlə ictimai həyatın bütün sahələri canlı mövcud insanlar tərəfindən dəqiq idarəetmə sistemləri ilə idarə olunmalı və nəzarət edilməlidir. Əgər zamanında şumerlər bunu etməzdilərsə, onda onlar nə tarixi, nə də sivilizasiyanı dünyaya bəxş edə bilməzdilər. Ümumiyyətlə, ümumşumer tanrıları və digər tanrılar heç bir vaxt ölmürlər. Onlar bütün fəaliyyətlərində əbədiyyətə qovuşmuş kimi təqdim olunurdular. Tanrılar ölərdilərsə, onda cəmiyyətdə bir xaos əmələ gələr və dünyanın sonu olardı. Ona görə də şumerlər kainat və onun tərkib hissələri, ünsürlərinin tanrılar tərəfindən idarə olunması, rəhbərlik edilməsi və nəzarət olunması haqqında fikirləri bütün cəmiyyətə şamil etmişdilər. Şumerlərin leksikonunda "dingir" determinativi ilə rast gəlinən hər bir söz, ifadə tanrı ilə bağlı olduğunu göstərir.

Şumerlərdə panteonlar sistemi həm yaranam, həm də funksionallaşma baxımından maraqlıdır. Genetik baxımdan əvvəlcə ulu tanrıça, sonra onun uşaqları, daha sonra isə uşaqlarının uşaqları meydana gəlir. Funksionallaşma baxımından yüksək səviyyədə ali tanrılar və onların uşaqları, sonra sahə tanrıları, şəhər-dövlət himayədarları, şəhər-dövlət hökmdarları, kahinlər və s. yer tutur. İstər genetik, istər də funksional cəhətdən sistemdə tanrıların yeri və rolu onların əhəmiyyətlilik dərəcələrinə görə strukturlaşdırılır. Məsələn,

bənd və kanal tanrısı Günəş tanrısı ilə, öz növbəsində Günəş tanrısı tufan, güc, hava tanrısı ilə eyniləşdirilə bilməz. Ona görə də şumerlər özlərinin dövlətlərinin siyasi təşkilatlandırılmasına uyğun olaraq tanrılar arasında subordinasiya və koordinasiya münasibətləri yaratmışdılar. Baş tanrı bütün yerdə qalanlardan yüksəkliklərdə durur. Onun statusu yeddi ali tanrının iclasının qərarı ilə həll edilir. Məsələn, şumer miflərindən göründüyü kimi Enlil Nillil ilə ailə qurduqda onun nikahının qeyri-qanunluğunu dərk edən tanrılar şurası toplaşaraq onu tanrılar şurasının sədri, baş tanrı vəzifəsindən azad etmiş, himayədarı və sahibi olduğu Nippur şəhərini onun əlindən almış və onu yeraltı dünyaya göndərmişdilər. Şumerlərdə olan ali tanrılar təkcə şumerlər üçün yox, həm də akkadlar, babillər, assurilər, hettlər və bütövlükdə İkiçayarasında, o cümlədən Ön Asiyada yaşayan bütün etnoslar üçün ümumi tanrılar statusunda olmuşdular. Bundan aşağı səviyyədə, yəni ikinci səviyyədə “taleləri həll edən” sahə tanrıları və üçüncü səviyyədə əlli müxtəlif işlərə nəzarət edən kiçik tanrılar – Anunnakilər durur. Şumerlər tanrıların arasında yaradıcı olan və yaradıcı olmayanları fərqləndirmişlər. Onlarda bu fikir kainat haqqında təsəvvürlər əsasında formalaşmışdır. Kainatın yaranışında dörd başlanğıc əsas götürülmüşdür: su, torpaq, hava və od. Bu dörd ünsür başqa kainata aid ünsürlərin yaradılmasında mühüm aparıcı rola malik olmuşdur.

**Nəticə**

Yuxarıda etdiyimiz təhlillər belə qənaətə gəlməyə imkan verir ki:

Şumerlərdə mirzələr, həkimlər, baxıcılar və kahinlərin əsasını təşkil etdiyi sosial qrupda şumer tanrılarına xidmət göstərənlər xüsusi statusa malik olmuşlar;

Mifoloji dünyagörüşü çərçivəsində ətraf aləmin izahı və modifikasiyası, onların siyasi və iqtisadi maraqları şumer dini təsəvvürlərində əks olunmuşdur;

İnkişaf prosesində insan və təbiət arasında müəyyən xüsusiləşmiş insanlar qrupu – tanrılar və tanrıçalar olmuş, eləcə də mifoloji dünyagörüşü müəyyən mənada fərddən asılı olmuşdur;

Cəmiyyət və təbiətə rasional münasibət şumerlərin əski miflərdəki kosmoqonik baxışlarına yeni sosial və siyasi təcrübələr gətirmiş, idrakın müəyyən səviyyəsində əldə edilmiş universal bilikləri izah etmiş, dini təsəvvürlərlə yanaşı, elm və fəlsəfənin ilkin müqəddəm şərtlərini özlərində ehtiva etmişlər. Şumer mifologiyasında bir-biri ilə daimi ziddiyətdə olan ünsürlər, bir tərəfdən, dərk edilən və mənimsənilmiş, digər tərəfdən, təbiətin dərk edilməmiş, mahiyyəti aşkarlanmamış nəsnələri ilə intiqrasiya etdirilmişdir;

Əmək fəaliyyəti ilə bağlı təbiət hadisələrinə rasional yanaşma bir sıra elm sahələrinin təşəkkülündə də baza rolu oynamışdır:

Şumer təfəkkürünün əsasını təşkil edən kosmosun meydana gəlməsi, dünyanın yaranışı, quruluşu və tanrı qanunları kimi mövzular insan həyatının mənası və etik normalar haqqında məsələləri gündəmə gətirmişdir. Belə ki, kainatın yaranışı, təbiəti və qanunları şumerlərin natur fəlsəfəsinin əsasını təşkil etmişdir.

İlkin təməli şumerlər tərəfindən qoyulan baxışlar sistemi və səbəbiyyət qanunu kimi konsepsiyalar sonrakı dövrlərdə bir çox təlimlər sisteminin yaranmasında və inkişafında əsaslı rol oynamışdır;

Ümumilikdə, ontoloji və qneseoloji baxımdan ayrı-ayrı cəhətlər nəzərə alınmadıqda natur fəlsəfəsini üç müxtəlif səviyyə əsasında strukturlaşan bütöv bir sistem adlandırmaq olar. Kainatın və insanın yaranışı, insanlar arasındakı münasibət və onları tənzimləyən qanunlar birinci səviyyəni təşkil etdiyi halda, ikinci səviyyədə teoloji sistem əsasında insanların fikirləri əks etdirilmişdir. Bu iki səviyyəni bir-biri ilə əlaqələndirən adlar sistemi isə üçüncü səviyyəyə daxildir. Elmə daha sonralar Platon, Aristotel, stoiklər tərəfindən daxil edilmiş semantik üçbucaqlar və semantik dördbucaqların da ilk dəfə

şumerlər tərəfindən gündəmə gətirilməsi bir daha sübut edir ki, şumerlərin formalaşdırdıqları baxışlar sistemi növbəti fəlsəfi sistemlər üçün özül rolunu oynamışdır.

Kainatın yaranması və insana bənzər canlılar tərəfindən idarə olunması haqqında maraqlı fikirlər irəli sürən şumerlər ünsürləri də "başlıca" və "törəmə" olaraq iki hissəyə ayırmışlar. Onlar göy, yer, dəniz və atmosferi kainatın ən başlıca ünsürləri, digərlərini isə bu dörd ünsürün törəmələri adlandırmışlar. Beləliklə, hər bir ünsürə məxsus allahın yaradıcı gücə malik olması fikri daha sonradan Şərq-Qərb fəlsəfəsində də öz əksini tapmışdır.

Şumerlərin elmə verdikləri digər bir töhfə isə ilahiyyatçıların təbiət və cəmiyyət hadisələrinin harmonik və kəsilməz təsirinə dair hazırladıqları konsepsiya olmuşdur.

Dünyanın yaranışı, Kainatın quruluşu, insanlar arasında sosial münasibətlər, dövlətçilik ənənələri və idarəçilik kimi məsələlərin həllində məntiqi və ardıcıl mühakimə yürütmək qabiliyyətinə malik olmuş şumer filosoflarının fəaliyyətlərinin əsasını ümumiləşdirmə, təsnifləşdirmə və sistemləşdirmə prinsipləri təşkil etmişdir.

Nəticə olaraq demək olar ki, müasir dövrümüzdə elmə məlum olan bir çox təlimlərin, konsepsiyaların, nəzəriyyələrin əsası məhz şumerlər tərəfindən qoyulmuşdur. Şumer filosoflarının kainatın yaranışı, dini görüşlərin formalaşması, məktəblərin və ilk tibb akademiyasının təşkili baxımından elmə verdikləri töhfə danılmazdır.

## QAYNAQLAR


1. Гуляев, В.И.Шумер. Вавилон. Ассирия: 5000 лет истории. М.: Алетейа, 2005, 440 с.
2. Кессиди Ф.Х. От мифа к Логосу (Становление о гречиской философии) М.: Мысль. 1972, 312 с.
3. Кликс. Ф. Пробуждающееся мышление. У истоков человеческого интеллекта М.: Прогресс, 1983, 302
4. Крамер С. Н. История начинается в Шумере. М.: Наука, 1991, 234 с.
5. Крамер С.Н. Мифология Шумера и Аккада. Мифология древнего мира. М.: Наука, 1977, 402 с.
6. Лосев А.Ф. Мифология // Философская энциклопедия. Т.3, М.: Сов. энциклопедия, 1964, с. 457-467.
7. Фрейденберг О.М. Мифы и литература древности. М.: Наука. 1978, 605 с
8. Харенберг Б. Хроника человечества. М.: Слово, 2000, 224 с.
9. Hüseynli N. Milyon illik sirr: Kainat necə yarandı? – Şumer (https://axar.az/news/kult/82609.html)
10. Marks K. və Engels F. Seçilmiş əsərləri. Üç cilddə. Cild.1 (https://praksis01.files.wordpress.com/2018/11/marks-engels-cild-i.pdf)
11. Пацкина Е. *Беседы с мудрецами Бертран Артур Уильям Рассел* (https://www.proza.ru/2013/10/22/1891)
12. Шумерская мифология: представления о мироздании; космо- и теогонические мифы (https://scisne.net/t-1811)
13. Aristotel (http://www.qcc.cuny.edu/SocialSciences/ppecorino/INTRO_TEXT/Chapter%201%20Introduction/Philosophy_and_Wonder.htm)
14. Д'Аламбер (https://www.diary.ru/~eek/p182645352.htm)
15. Hobbes Thomas. Moral and Political Philosophy (https://www.iep.utm.edu/hobmoral/)
16. https://www.quora.com/How-do-different-philosophers-define-philosophy
17. https://az.wikiquote.org/w/index.php?title=Deni_Didro&action=edit&section=7
18. https://lektsii.org/6-54381.html

19. https://archive.org/stream/Marx_Karl_-_Doctoral_Thesis_-_The_Difference_Between_the_Democritean_and_Epicure/Marx_Karl_-_Doctoral_Thesis_-The_Difference_Between_the_Democritean_ and_Epicurean_Philosophy_of_Nature_djvu.txt
20. https://www.marxists.org/archive/marx/index.htm

***Summary***

***Nazim Huseynli***

***Introduction to Sumerian Philosophy***

The ideas put forward on the functions and formation of philosophy as a science which deals with creature and public awareness have historically been controversial. Turned into a subject of discussions from various points of view for many centuries, this science has been an integral part of the Sumerian culture. The cultural elements found upon archeological excavation proved that Sumerians have had philosophical views on creation of the world, human and nature and human and human relations from the very old times. Fantastic views on creation of the world are the main features of the relations between Sumerian myths and philosophy. The root of such relations is wisdom. The content and purpose of individual human existence have been determined by myths. The fantastic stories derived from Sumerian philosophy are based on the experience the people have gained over centuries and reflect their thinking on society and nature. It is noted that, the Sumerian myths based on the nation's mindset include human's place in society, creation and formation of the globe and the rules of god, which has always made the Sumerian philosophers to think and led them to put forward logical and successive judgments. All these used to reflect the archaic and philosophical thinking and religious beliefs of the Sumerians. Besides, the Sumerian myths expressed basic forms of science and philosophy. Such philosophical thoughts of the Sumerians can be found not only in myths, but also in epic sayings and other literary samples.

The philosophy named as nature philosophy by Sumerians has led to development of cosmogony and theological system. If ontological and gneseological features of philosophy are not taken into account, it can be adopted as an entire system. Sumerians have firstly put forward the law of causation that describes cause and effect relations comprehensively, the basis of which is the idea "any kind of effect is born by its cause" by Sumerians. All these feature that, it sounds impossible to deny the opinion that the Sumerians have been the founders of most of theories and trainings known to science of modern age.

***Key words:*** *Sumerian, Allah, philosophy, religion, myth, philosopher, universe, theology*

***Резюме***

***Назим Гусейнли***

***Введение в шумерскую философию***

Исторически выдвигались противоречивые идеи о формировании и функциях философии как науки, связанной с созданием и формированием общественного сознания. Эта наука, на протяжении веков ставшая объектом обсуждения с разных точек зрения, стала неотъемлемой частью шумерской культуры. Образцы, найденные во время археологических раскопок, свидетельствуют о существовании у шумеров таких философских идей, как идеи о происхождении мира, об отношениях человека и природы, человека и человека…

Фантастические идеи о создании мира – основной показатель связи между шумерской мифологией и философией. В основе этой связи лежит мудрость. Посредством мифов определяется сущность отдельного человека и его назначение. Эти фантастические произведения, отражающие шумерскую философию, основываются на веками приобретенном опыте людей, порождающем их образ мыслей об обществе и природе. Отмечается, что в шумерских мифах, являющихся продуктом народного мышления, нашли отражение божественные законы о месте человека в обществе, появлении космоса, создании, строении мира, что всегда являлось предметом размышлений шумерских философов и располагало их к логическим, последовательным идеям. Все это составляло архаическую философскую мысль и религиозные представления шумеров и, наряду с религиозными представлениями шумерских мифов, выражало также первичные формы науки и философии. Подобные философские мысли можно встретить не только в мифах, но и в дастанах, эпических сказаниях и других литературных образцах.

Так называемая натуралистическая философия шумеров привела к созданию космогонической или теологической системы. С онтологической и генеалогической точек зрения эту философию, за исключением некоторых деталей, можно принять как одну целостную систему. Наряду с этим шумеры впервые вывели причинный закон, основательно описывающий причинно-следственные отношения. Основу этого закона составляет идея шумеров о том, что «каждый результат обладает своей причиной». Все это указывает на неоспоримость того факта, что основателями первых известных науке многих теорий и учений являются шумеры.

***Ключевые слова***: *Шумер, Бог, философия, религия, миф, философ, галактика, теология*

Baş redaktorun müavini s.e.d., prof. İbrahimova Gülzar İsaxan qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 1**

# EDUARD QRANVİL BRAUNUN HÜRUFİLİK TƏRİQƏTİNİN ƏSAS DOKTRİNALARI VƏ HÜRUFİ ƏDƏBİYYATINA DAİR BƏZİ QEYDLƏRİ

**Röya MİRZƏBƏYOVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 2 aprel 2019; çapa qəbul edilmişdir: 16 iyul 2019; online-da çap edilmişdir: 25 sentyabr 2019.
Received: 26 March 2019; accepted: 9 July 2019; published online: 25 September

***Açar sözlər:*** *hürufilik, Eduard Granvil Braun, Şərq, təriqət, doktrina*

## Giriş

Hürufilik XIV-XV əsrin əvvəllərində Azərbaycanda, Qərbi İranda, Anadoluda yayılan sufi təriqətidir. Hürufilik təriqətində hərflər və rəqəmlər müqəddəs hesab olunmuş və onlara simvolik mənalar yüklənmişdir. Qədim zamanlardan bəri təbiətdə varlığı qəbul edilən gizli qüvvələr hərflərlə ifadə edilməyə başlamış və "hüruf" (hərflər) elmi meydana çıxmışdır.

Hürufi inancına görə, varlığın zühuru hər bir varlıqda mövcud olan səslədir. Yəni cansız bir nəsnəni digərinə vursaq onun cövhəri olan səs zühur edir, canlılarda isə bu, iradə və ixtiyarla zahir olur. Səsin kamalı kəlam, yəni sözdür, bu da ancaq insanlarda zühur edir. Söz hərflərdən ibarətdir və bu halda sözün və səsin əsli hərfdir. Hürufi inancının əsası insanı ilahiləşdirməkdir. Bu əsasda Fəzlullah əvvəlki dinlərdən, İslamda insana verilən əhəmiyyətdən və təsəvvüfdən faydalanmışdır. Kainat Mütləq Varlığın zühurudur və bu zühur qüvvət aləmindən təbiətlər və ünsürlər aləminə gəlmiş və göylərlə bu ünsürlərin birləşməsindən cansız və canlı aləm yaranmışdır. İnsan kainatın mərkəzində dayanır. Fəqət, hər bir insanın daxilində də bir insan vardır ki, o, kainatın hakimidir. Bu insan peyğəmbər və imamdır. Peyğəmbərlik Hz. Məhəmməd kamalı ilə zühur etmişdir. Buna görə də o, son peyğəmbərdir. (5, s. 18)

Belə bir mistik təriqətin konsepsiyaları avropalı şərqşünasların da diqqətini cəlb etmişdir. Xüsusilə də şərq elmi, dini və mədəniyyətini tədqiq etmiş şərqşünasların bir qismi sadəcə bu mövzuya toxunmuş, bir qismi isə bu mövzunu ətraflı araşdırmışdır. Belə şərqşünaslara *Elias Gibb, Annemarie Schimmel, Edward Granville Browne, Clement Huart, John K. Birge, Kathleen R. F. Burrill, Hellmut Ritter* və s. göstərmək olar. Hürufilik təriqətinə dair mənbələri, əlyazmaların nüsxələrini toplayıb bir araya gətirərək geniş şəkildə tədqiq edən isə Eduard Qranvil Braun olmuşdur.

### *Eduard Qranvil Braun həyat yolu və yaradıcılığına bir nəzər*

İngilis şərqşünası, yazıçısı və tərcüməçisi Eduard Qranvil Braun (1862-1926), əsasən, Persiya[1] tarixi və ədəbiyyatı sahələrinə aid çox sayda elmi əhəmiyyətli əsərlər yazmışdır. O, Eton və Pembrok Kolleclərində tibb və təbiət elmləri üzrə təhsil almışdır. 1877-1878-ci illərdə türk-rus müharibəsində türklərin qəhrəmanlıq və şücaətinə olan heyranlığı onun Şərqə marağının artmasına, türk, ərəb və fars dillərini öyrənməsinə səbəb olur. Hətta 1882-ci ildə İstanbula da səfər edir. 1887-ci ildə o, Kembricdə Pembrok Kollecinin üzvü seçilir və bununla da onun qarşısında Şərqə yol açılır.

* doktorant, AMEA Fəlsəfə İnstitutu; AMEA Elm Tarixi İnstitutu
*e-mail: royamirzabayova@gmail.com*

[1] Persiya - Qərb ədəbiyyatında tarixi Azərbaycan, İran və indiki İraq ərazilərinə verilən addır.

1893-cü ildə Persiyada keçirdiyi təəssüratlarına həsr olunmuş “Perslər arasında bir il” *(“Year amongst the Persians”*) əsərini yazır. Bir çox dəyərli əlyazmalar ilə Kembricə qayıdanda o, artıq farsca universitet mühazirəçisi olur. Bir müddət sonra, Eduard Braun “Şərqşünas təlimçilər” məktəbini yaradır. 1901-ci ildə Elias Gibbin ölümündən sonra onun yarımçıq qalan “Osmanlı poeziyasının tarixi” əsərinin tamamlanması və nəşri ilə məşğul olur. Eyni zamanda Şərq əlyazmalarının tərcüməsi və nəşri üçün yaradılan “Gibb Memorial Trust” fondunun idarəsi ona həvalə edilir. 1896-1922-ci illərdə isə fasiləsiz olaraq üzərində işlədiyi “Şərq əlyazmalarının təsviri kataloqu” adlı sistematik tədqiqat işini ərsəyə gətirir. Braunun uzun illər (1900-1924) böyük diqqətinin, əməyinin nəticəsi olan və bu günə qədər bənzərlərinin arasında ilk, mükəmməl, sistematik tamlığını hələ də qoruyan ən böyük əsəri “Persiyanın ədəbi tarixi”ni (“*A literary history of Persia*”) yazır. Bu əsərdə müəllif perslərin mədəni və ədəbi həyatını ən qədim dövrlərdən öz dövrünə qədər tədqiq etmişdir. (6, s. 7-9)

Alim daha çox babilik hərəkatına dair tarixi əsərlərinə və tərcümələrinə görə tanınsa da (hətta bəzi qaynaqlarda onun bəhailik dini cərəyanını qəbul etməsi də göstərilir), ismaililik, bəktaşilik, hürufilik kimi digər dini təriqətlər də onun diqqətini çəkmiş, bu təriqətlərin mistik ideyaları onun marağına səbəb olmuşdu. O, bütün qəlbi ilə Şərq düşüncə tərzini mənimsəmiş, həm hissləri, həm də dərin təhlil və düşüncəsi ilə bu dini təriqətlərin mərkəzində dayanan səbəblərdən, bu təlimlərin əsas xüsusiyyətlərindən yazmışdır. Onlar haqqında yazarkən onun diqqətini əsasən bu təlimlərin yaradıcıları, ardıcılları çəkmişdir ki, həmin insanlar bu yolda ölümü belə gözə almışlar. O, insanın yolunda canını belə fəda edə biləcək bir təlimin mistik və simvolik mənalarını axtarmış, bu əfsun, sehir onu da tədqiqata çəkmiş, bu sahədə irəliləməyə vadar etmişdir. Onun hürufilik təlimi üzrə tədqiqatları xüsusilə diqqəti cəlb edir.

***Eduard Qranvil Braunun hürufilik təriqətinin əsas xüsusiyyətləri haqqında qeydləri***

Teymurilər dövründə Fəzlullah Nəimi tərəfindən yaradılan və təbliğ olunan hürufilik cərəyanı təkcə qeyri-adi konsepsiyalarına və qaynaqlarına görə deyil, eyni zamanda həmin dövrdə olan tarixi əhəmiyyətinə, siyasi ideyalar sisteminə görə də tədqiq olunmuşdur. Fəzlullah hürufiliyin əsas ideyalarını qismən fars dilində, qismən də ərəb dilində yazılan *“Cavidani-kəbir”* adlanan əsərində açıqlamışdır. Həmin əlyazmanın nüsxələri İstanbulda Aya Sofya kitabxanasında, Leydendə, Britaniya muzeyində və Eduard Braunun Kembric Universitetinin Kitabxanasında 1896-cı ildə nəşr olunmuş Persiya əlyazmaları kataloqunda var.

Eduard Braunun qeyd etdiyinə görə, *“Cavidani-kəbir”* əsərini tədqiq edərkən onun marağına iki şey səbəb olur. Birinci, bu təlim ismaililərə (“yeddi imamçılar”) oxşar maraqlı nəzəriyyələri özündə ehtiva edirdi, ikincisi isə bu təlimin əsas hissəsi, bir qayda olaraq, geniş tədqiqata ehtiyacı olan fars dilinin xüsusi dialektində (fars dilinin Astarabad ləhcəsi olan gürgan dili – R.M.) yazılmışdı.

Braunun sözlərinə görə, *Persiya əlyazmaları kataloqu* nəşr olunandan bir müddət sonra dostu Elias Gibb onun diqqətini o fakta çəkdi ki, bir sıra türk şairlərinin təzkirələrində türk şairi Nəsimi də “əl-Hürufi” adlandırılırdı. (6, s. 369) Halbuki Eduard Braunun *“Cavidani-kəbir”* əsəri haqqında yazdıqlarını oxuyanadək E.Gibb “əl-hürufi” anlayışının dəqiq mahiyyətini başa düşmürdü. O bu təzkirələrdə Nəsimiyə ithaf olunmuş hissələri və eyni zamanda Nəsiminin Fəzlullaha aid eyhamlarını Eduard Brauna göstərdi ki, bu eyhamlar açıq-aşkar sübut edirdi ki, türk şairinin təriqəti elə Fəzlullah Nəiminin təriqəti idi:

***"If thou would'st know of the science of philosophy [or of the love of wisdom], come, come, O philosopher;***
***Hearken thou to the speech of Nesimi, and behold Fazlu'llah! [or the excellence of God]."*** (7, s. 62)

*Elmi-hikmətdən bilirsən, gəl bəri, gəl, ey həkim,*
*Sən Nəsimi məntiqindən dinlə, Fəzlullahı gör!*

Buradan Eduard Brauna aydın oldu ki, hürufilik təriqəti həmin dövrdə müəyyən əhəmiyyətə və nüfuza malik olmuşdur. Bu ehtimaldan sonra 1897-ci ildə Şərqə səyahəti zamanı onun Paris Milli Kitabxanasına məxsus iki əlyazma fonduna baxmaq və oradakı bir neçə hürufilik traktatını nəzərdən keçirmək imkanı yaranır. Bunlar Əmir Qiyasəddinin *"İstivanamə"* (1562/3) adlı əsəri, Makedoniyalı İsgəndərin həyat suyunu axtarışından sonrakı xahişi haqqında farsca məsnəvi, "*Cavidani-kəbir"*də işlənən dialekt sözlərə dair lüğət, Fəzlullahın *"Məhəbbətnamə"* (1489/90) əsəridir.

Bu qaynaqları gördükdən sonra Eduard Braun "Kral Asiya Cəmiyyətinin Jurnalı"nda (*Journal of the Royal Asiatic Society*) "Hürufi təriqətinin əsas doktrinaları və hürufi ədəbiyyatına dair bəzi qeydlər" (1898), "Hürufi ədəbiyyatına əlavə qeydlər və hürufiliyin dərvişlərin Bektaşilik təriqəti ilə əlaqəsi" (1907) məqalələrini dərc etdirmişdir. (6, s. 373)

Bu məqalələrdə Eduard Braun hürufilik qaynaqlarını tədqiq etmiş və burada daha çox sistemsiz şəkildə olan məlumatlardan istifadə edərək, hürufiliyin əsas doktrinalarını müəyyənləşdirmişdir:

1) Hürufilik sirli bir elmdir. Bu elmə yiyələnmək hər bir insanın ali borcu və ali xoşbəxtliyidir. Bu elm yeri və göyü birləşdirən mistik harmoniyanın və yerdə və göydə baş verən hər şeyin anlamını, əhəmiyyətini göstərir və izah edir. (7, s. 69)

Bunu daha aydın izah etsək, hürufilikdə ətraf aləm və insan paralel mövcudatlar hesab olunurdu. Fəzlullah Nəimi birincini makroaləm, ikincini isə mikroaləm sayırdı. Bu iki sistem bir-birindən asılı idi, yəni makroaləmi dərk etmək üçün mikroaləmi, mikroaləmi başa düşmək üçün də makroaləmi anlamaq lazımdır. Hər ikisi Allahın özünün maddi dünyadakı təcəssümü hesab olunurdu. Makroaləm Allahın fəaliyyəti, izləri və atributlarının göstəricisidir, bu göstəricilər Allaha aid işarətləri meydana gətirir. İnsan – mikroaləm isə bu işarələri izah edə biləcək yeganə varlıqdır. Bu simvolik strukturu anlamaqla kosmik sirri aşkara çıxarmaq olar. İnsanın ali məqsədi müşahidə oluna bilən həqiqətin mahiyyətini açmaqdır (Allahı və özünü dərk etmək üçün). Özünün varlığını və Allahı başa düşən insan Allah biliyinin əsas hissəsinə malik olur, yəni ilahiləşir. (4, s. 45-46)

Bu fikirlərdən aydın olur ki, hürufilərin əsas məqsədi insanı biliyə yiyələndirməklə onu ideal və müqəddəs bir varlığa çevirməkdir. Yəni insan həm ətraf mühiti, həm də özünü tədqiq etməli, həyatın sirrlərini anlamalıdır. Yalnız bu vaxt insan həqiqi kamilliyə çata bilər.

2) Bu sirli elm Quranda da mövcuddur, amma bu elmin açarı onun sirlərini açan "Təfsirin ustadı", eyni zamanda "İlahi şəxs" adlandırılan Fəzlullah Nəiminin əllərində idi, ondan sonra isə onun xələfinə, özünün təyin etdiyi canişinə ötürülmüş və bu təriqətin ardıcıllarına aşkar olmuşdur. (7, s. 70)

Hürufilik hərəkatının yaradıcısı sufi alim, filosof və şair Fəzlullah Nəimi olmuşdur. Ardıcıllarının kitablarında dediyinə görə, Fəzlullah 1340-cı ildə Astarabad şəhərində anadan olmuş, erkən yaşlarında Mənsur Həllacın və Mövlana Cəlaləddin Ruminin yazılarından təsirlənmişdir. 1370-ci illərdə artıq İran və Azərbaycanda öz təlimlərini yaymağa başlamışdı.

Hürufilik qaynaqlar Fəzlullahın 3 əsərindən – *“Cavidannamə”* (“Əbədiyyət kitabı”), yaxud *“Cavidani-Kəbir”* (“Böyük əbədiyyət”), *“Ərşnamə”* və *“Məhəbbətnamə”*dən bəhs edir. Lakin sonrakı tədqiqatlar nəticəsində onun divanının, *“Növmnamə”* və *“Vəsiyyətnamə”* əsərlərinin də mövcudluğu da müəyyən olunmuşdur. Ola bilər ki, ilk 3 əsər sırf Fəzlullah Nəimi tərəfindən yazılmış, sonrakı əsərlərdə isə onun görüşləri ardıcılları tərəfindən şərh olunaraq geniş şəkildə izah olunmuşdur. (3, s. 8) “*Cavidani kəbir”* əsərindən bəlli olur ki, Fəzlullah özünün peyğəmbər olduğunu iddia etmiş və kitabını da vəhy gələrək yazdığını demişdi. (7, s. 62) O, Əmir Teymuru da bu təriqəti qəbul etməyə dəvət edir, lakin Əmir Teymur buna əks çıxaraq onu öldürməyi əmr etdirir. Əmir Teymurun oğlu onu əsir götürür və öldürür (1401/2). (3, s. 367-369)

3) İnsan Allahın simasında yaradılan ən mükəmməl varlıq – mikroaləmdir, Tanrının əsəridir, bütün varlıqların əsas mahiyyəti və ölçüsüdür. Allah bütün asılı varlıqları yaratdıqdan sonra kürsüsünə oturmuş və mələkləri insana səcdə obyekti kimi yaratmışdır. Təkcə İblis qürurlanaraq insana səcdə etməkdən imtina etdi:

***“That pure Essence which I worship is free from standing or sitting:***
***How can earthly body be the object of my adoration? My adoration is towards my God.”***

(7, s. 70)

*(Mənim səcdə etdiyim Pak Varlıq oturub durmaqdan azaddır,*
*Yer üzərində olan varlıq səcdə obyektimi ola bilər? Mənim heyranlığım yalnız Allahadır).*

*(“İstivanamə”*də istinad olunan *“Ərşnamə”dən)*

Fəzlullah Nəiminin dünyanın yaradılışı ilə əlaqəli baxışları Qurana söykənirdi. Ona görə, Allah dünyanı *“ol”* deyərək yaratmışdı, bütövlükdə maddi cisimlərin və onlara verilən səsin vəhdəti olan kosmik zamanın əvvəlində verilən ilahi əmrlərin davamını əks etdirən bütün varlıqlar və hadisələr *“ol”* sözünün əks-sədası idi. Allah mələklərə buyuraraq, Adəmin qarşısında səcdə etməyi əmr etdi, çünki Adəm mələklərə açıqlanmayan “nəsnələrin adları”nı bildiyi üçün mələklərdən yüksək olaraq yaradılmışdı. Adəm Allaha ən çox bənzəyən varlıq idi, cisim olaraq onda Allahın izi olduğu üçün, onu bütün yaradılışlardan daha özəl, özünə məxsus etmişdi. İblis amma Adəmə səcdə etmədi. Bunun səbəbi kimi o göstərilirdi ki, İblis özü oddan yaranmışdı və o, odu torpaq və sudan daha üstün sayırdı. (4, s. 48-49)

Bütün olan insanı yaratmaq üçün saçları ortadan ayıran tək xətt Allahın yaradıcılığının aşkar bir əlaməti olaraq görülürdü. Bunu aşağıdakı təklikdə müşahidə etmək olar: gözlərin ortasındakı xətt, üzü ayıran burun, dodaqlar arasındakı xətt və s. Bütün bunlar tək olan Allahı xatırladır. Makrokosm və mikrokosm arasındakı aləmin birliyi və bərabərlik bütün insan üzündəki səkkiz xətdə əks olunurdu (saç xətti, iki qaş, dörd kirpik) və bunlar dörd elementə (torpaq, külək, su, od) vurulur, 32 alınır, bu da ərəb əlifbasına işarə idi. İnsan həm cismani olaraq, həm də danışıq və yazılı nitq əldə etmək üçün intellektual qabiliyyəti ilə dil daşıyıcısıdır. Canlılar arasında yalnız insana verilən dil, nitq insanlara dünyanı dərk etmək və simvolik vasitələrlə bir-biri ilə ünsiyyət qurma bacarığı verdi. (4, s. 54)

4) “Elm əslində bir nöqtədir, yalnız cahillər onu genişləndirirlər”. Hərflərin elmi olan, xüsusən belə anlaşılan bu elm hər şeyi izah edir. “Şəhidlərin səfası” adlandırılan Əmir Nurullaha görə, elm nöqtədir və həmin nöqtə insanın beynidir. Gözəllik, cazibə, nitq, iybilmə, görmə və duyma hamısı beyində yerləşir. Yazıya uyğun olaraq 32 ağ və qara xətt (ərəb əlifbasının farslar tərəfindən artırılmış 32 hərflik əlifbası) insanın simasındadır və nitq 28 və 32 hərfdə təcəlli tapır. Bütün fani şeylər insanın surətində gizlidir.

Bütün hərflər nöqtədən yarandığı kimi, bütün insanlar da toxumdan törənmişdir. Cahillər elmi genişləndirirlər: onlar Allahın varlığını və varlığının təcəssümünü insanın surətindən kənarda axtarırlar (*"İstivanamə"*). Ona görə Nəsimi deyir:

> ***"Seeing that my body is the mirror for the 18 000 worlds,***
> ***I am that very Form of God, So am I concealed to the multitude".***
> (7, s. 70)
>
> *Çün on səkkiz min aləmə oldu vücudum ayinə,*
> *Ol surəti-rəhman mənəm kim, xəlqə məstur olmuşam*. (2, s. 118)

Bu mülahizələri Braun "*İstivanamə*" əsərindən götürmüşdür. Bu yazılar bir daha sübut edir ki, hər şeyin nöqtədən yarandığını iddia edən hürufilərin nöqtəvilik təliminin yaranmasında böyük rolu olmuş, hətta bu təlim hürufiliyin bir qolu kimi təşəkkül tapmışdır. Çünki nöqtəvilər də mövcudatın əsasını nöqtə hesab edirdilər. Elə nöqtəvilik hərəkatının banisi də Fəzlullah Nəiminin şagirdi hesab olunan Mahmud Pasihani olmuşdur. Nöqtəvilər də hürufilər kimi hərflər və rəqəmləri müqəddəs hesab edir, onlara simvolik mənalar yükləyirdilər.

5) Bir çox xüsusiyyətlərinə görə batinilər və ismaililər ilə eynilik təşkil edən hürufilik təliminə görə, istər Quranda, istərsə də fərz buyurulan vacib əməllərdə (namaz, oruc, həcc və s.) dərin bir məna mövcud olduğu halda, Quranın sadəcə hərfi mənasının və vacib əməllərin formal şəkildə yerinə yetirilməsinin əhəmiyyəti yoxdur. *"İstivanamə"* əsərində Qiyasəddin dərvişlərin bu məsələ üzrə mübahisəsini də qeyd edir. (7, s. 71) Dərvişlərdən biri deyir ki, bilgili kimsə üçün olduğu yer cənnətdir, cahil isə cəhənnəmdə yaşayır. Əgər biz öz varlığımızı dərk edir, kainatın sirlərini və hüruf elmini biliriksə, bu dünya bizə cənnətdir. Cənnətdə isə öhdəlik yoxdur. Yəni biz dinin vacib buyurduğu əməllərdən azadıq. *"Məhəbbətnamə"*də isə bütün bu öhdəliklərin yerinə yetirilməli olduğu qeyd edilir. Allaha ibadət filosofların, həkimlərin, zahid və dindarların beynini yenidən Sevgi Dünyasına çevirəcək. Sevgi isə Sevgilinin surətinə, saçına, kirpiyinə, qaşına səcdədən başlar.

Hürufiliyə görə, insan bu mistik elmi öyrənərsə, Allaha qovuşa bilər. Cənnətə yetişmək üçün mədrəsənin təbliğ və təlqin etdiyi dini ayinlər, ibadət, dua-səna qaydaları və əməlləri xeyli mürəkkəb görünürdü. Bunun müqabilində qəlbində həqiqi iman nuru və Haqq sevgisi olan, ilahi mərifət kəsb etməyi bacaran hər bir kəsə cənnət vəd edirdi. Həm də bu cənnət mədrəsə və məscidin təsvir etdiyi gözəl suları, huri və mələkləri olan cənnət deyildi. Xanəgaha görə, mənəvi təkamül yolu ilə haqqa qovuşmaq özü cənnəti tapmaqdır. Həm də mədrəsə və məscidin vəd etdiyi cənnət insana yalnız öləndən sonra nəsib ola bilərdi. Xanəgahın cənnətinə isə kamil insan-arif elə sağlığında da yetişə bilərdi. (1, s. 8)

Sonda isə Eduard Braun Şərqdə və Qərbdə din anlayışını fərqləndirir və müqayisələr aparır: Qərbdə dinin əsası kimi İman və Salehlik götürülürsə, Şərqdə Bilik və Sirr götürülür, Qərbdə din yaşamaq və ümid etmək üçündürsə, Şərqdə Maddi və Mənəvi Aləmin Sirlərinin açarı sayılır, Qərbdə din Əmək və Xeyriyyəçilik ilə əlaqələnirsə, Şərqdə Asudəlik (dinclik) və Ariflik (Hikmət) ilə əlaqələndirilir, Qərbdə etiqad sadəliyinə görə, Şərqdə isə mürəkkəbliyinə görə ecazkar sayılır.

**Nəticə**

Eduard Braunun hürufilik qaynaqları və mənbələr, topladığı əlyazmalar əsasında ümumiləşdirdiyi 5 əsas ideya bu təlimi haqqında geniş təsəvvür yaratmağa imkan verir. İlk növbədə, onun tərəfindən yazılan bu ideyalar deməyə əsas verir ki, hürufilik yeni bir din deyildi. Bu cərəyanın kökündə İslam dini dayanırdı. Cəlaləddin Rumi və Mənsur Həllacın yazılarından təsirlənən Fəzlullah Nəimi əvvəlki dini qaynaqlardan faydalanaraq dini

məsələləri şərh etmiş, dinə fərqli bir baxışdan yanaşmışdır. İnsan əgər dində vacib buyurulan əməlləri yerinə yetirməklə günahlarından təmizlənirsə, Fəzlullah Nəimiyə görə, insan mənəvi təkamül yolu ilə, elmə yiyələnməklə də daxilini təmizləyə bilər. Onlar əslində hüruf elminə yiyələnmək deyəndə, ümumiyyətlə, insanın elm və biliyə yiyələnməsini faydalı hesab edirdilər. Təsadüfi deyil ki, hər şeydə məna və anlam axtaran Fəzlullah Nəimi insanın özünün və ətraf aləmin həm ayrı-ayrılıqda, həm də vəhdət olaraq tədqiq edilməsini vacib buyururdu. Bu təriqətin nümayəndələri hər şeyin Allah tərəfindən yaradıldığına inanır, sadəcə bütün mövcudatda Allahın əksini, onun izini axtarırdılar. İlk düşündükləri isə yaradılışın mərkəzində dayanan İnsan idi. Çünki İnsan zəkasına görə digər varlıqlardan üstün yaradılmışdı. Bu da insanda nitq qabiliyyətinin inkişafına səbəb olmuşdur. Bu baxımdan onlar hərfi və səsi müqəddəs hesab edirdilər.

## QAYNAQLAR

1. Gölpınarlı A. Hurufilik Metinleri Kataloğu. Türk Tarih Kurumu Basımevi-Ankara, 1973, 184 s.
2. Browne E. G., Nicholson R.A.. A Descriptive Catalogue of the Oriental Mss. Belonging to the Late E. G. Browne.Cambridge University Press, 1932, 325 pp.
3. Browne E.G. A literary history of Persia (3 volumes), Vol. III. Cambridge University Press, 1928, 586 pp.
4. Nəsimi, İmadəddin. Seçilmiş əsərləri. İki cilddə. II cild, Bakı, “Lider nəşriyyatı”, 2004, 376 s.
5. Bashir S. Fazlallah Astrabadi and the Hurufis. England, Oxford, Oneworld Publications, 2005, 141 s.
6. Browne E.G. Some Notes on the Literature and Doctrines of the Hurufi Sect. The Journal of the Royal Asiatic Society of Great Britain and Ireland (Jan., 1898), Cambridge University Press, pp. 61-94.
7. Ballı H. Fazlullah Hurufinin “Nevmnamesi” (inceleme, metin, tercüme). Mezheb araştırmaları, VIII/2 (Güz 2015), s. 7-42.

***Summary***

***Roya Mirzabayova***

***Some Notes on the Literature and Doctrines of the Hurufi Sect of Edward Granville Browne***

Hurufism was spread to the areas of Azerbaijan, in Western Iran in the 14th century and in Anatolia in the early 15th century. Letters and figures were considered sacred in the Hurufi sect, and symbolic meanings were imposed on them. Hurufi movement founded and promoted by Fazlullah Naimi has been investigated not only for its extraordinary concepts and sources, but also for its historical significance and political system of ideas at that time. The concepts of such mystical religion have attracted the attention of European orientalists. Some of the Orientalists studied Hurufi sect. Such orientalists include Elias John Wilkinson Gibb, Annemarie Schimmel, Edward Granville Browne, Clement Huart, John K. Birge, Kathleen R.F.Burrill, Hellmut Ritter and others. English orientalist, writer and translator, Edward Granville Browne studied extensively the sources of the Hurufi texts and the manuscripts.

The articles by Edward Brown in the Journal of the Royal Asiatic Society, “Some Notes on the Literature and Doctrines of the Hurufi Sect” (1898), “Further notes on the literature of the Hurufis and their connection with the Bektashi order of Dervishes” (1907) were published. Here Edward Brown explored the Hurufi texts and defined the basic doctrines of Hurufism.

The article studies the scientific works of English orientalist, writer and translator Eduard Granville Browne on the Hurufi Sect and the essence of his works in this field. At the same time, issues such as the basic doctrines of the sect studied by Edward Browne, who collected the sources and manuscripts related to the Hurufi sect are explained.

***Key words:*** *Hurufism, Edward Granville Browne, East, sect, doctrine*

***Резюме***

***Роя Мирзабекова***

***Некоторые заметки о литературе и доктринах секты Хуруфи Эдуарда Гранвиля Брауна***

Хуруфизм был распространен в XIV веке в Западном Иране и Азербайджане, а в начале XV века в Анадолу. Согласно этой секте буквы и цифры считались священными, и им были навязаны символические значения. Это направление хуруфизма, созданное и продвигаемое Фазлуллой Наими было исследовано не только его необычными концепциями и источниками, но также по историческому значению и политическим системам идей того времени. Понятия такой мистической секты привлекли внимание европейских востоковедов. В частности, отдельные востоковеды, которые изучали восточную науку, религию и культуру, просто затронули эту тему, а некоторые подробно исследовали эту тему. К этим востоковедам относятся Элиас Гибб, Аннемари Шиммель, Эдвард Гранвиль Браун, Клемент Хуарт, Джон К. Бирге, Кэтлин Р. Ф. Баррилл, Хельмут Риттер и многие другие. Английский востоковед, писатель и переводчик Эдуард Гранвиль Браун проводил обширные исследования, тщательно изучал источники хуруфизма и собирал копии рукописей.

Эдуард Браун опубликовал в журнале Королевского азиатского общества «Некоторые заметки об основополагающих доктринах суфийской традиции и горькой литературе» (1898), «Дополнительные примечания к литературе хуруфи и связи хуруфитов-дервишей с баптистской сектой” (1907). Здесь Эдвард Браун исследовал источники Хуруфи и определил основные доктрины секты, используя более систематическую и последовательную информацию. Пять основных идей, обобщенных в источниках Эдварда Брауна и его рукописей, позволяют составить более широкую картину учения о хуруфизме.

В статье исследуется научные труды английского востоковеда, писателя и переводчика Эдуарда Гранвиля Брауна о секте Хуруфи и расскрывается сущность его работ в этой области. Эдуард Гранвил Браун собрал и расширенно изучил источники и рукописи, связанные с сектой Хуруфи, и определил основные доктрины хуруфизма. В статье анализируется его научный подход к этой проблеме.


***Ключевые слова:*** *Хуруфизм, Эдвард Гранвиль Браун, Восток, секта, учение*

Məsul katib fil.ü.f.d., dos. Şıxıyeva Səadət Məmməd qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 31**

# SOSİAL DÖVLƏTİN İNKİŞAFININ NƏZƏRİ ƏSASLARI

**Səadət MƏMMƏDOVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 18 aprel 2019; çapa qəbul edilmişdir: 1 iyul 2019; online-da çap edilmişdir: 25 sentyabr 2019
Received: 18 April 2019; accepted: 1 July 2019; published online: 25 September

***Açar sözlər:*** *sosial, dövlət, hüquqi vətəndaş cəmiyyəti, sosial hüquqi dövlət, sosial dövlət*

## Giriş

Dövlətçiliyin ən yüksək mərhələsi hesab edilən sosial dövlət cəmiyyətin maraqlarına xidmət edən dövlətdir [16, s. 121-124]. Sosial dövlətin mahiyyətinin dərk edilməsi problemi aşağıdakı anlayışların izahını tələb edir: - "dövlət" anlayışının şərhi; - "sosial" olanın konseptual əsaslarının açılması; - "sosial dövlətin" əsas meyarlarının və xüsusiyyətlərinin müəyyənləşdirilməsi [10, s. 7].

I. Dövlət – müəyyən ərazini idarə edən və həmin ərazi hüdudlarında əhalinin davranışlarını tənzimləyəcək qanunlar yaratmaq iqtidarında olan və vergilərdən əldə edilən vəsaitlər hesabına mövcud olan institutlar məcmusudur [7, s. 92]. Cəmiyyətin siyasi təşkili forması olan dövlətin əsas əlamətləri aşağıdakılar hesab edilir:1.hakimiyyət funksiyasını yerinə yetirən və zorakılığın qanuniləşdirilmiş inhisarçısı kimi çıxış edən xüsusi aparatın olması; 2. müəyyən normalar sistemini möhkəmləndirən hüquqi sistemin olması [27, s. 58].

Robert Nozik dövlətin əsas xüsusiyyətlərini – "1) müəyyən ərazi hüdudlarında qüvvə tətbiq etmək inhisarına malik olmaq və 2) "bölüşdürmə" yolu ilə də olsa, öz ərazisində yaşayan hər bir insanın hüquqlarını müdafiə edən" siyasi birlik olmaq – kimi müəyyənləşdirir [25, s. 76].

Dövlət hakimiyyətinin strukturunda – hakimiyyət subyekti; hakimiyyət obyekti; hakimiyyətin fəaliyyətinin məzmunu; dövlət hakimiyyətinin həyata keçirilməsi vasitəsi, üsulu, qaydaları; hakimiyyət ehtiyatları kimi elementlər fərqləndirilir. Dövlət hakimiyyətinin obyektləri ayrı-ayrı fərdlər, sosial təbəqələr, siniflər, sosial və milli birliklər, bütövlükdə cəmiyyət, xalqlar, millətlər və s. ola bilər. Dövlət hakimiyyətinin subyekti dövlət, onun orqanları və vəzifəli şəxsləri ola bilərlər. Hakimiyyətlə münasibətlər çərçivəsində obyekt və subyekt öz potensial imkanlarını və bacarıqlarını həyata keçirirlər. Əgər demokratik hakimiyyətin və təbəələrin maraq və iradələri üst-üstə düşmürsə, kompromisdən məcbur etməyə qədər olan bütün idarəetmə metodları istifadə edilir [22, s. 12-13].

II. "Sosial" anlayışı – 1) cəmiyyət və onun təşkili ilə bağlı atribut kimi izah edilir; 2) cəmiyyətdə müəyyən səviyyə və statusu ifadə etmək üçün işlədilir [6, s.1464].

Latın dilində "sosial" anlayışına uyğun gələn "sociālis, e [socius]" ifadəsi - 1) "yoldaşlıq", "dostluq" (beneficium, consilium), "ünsiyyətcillik", "ictimai" (homosocialeanimalest.); 2) "ittifaq", "birlik" (exercitus, copiae, lex) və digər mənalarda istifadə edilir [13, s. 357].

* sosiologiya üzrə fəlsəfə doktoru, AMEA Elm Tarixi İnstitutu
*e-mail: saadet.baki@yahoo.com*

"Sosial" dedikdə, "sosiallaşma nəticəsində insanlar arasında yaranan münasibətlərin reallığı nəzərdə tutulur" [1, s. 294].

Müəyyən mənada "sosial" – şəxsiyyətin, sosiallaşan fərdin mahiyyəti ilə bağlı anlayışdır. V.Bozqurdun qeyd etdiyi kimi: "İnsanlar sosial varlıqdır... Bizim ümidlərimiz, qorxularımız, fürsətlərimiz, mənliyimiz və davranışlarımız sosial anlayışını ifadə edir" [2, s. 3]. Yuxarıda təqdim edilən izahların ümumiləşdirilməsi kimi qeyd edə bilərik ki, müəyyən birlik, yaxud toplum daxilində insanın davranışları (cəmiyyətdəki norma və qaydalarla tənzimlənən hərəkəti), o cümlədən fəaliyyəti (məqsədyönlü və nəticə əldə edilməsinə yönələn hərəkəti) qarşılıqlı ünsiyyətin səbəbi və nəticəsi olaraq sosial mahiyyət qazanır, yaxud insan özü sosial varlığa çevrilir, sosiallaşır.

III. Beləliklə, ən sadə anlamda "sosial dövlət" – sosiallaşan fərdlərin qarşılıqlı münasibətlər sistemi olan cəmiyyətə yönəlmiş, şəxsiyyəti və onun mənafelərini, rifahını üstün tutan, onun hüquq və azadlıqlarını təmin və müdafiə edən idarəetmə formasıdır, yaxud "şəxsiyyətin dövlətidir".

**"Sosial dövlət" ideyasının formalaşması tarixinə nəzər**

Sosial dövlətlə bağlı fərqli yanaşmalardan istifadə edən müəlliflər bir məsələdə ümumi fikrə malikdirlər: sosial dövlət fərdin maraqlarına xidmət etməli, onu yüksək dəyərləndirməli onun rifahının təmin edilməsini ali məqsədə çevirməlidir [15, s. 3-5]. Beləliklə, müasir cəmiyyət hüquqi vətəndaş cəmiyyəti kimi qəbul edilir. Müasir elmi ədəbiyyatda vətəndaş cəmiyyəti "bərabərhüquqlu, öz şəxsiyyətini azad ifadə edə bilən, əlavə qadağalardan və üzücü inzibati məhdudiyyətlərdən azad insanların cəmiyyəti kimi xarakterizə olunur" [28, s. 230]. Hüquqi vətəndaş cəmiyyətinin əsas xüsusiyyəti onun hüquqa əsaslanmasıdır, burada əsas məqsəd vətəndaşların maraqlarının məqsədəuyğun şəkildə təmin edilməsi ilə bağlıdır. Uyğun olaraq, hüquqi vətəndaş cəmiyyəti elə münasibətlər sistemidir ki, burada bərabərhüquqlu fərdlər və onların yaratdıqları birliklər hüquqi əsaslarda öz maraqlarını reallaşdırırlar. Hüquqi vətəndaş cəmiyyətində şəxsiyyətin həyatının bütün sahələrində və ilk növbədə iqtisadi sahədə onun azad iradəsi, fəaliyyəti və şəxsi maraqları reallaşır. Hüquqi vətəndaş cəmiyyətinin formalaşması sosial hüquqi dövlətin yaradılmasının əsas şərtidir. Bu iki proses qarşılıqlı əlaqəli və qarşılıqlı asılıdır. Məhz sosial hüquqi dövlətin formalaşdırılması hüquqi vətəndaş cəmiyyətinin əsası kimi çıxış edir [14, s. 386-390]. Bu baxımdan hüquqi vətəndaş cəmiyyətini sosial hüquqi dövlətin alternativi kimi qəbul etmək olar. Digər tərəfdən, sosial hüquqi dövlət və hüquqi vətəndaş cəmiyyəti müxtəlif aspektlərdə təhlil edilə bilər, lakin onların qarşılıqlı münasibətləri xüsusi əhəmiyyət kəsb edir. Mahiyyətinə görə sosial hüquqi dövlət – hüquqi və siyasi institutların konstitusion sistemidir, real olaraq xalqların suveren hüquqlarını və insanın beynəlxalq səviyyədə qəbul edilən hüquqlarını, şəxsiyyətin və cəmiyyətin maraqlarını hüquqi əsaslarda təmin edir. Nəzərə almaq lazımdır ki, hüquq ümumi sosial tənzimləyici kimi şəxsiyyətin və cəmiyyətin maraqlarının ahəngdar uyğunluğuna yönəlir [14, s. 386-390].

Sosial hüquqi dövlətin yaranmasının əsas səbəblərindən biri də hüquqi dövlətin insanların hüquq və azadlıqlarını müdafiə etmək iqtidarında olmamasıdır. Bu yalnız böyük əksəriyyət təşkil edən işçi sinfin hüquqları ilə deyil, həm də mülkiyyətçi sinfin hüquqlarının müdafiə edilməməsi ilə bağlıdır [9, s. 18-19]. Onu da nəzərə almaq lazımdır ki, sosial hüquqi dövlətin əsas vəzifələri və məqsədi real vətəndaş cəmiyyətinin sosial, iqtisadi və siyasi əsasları olan orta sinfin yaradılmasıdır [14, s. 386-390].

XXI əsrin əvvəllərində "sosial hüquqi dövlət" anlayışı ayrı-ayrı dövlətlərin konstitusiyalarında öz əksini tapmasa da, həm Qərbdə, həm də Şərqi Avropa ölkələrində, MDB və Rusiyada sosial hüquqi dövlət mövcuddur. Sosial hüquqi dövlətin meydana çıxması səbəbləri aşağıdakılarla bağlıdır: 1. XX əsrin əvvəllərində Qərbin siyasi-hüquqi

həyatında baş verən böhran; 2. XX əsrin əvvəllərində beynəlxalq hüquq və münasibətlərdə baş verən böhran, iki dünya müharibəsinin qarşısının alınmaması; 3. XX əsrin əvvəllərində bütün dünyanı əhatə edən böhran və depressiya; 4. Azad bazar iqtisadiyyatının və azad rəqabətin formalaşması nəticəsində sosial bərabərsizliyin genişlənməsi və iki düşmən sinfin yaranması; 5. Milli azadlıq hərəkatları və xalq üsyanlarının genişlənməsi və müstəmləkələrin dağılması; 6.Avropada və Asiyada milli demokratik və sosialist inqilabları nəticəsində dünya sosialist sisteminin yaranması [9, s. 18-19].

S.S.Alekseyev hüquqi və sosial dövlətin qarşılıqlı münasibətlərində münaqişəli vəziyyətin olduğunu göstərir. Belə ki, sosial dövlət ideyası azad rəqabətə əsaslanan bazar iqtisadiyyatı tələblərinə, demokratik dövlətçilik və hüquqi dövlətin qanunun aliliyi prinsipi isə demokratik cəmiyyətdə insan hüquqları ideyasına ziddir. Sosial hüquqi dövlətdə hüquqi və sosial əsaslar ziddiyyət təşkil edir, daha dəqiq desək, dialektik ziddiyyətə malikdir, ilk növbədə ona görə ki, bu əsaslar sadə məkan ardıcıllığına deyil, dinamik münasibətlərə malikdir [8, s. 793].

Bugünkü Qərb cəmiyyəti və onun sosial hüquqi dövləti kapitalizm cəmiyyəti deyil, burada sosializm meylləri də mövcuddur. Bununla yanaşı, sosial-hüquqi dövlətdə qarşılıqlı təsir, qarşılıqlı keçid, qarşılıqlı çevrilmə kimi hüquqi və sosial amillər arasında ziddiyyətlər yaranır. Bu, göstərir ki, mövcud ziddiyyətlər sosial dövlətin inkişaf mənbələri, onun özünühərəkət və yeni siyasi-hüquqi vəziyyət və formalara transformasiyası səbəbləri kimi çıxış edir. Hüquqi və sosial əsasların, yəni kapitalist və sosialist elementlərin daimi qarşılıqlı nüfuz etməsi və qarşılıqlı itələməsinə baxmayaraq, sosial hüquqi dövlət hüquqi (liberal) və sosial (kollektiv) istiqamətləri öz hüquqi və iqtisadi siyasəti ilə tənzimləyir [9, s. 18-19].

Sosial dövlətin formalaşması industrial və post-industrial cəmiyyətlərdə mövcud olan ictimai münasibətlərdə dövlətin sosial rolunun genişlənməsi ilə bağlıdır. Xüsusilə də ikinci dünya müharibəsindən sonra siyasi institut kimi dövlətin rolunun genişlənməsi, iqtisadi məkanın miqyasının dəyişməsi, inteqrativ, funksional təsnif olunmuş və rasional fəaliyyət göstərən sistemə çevrilməsi nəticəsində vətəndaşlar arasında əmlak bərabərsizliyi genişləndi, əhalinin sosial mövqeyi zəifləməyə, maddi vəziyyəti ağırlaşmağa başladı. Hüquqi dövlətin məhdudluğu yeni tipli sənaye ölkələrinin yaranmasına və inkişafına səbəb oldu. Belə bir şəraitdə sosial dövlət haqqında təsəvvürlər dəyişməyə, XX əsrin 70-80-cı illərində sosial dövlətin yeni konseptual əsasları formalaşmağa başladı [30, s. 387-393].

Hazırda sosial, yaxud sosial hüquqi dövlət üç səviyyədə mövcuddur: - elmi, yəni ideya və konsepsiyalar səviyyəsində; - normativ səviyyədə, yəni bir sıra ölkələrin əsas qanunlarında və konstitusiyalarında; - empirik səviyyədə, yəni bir sıra sosial problemlərin həll edilməsilə bağlı dövlət institutlarının və sosial qrupların real fəaliyyətində [19, s. 23].

Ümumilikdə, sosial dövlət, yaxud rifah dövləti ilə bağlı tədqiqatlarda – “sosial dövlət” anlayışının mahiyyəti və bu anlayışın ayrı-ayrı istiqamətlərinin deformasiyası, həmçinin ayrı-arı mədəni tarixi şəraitlərdə inkişaf dinamikası nəzərdən keçirilir. Onu da qeyd emək lazımdır ki, artıq yüz ildən çox bir müddətdə formalaşan sosial dövlətin müəyyən edilməsi ilə bağlı ümumi qəbul edilmiş, konkret anlayış yoxdur [4, s. 152].

A.F.Xramtsov sosial dövləti “mühafizəkar, kompromisə gəlmiş mühafizəkar, sosialist və liberal siyasi qüvvələrin tarixi qarşıdurmasının nəticəsi kimi” izah edir [29, s. 419]. Görkəmli rus alimi E.N.Naumovanın fikrincə, ümumi mənada sosial dövlət idarəçiliklə bağlı ümumi işləri nizamlayan ictimai institut kimi çıxış edir, dar mənada sosial dövlət şəxsiyyətin müəyyən tələbatlarının təmin edilməsi, onun statusu ilə bağlı formalaşan münasibətləri, digər insanlarla qarşılıqlı münasibətlərini nəzərdə tutur [24, s. 49]. L.N.Koçetkovaya görə, sosial dövlətin əsas məqsədi şəxsiyyətin şəxsi və ümumi

müstəqilliyini təmin etməklə sinfi ziddiyyətlərin yumşaldılmasına, bazar iqtisadiyyatının sabitləşdirilməsinə yönəlir. Sosial dövlət hər bir vətəndaşın maddi həyat fəaliyyəti standartları ilə təmin edilməsinə zəmanət verməlidir [26, s. 22]. S.V.Kalaşnikov qeyd edir ki, "sosializmə xas prinsip və məqsədlərin sosial dövlətin atributları ilə üst-üstə düşməsi sosial dövlətin və sosializm ideologiyasının sıx bağlı olduğunu göstərir. Öz mahiyyətinə görə sosial dövlət sosialist ideyaların reallaşdırılması kimi çıxış edir" [17, s. 67-68]. S.S.Alekseyev isə sosial dövləti sosialist dövlətin analoqu kimi təqdim edərək, bu anlayışların mahiyyətcə çox yaxın olduqlarını vurğulayır [8, s. 793].

Bu mənada SSRİ sosialist ideyalarının reallaşdırılmasına yönəlmiş sosial dövlət kimi qəbul edilə bilər. SSRİ-nin sosialist, yaxud müəyyən mənada sosial dövlət tipi kimi ən yüksək inkişaf mərhələsi XX əsrin 70-80-ci illərinə təsadüf edir. Bu dövrdə dünyada sosialist dövlətləri qrupu mövcud idi və eyni zamanda SSRİ ilə rəqabət aparan Qərb ölkələrində çox sayda sosial yönlü dəyişikliklər aparılmışdır. R.Qrinberqin qeyd etdiyi kimi: "Sovet dövləti əhalinin müdafiəsi sahəsində müəyyən nailiyyətlər əldə etmişdi: sosial yardım sistemində, işçilərin sosial sığortası, əmək və istirahət üçün şərait (geniş sanatoriyalar sistemi, istirahət evləri, profilaktoriyalar, pioner düşərgələri və s.) yaradılmışdı və burada istirahət qismən, yaxud tam şəkildə dövlət tərəfindən ödənilirdi. Əhali pulsuz poliklinikalar, uşaq bağçaları, kitabxanalar və s. ilə təmin edilmişdi. SSRİ-də uşaq ölümü dünyada ən aşağı səviyyədə idi. Təəccüblüdür ki, bütün bunlar bazar iqtisadiyyatının olmadığı və demokratik azadlıqların məhdudlaşdırıldığı ölkədə baş vermişdir. SSRİ-də sosial dövlət cəmiyyətin maddi deyil, qeyri-maddi inkişafı, ilk növbədə marksizm ideoloji təmayülləri və həmin dövrə uyğun sosial siyasət əsasında qurulmuşdu" [12, s. 3].

Qeyd etməliyik ki, sosial sahədə böyük nailiyyətlər əldə edilsə də, zənnimizcə, müəyyən parametrlərə görə SSRİ tam sosial dövlət hesab oluna bilməz, belə ki, sosial dövlət açıq cəmiyyət dövlətidir, SSRİ-də qapalı cəmiyyət hökm sürürdü; sosial dövlət azad sahibkarlığın və sosial yönümlü bazar iqtisadiyyatının inkişaf etdiyi dövlətdir, lakin SSRİ planlı təsərrüfata əsaslanan iqtisadi sistemə malik idi; sosial dövlət bütün sahələrdə plüralizmin inkişaf etdiyi dövlətdir, SSRİ-də isə fikir azadlığına şərait yaradılmırdı və s. Bu mənada, H.Braun və M.Niehaus sosial dövlətin əsas əlamətlərini aşağıdakı kimi təsnif edirlər: 1."Sosial rifah dövləti ideyası yalnız sosial təminatın təyin edilməsi ilə bağlı deyil, həm də bunu daha yaxşı səviyyədə və xüsusilə də hər bir vətəndaşa sosial təminat imkanlarının təqdim edilməsi ilə bağlıdır"; 2.Mərkəzləşmiş şəkildə tənzimlənən və yüksək təşkil edilmiş qayğıya söykənən mövcudluq, sosial ədalətə uyğun olaraq dəyişmiş iqtisadi liberalizm təsərrüfat sisteminin və müasir demokratiyanın ilkin ictimai reallığı kimi bütün həyat şəraitlərində bütün vətəndaşlara qayğı və xidmət göstərilməsi [4, s. 152].

Müasir sosial dövlətin yaradılması üçün bir sıra şərtlərin həyata keçirilməsi tələb olunur: 1.Sosial dövlətin yaradılması hüquqi dövlətin növbəti mərhələsi olmalıdır; 2. Orta təbəqə inkişaf etdirilməlidir; 3.Güclü iqtisadi potensial olmalıdır; 4. İnhisarçılığın qarşısı alınmalıdır; 5.Yetkin vətəndaş cəmiyyəti qurulmalıdır; 6. Cəmiyyətin mənəvi səviyyəsi yüksəldilməli, sosial ədalət və bərabərlik təmin edilməlidir [18, s. 28-57].

Hazırda sosial dövlət konsepsiyasının "inkişaf edən dövlət" konsepsiyası ilə əvəz edilməsi fikirləri də irəli sürülür [11, s. 13]. Bu zaman insan kapitalının inkişafı əsas məqsəd kimi müəyyənləşdirilir. BMT-nin 2016-cı il "İnsan İnkişafı Haqqındakı Məruzə"sində qeyd edilir ki, bu konsepsiyanın əsasları "hər bir şəxsin inkişafına" yönəlmə kimi müəyyən edilir. Burada hər bir kəs üçün insan inkişafının əsas prinsipləri aşağıdakı kimi müəyyənləşdirilmişdir: 1. Kollektiv imkanlar; 2. Dayanıqlı inkişaf; 3.Səs və muxtariyyət; 4. İnsan hüquqları; 5. İnsan təhlükəsizliyi [5].

Sosial dövlət – inkişaf etmiş vətəndaş cəmiyyəti ilə bağlı hüquqi dövlət kimi öz

fəaliyyətində azadlıq və bərabərlik, sosial ədalət, sinifdən üstün mövqe prinsiplərini birləşdirir, insanın sosial iqtisadi hüquqlarını real şəkildə təmin edir [21, s. 5-14]. Sosial dövlətin formalaşması yalnız iqtisadi və siyasi proses deyil, həm də mənəvi prosesdir və insan amilinin nəzərə alınmasını tələb edir [23, s. 357-359]. Sosial dövlət və hüquqi dövlət müəyyən mənada vəhdətdədir, belə ki, sosial dövlət insanın real hüquqları ilə bağlı dövlətdir. Sosial dövlət sinifdən üstündür, belə ki, o normal həyatın təmin edilməsinə və ümumilikdə cəmiyyətin inkişafına yönəlib, o bütün vətəndaşların, xalqların hüquqlarını, azadlıqlarını, qanuni maraqlarını müdafiə edir, ölkədə sosial gərginliyin aradan qaldırılmasına yönəlir. Sosial dövlət orta sinfin dövlətidir. Sosial dövlətin mövcudluğu və fəaliyyəti demokratiya, vətəndaş cəmiyyəti, hüquqi dövlət, azadlıq və bərabərlik, insan hüquqları kimi anlayışlarla sıx bağlıdır [21, s. 5-14].

Beləliklə, sosial dövlət bilavasitə insanlar arasında yaranan münasibətlər sistemində (siyasi, iqtisadi, mənəvi-mədəni) hər zaman fərdin ali məqsəd olduğunu nəzərdə saxlayır. Bu baxımdan, sosial dövlətin xarakterik xüsusiyyətlərinin, əsaslarının, mahiyyətinin, əlamətlərinin, fəaliyyət mexanizmlərinin öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir. V.İ.Leonovun qeyd etdiyi kimi, dövlət hüquqi əsaslarda mövcud olduğu üçün sosial dövlət də qanunlarsız idarə edilə bilməz, lakin burada qəbul edilən qanunlar daha çox sosial sahələrin inkişafını nəzərə alır və sosial sahəyə yönəlir [20, s. 73].

Sosial dövlətin üç təməl özünəməxsusluğu fərqləndirilir: 1) Müdaxiləçi – bazarın uğursuzluğu ilə bağlı yaranan problemlərin qarşısını almaq üçün tədbirlərin görülməsi. 2) Tənzimləyici – iş bazarında aşağı əmək haqqı ilə əlaqədar fəhlələrin səfalətə məruz qalmaması üçün minimal əmək haqqı müəyyən edilir, sosial təhlükəsizlik və sosial yardım xidmətləri təmin edilir. 3) Gəlirin yenidən müəyyənləşdirilməsi – vergi və digər siyasətlər və transfer xərcləri ilə gəlirin paylanmasına müdaxilə edən siniflər arasında tarazlığın pozulması dolayısı ilə problemlərin yaranmasına gətirir [3, s. 38-50].

Sosial yönümlü dövlətin əsas obyekti insan, onun çoxsaylı sosial tələbatları və maraqları, onun sosial rahatlığı və sosial əhval-ruhiyyəsi, insanın sosial müdafiəsidir, sosial dövlətin ali məqsədi isə insanın layiqli yaşayışının və azad inkişafının, yəni müasir inkişaf etmiş cəmiyyətlər səviyyəsində maddi təminatı, mədəni dəyərlərə açılma imkanları, şəxsi təhlükəsizliyinin təmin edilməsi ilə bağlıdır [23, s. 357-359].

Beləliklə, sosial dövlətin nəzəri əsaslarının araşdırılmasına əsasən deyə bilərik ki:

I. Sosial dövlət ideyası XIX əsrdə formalaşsa da, XX əsrin birinci yarısında hüquqi əsaslarda təsdiqlənmiş, XX əsrin sonu və XXI əsrin əvvəllərindən etibarən reallaşmağa başlamışdır.

II. Müasir sosial dövlətlər əsasən əhalinin sosial rifahının yaxşılaşdırılması ilə bağlı inkişaf prinsiplərini ehtiva edən sosial siyasət həyata keçirir. Bu sosial siyasət dövlət – cəmiyyət – vətəndaş münasibətlərində sosial ədalətin, sosial əməkdaşlığın, sosial məsuliyyətin, sosial həmrəyliyin bərqərar olmasını və bu əsasda əhalinin sosial müdafiəsini və sosial təminatını nəzərdə tutur.

III. Sosial dövlətin inkişaf strategiyası fərdin və cəmiyyətin tarazlaşdırılmış tərəqqisinə yönəlir. Sosial dövlət vətəndaş cəmiyyətinin inkişafına yönəlir və burada heç bir sosial qeyri-bərabərliyə - etnik, mədəni, dini, cinsi, siyasi və digər ayrı-seçkiliyinə yol verilmir, vətəndaşlar sosial, siyasi, iqtisadi, mənəvi və mədəni sahələrdə bərabər iştiraka cəlb edilirlər.

**Nəticə**

Sosial dövlətin əsas mahiyyəti əldə edilmiş elmi, texniki, mədəni və digər nailiyyətlərin insanların rifah halının yüksəldilməsinə yönəldilməsi ilə bağlıdır. Sosial dövlətin inkişafı tendensiyası ayrı-ayrı ölkələrdə əhalinin sosial təminatı, gəlirlərin səmərəli bölüşdürülməsi, sosial iqtisadi inkişaf strategiyasının yaradılması, sosial əməkdaşlığın

və sosial məsuliyyətin inkişafı və kiçik biznesin inkişaf şəraitinin optimallaşdırılmasını əhatə edən səmərəli sosial siyasətin həyata keçirilməsi, sərt dövlət tənzimlənməsi sisteminin formalaşmasını tələb edir.

Sosial dövlət yüksək iqtisadi inkişaf səviyyəsinə, sosial yönümlü iqtisadiyyata malik olan dövlətdir. Sosial yönümlü bazar iqtisadiyyatı bilavasitə qarşılıqlı sosial məsuliyyətin formalaşdırılması əsasında inkişaf edir. Burada sosial məsuliyyət dövlət – cəmiyyət – vətəndaş üçlüyünün qarşılıqlı cavabdehliyini, qarşılıqlı inamını nəzərdə tutur.

## QAYNAQLAR

**Azərbaycan dilində**

1. Həsənov R.M. Sosial siyasət. Bakı: "AVROPA" nəşriyyatı, 2016, 310 s.

**Türk dilində**

2. Veysel Bozkurt. Değişen Dünyada Sosioloji. EKİN Basım Yayın Dağıtım, 2007, 402 s.
3. Zafer Durdu. Modern Devletin Dönüşümünde Bir Ara Dönem: Sosyal Refah Devleti // Muğla Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi (İLKE) Bahar 2009 Sayı 22, s. 38-50

**İngilis dilində**

4. Braun H., Niehaus M. Sozialstaat Bundes republik Deutchland aufdem Wegnach Europa. Frankfurt am Main; 1990, 122 p.
5. Human development report 2016. Human development for every one © Copyright 2017 Hdro by the United Nations Development Programme. 1 UN Plaza, NewYork, NY 10017, USA. (http://hdr.undp.org/sites/default/files/2016_human_development_report.pdf)
6. Welfare State". A S Hornby Oxford Advanced Learner's Dictionary of Current English. Oxford New York. University press 2010, 185p.

**Rus dilində**

7. Аберкромби Н., Хилл С., Тернер Б.С. Социологический словарь. (перевод с английского И.Г.Ясавеева), М.: Экономика, 2004, 620 с.
8. Алексеев С.С. Право: азбука – теория – философия: опыт комплексного исследования. – М.: Издательская группа НОРМА - ИНФРА ,1999, 993 с.
9. Белов В.Г. Социальное государство и гражданское общество. М:ФАЗИС, 2009
10. Белоусова С.В. Социальное государство как инструмент обеспечения качества жизни. Иркутск: ИрГУПС, 2012, 74 с.
11. Геец В.М. Какое будущее у социального государства? // Экономика Украины, 2013, № 7 (612), с.4-20
12. Гринберг Р. Социальная справедливость и парадоксы становления социального государства в России // Россия сегодня и завтра, 2008, № 10, с. 1-5
13. *Дворецкий* И.*Х*. Латинско-русский словарь. М.: *Русский язык-Медиа, 2005, 1096 с.*
14. Дробязко С.Г. Соотношение правового государства и правового гражданского общества // Конституционно-правовые проблемы формирования социального правового государства: материалы Межд. науч.-практ. конф., 30-31 матра 2000 г., Минск, 2000, с. *386-390.*
15. Игольникова В.А. Социальное правовое государство. Сравнительный анализ подходов к содержанию этого понятия на Западе и России // Государственная власть и местное самоуправление, 2014, № 4, с. 3-5.
16. Калашников С.В. Социальное государство: эволюция и этапы становления. // Человек итруд, № 10, 2002, с. 47-51.
17. Калашников С.В. Очерк теории социального государства. М.: Экономика, 2006, 362 с.
18. Каменецкий В.А. Проблемы становления социального государства / В.А.Каменецкий,

В.П. Патрикеев. М.: АТиСО, 2001, 360 с.

19. *Копташкин С.В.* Социальное государство. Научные публикации КФ РГСУ © 2008. (http://kraspubl.ru/content/view/287/68/)
20. Леонов И. В. Социальное государство как предмет теоретико-правового исследования: дис. … кандюрид. наук. М., 2006, 156 с.
21. Мамут Л.С. Социальное государство с точки зрения права // Государство и право. 2001. – № 7, с.5-14
22. Морозова Л.А. Теория государства и права. Учебник. М.: Проспект,2013
23. Морозова Л.А. Теория государства и права: Юристъ, 2002, 414 с.
24. Наумова Е.Н., Социальное государство в России: проблемы теории и практики : дис. … канд. юрид. наук, Владимир, 2006, 149 с.
25. Нозик Роберт. Анархия, государство и утопия / Роберт Нозик ; пер. с англ. Б. Пинскера под ред. Ю. Кузнецова и А. Куряева. М.: ИРИСЭН, 2008, 424 с.
26. Осейчук В. И., Конституционно-правовые проблемы строительства в России демократического правового социального государства: автореф. … дис. д-ра юрид. наук. Тюмень, 2009, 343 с.
27. Социологический энциклопедический словарь. М.: Норма, 2000, 488 с.
28. Теория государства и права. М: Проспект,1996, 516 с.
29. Храмцов А.Ф. Социальное государство: Россия и европейский опыт. М.: Испран, 2005, 418 с.
30. Шамова Л.Г. Социальное государство. История. Современность. «Россия: пут к социальному государству». Материалы Всероссийской научной конференции (Москва, 6 июня 2008 г.), Москва: Научный эксперт, 2008, с. 387-393


***Резюме***

***Саадет Мамедова***

***Теоретические основы развития социального государства***


Новейшая стадия человеческой истории – постнеокапитализм характеризуется стремлением к улучшению качества жизни людей, обеспечения социальной справедливости, укрепления социального сотрудничества и взаимной социальной ответственности, устранения социального неравенства, обеспечения прав и свобод человека и создания достойных условий жизни людей. В связи с этим социальное государство рассматривается как новейшая модель «идеального управ - ления». Социальное государство – это государственная структура, основанная на взаимной деятельности, взаимопомощи и поддержке в государстве, обществе и в гражданских отношениях. Социальное государство – это форма организации общества, где социальные факторы развития направлены на повышение благосостояния граждан как основная цель государственного управ - ления. Это государственное строительство не позволяет никаких социальных, политических, культурных и т.д. дискриминаций в социальных отношениях, регулирует социальную напряженность и конфликтов, направлена на установление гармоничных отношений в контексте государства-человека-общества.

Определение «социальное государство» имеет много толкований, несмотря на то, что во многих странах существуют модели этого государственного управления. Хотя социальное сос тояние изучалось и анализировалось экспертами на Западе, а также на постсоветском пространстве, общепринятое единое определение этого понятия еще не сформулировано. В Конституции многих современных государств есть статьи о социальной политике, но это не означает, что они социальные государства. Реализация этих статей, обеспечение прав и свобод человека, достойных условий жизни, существования государства на благо людей и их благосостояния, является основной идеей и условием социального государства. Социальное государство способна устранить отчуждение между правительством и народом. Эта система управления помогает поддерживать чувство идентичности и социальной устойчивости в обществе. Развитие цивилизованного общества основывается на традиционных гуманистических ценностях, коллективизме. Нравственные основы развития социального государства связаны с традиционно-гуманистическими идеалами, коллективизмом и с обеспечением социальной солидарности, которая связана с взаимопомощью в обществе.

***Ключевые слова:*** социальное, государство, правовое гражданское общество, социально-правовое государство, социальное государство

***Summary***

***Saadat Mammadova***

***The Theoretical Bazes of the Development of Social State***

The latest stage of human history - postneocipitalism is characterized by the desire to improve the quality of life of people, to ensure social justice, to strengthen social cooperation and mutual social responsibility, to eliminate social inequalities, to ensure human rights and freedoms and to create decent living conditions for people. In this regard, the social state is seen a s the newest model of "perfect governance." A social State is a State structure based on mutual activity, mutual assistance and support in the State, society and civil relations.

The definition of "social state" has many interpretations, even though there are models of this public administration in many countries. Although the social condition has been studied and analysed by experts in the West as well as in the post-Soviet space, the generally accepted unified definition of this concept has not yet been formulated.

The Constitution of many modern States has articles on social policy, but this does not mean that they are social States. The realization of these articles, the guarantee of human rights and freedoms, decent living conditions, the existence of the State for the benefit of people and their well-being, is the basic idea and condition of the social State. The social state is able to eliminate the alienation between the government and the people. This system of governance helps to maintain a sense o f identity and social sustainability in society. The development of civilized society is based on traditional humanistic values and collectivism.

The moral foundations for the development of the social State are linked to traditional humanist ideals, collectivism and social solidarity, which is linked to mutual assistance in society.

***Key words:*** social, state, legal civil society, social legal state, social state

Redaksiya heyətinin üzvü f.e.f.d., dos. Məmmədov Hüseyn Qaraxan oğlunun rəyi əsasnda çapa məsləhət görülmüşdür.

UOT 1

# QLOBAL TƏHSİL SİSTEMİNİN İNKİŞAFININ ƏSAS İSTİQAMƏTLƏRİ

**Müslüm NƏZƏROV***

Məqalə redaksiyaya daxil olmuşdur: 22 may 2019; çapa qəbul edilmişdir: 28 iyun 2019; online-da çap edilmişdir: 25 sentyabr 2019
Received: 8 May 2019; accepted: 6 June 2019; published online: 25 September

***Açar sözlər:*** *təhsil, qloballaşma, bilik, inkişaf, təhsil modelləri, qlobal meyllər*

## Giriş

Müasir mürəkkəb dünyamız fərdi-şəxsi səviyyədən tutmuş ayrı-ayrı cəmiyyətlər və bütövlükdə, bəşəriyyətə qədər dərin mənəvi problemlərlə doludur. Mədəniyyətin yaradıcısı dediyimiz insanın sosial fəaliyyəti indiki nəslin gözləri önündə elə yaxın keçmişdə fantastik təxəyyülə layiq sayılan əsl xarüqələr yaratmaqdadır – doğma planetimiz yerin təkindən tutmuş kosmosun ənginliklərinədək, makroaləmin sirlərinə dərindən nüfuz etməkdədir.

Yeni ümumdünya birliyinin yaranmasının real iştirakçısı olan müasir təhsil bu birliyin inkişaf problemlərinin episentrində durur. Müasir təhsil haqqında təsəvvürləri dərinləşdirmək üçün təhsilin müasir dəyərlərinin şəxsiyyətin, millətin, cəmiyyətin inkişaf dəyərlərinə uyğun olub-olmadığını dəqiqləşdirmək lazımdır, çünki cəmiyyətin inkişaf resursları bu gün şəxsiyyətin potensialı, yaradıcı qabiliyyətləri ilə bağlıdır.

Təhsil sistemi sosial institutlardan biri olduğu üçün onun inkişafı, elmi, texniki və sosial tərəqqinin xarakteri və nailiyyətlərinə görə cəmiyyətin ehtiyaclarının dəyişməsi ilə tamamilə əvvəlcədən müəyyənləşdirilmişdir. Müasir sosial inkişaf dinamikası insan həyatının və fəaliyyətinin bütün sahələrində - elm və texnologiyada, iqtisadiyyatda və siyasətdə, təhsil və mədəniyyətdə, istehsalın təşkilində və onun idarə edilməsində sürətli və dərin dəyişikliklərlə xarakterizə olunur. Ən vacib sosial qurumlardan biri kimi təhsil də yüksək texnologiyaların inkişafı və tətbiqi ilə cəmiyyətin dəyişən məqsəd və ehtiyaclarına uyğun olaraq daim inkişafa məruz qalır. Eyni zamanda, təhsil sistemlərinin dövrün sosial çağırışlarına cavabı avtomatik deyil, dolayı yolla baş verir.

Müasir dünyada bilik yeni bir status aldıqda, təhsil prosesləri və sistemlərinin problemləri fəlsəfi analizin ən vacib sahələrindən birinə çevrilir. Avropada vahid təhsil məkanının formalaşması dinamikası və Azərbaycanın bu prosesə qoşulması müasir təhsil fəlsəfəsi prinsiplərinin inkişafı və dünya təhsil sistemlərinin islahatları xüsusi əhəmiyyət daşıyir.

Bu hallar, əsas parametrlərini sosial dəyişikliklərlə, elmi, texniki və sosial tərəqqinin qabaqcıl istiqamətləri ilə uyğunlaşdırmaq üçün həm sivilizasiya proseslərinin, həm də təhsil sistemlərinin fəaliyyətinin daim araşdırılması və tədqiqinə zəruri şərait yaradır. Bu vəziyyətdə, ümumiyyətlə, ən köklü modernləşmə, təhsilin məzmunu kimi bir elementi tələb edir ki, bu təməl yüksək və peşə məktəblərində tələbə hazırlığı proqramlarını inkişaf etdirmək imkanı verən və ali təhsilin səviyyəsini və keyfiyyətini müəyyənləşdirən təməl

* pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Dövlət Pedaqoji Universiteti
*e-mail: muslimnazarov@mail.ru*

təhsilin məzmunudur. Peşə təhsilinin məzmunu cəmiyyətin məhsuldar qüvvələrinin inkişafı və istifadəsinin təbiətinə, maddi və mənəvi mədəniyyətə birbaşa təsir göstərir.

**1. Qlobal təhsil proseslərin inkişafının əsas amilləri**

Dünya birliyi, elm, mədəniyyət dövrümüzün qlobal problemlərinin həllini bəşəriyyətin ən vacib və ilkin problemləri hesab edir. Təbii ki, təhsil də müasir dəyişən dünyada fərdin tərbiyəsinə mümkün töhfə verməyə, bəşəriyyətin qlobal problemlərinin mahiyyətini və onların həlli metodologiyasını dərk etməyə çağırılır.

Qloballaşma dünyanı vahid xüsusiyyətləri olan, xalqların və dövlətlərin qarşılıqlı təsiri və qarşılıqlı asılılığının artdığı tarixi bir prosesdir.

Qloballaşma amillərinin təsiri ilə yaranan tarixi sistem aşağıdakı kimi əks olunur:

- insanları ayıran zaman və məkanı minimum dərəcədə elektron rabitə vasitələrindən istifadə;
- istehsal olunan məhsulların dünyada yayılmasına imkan verən texnoloji dəyişikliklər;
- ətraf mühit və ya insan hüquqları hərəkatı kimi qlobal ideologiyaların formalaşması.

1990-cı illərin sonlarında. "qloballaşma" anlayışı yalnız elm adamlarının deyil, siyasətçilərdən tutmuş mediaya qədər istifadə etməyə başlamışlar. Bu sözün həqiqi mənasında dünyada baş verən prosesləri, dövrü dəyişdirən dəyişiklikləri dərk edən bir paradiqmanı ehtiva edir. Qloballaşma anlayışı mürəkkəb proseslərin məcmusunun qısa bir tərifidir, mahiyyəti ondadır ki, onlar zaman və məkanda dünyanı “sıxışdırır” və mövcud olan bütün ərazi sərhədlərini şərti və keçirici edir.

Avropa Birliyi 2000-ci ildə qloballaşma proseslərinin tələblərinə uyğun olaraq dünyada rəqabətə qabil, biliyə köklənən iqtisadi məkan etmək iddiası ilə çıxış etdi. O zamandan həmin təklif şübhə və tənqidlərə səbəb oldusa da, Polşa sosioloqu Mapeк Kviekin haqlı olaraq qeyd etdiyi kimi, əmək bazarlarında akademik dərəcələrin tanınması artıq reallıqdır [8, s. 760].

Qlobal mexanizmlərdən kənarda dayanmaq istəyən iqtisadiyyatın qloballaşmış mühitdə yeri olmadığı kimi, ali məktəblərin də belə bir mühitdə yeri yoxdur.

***Qloballaşma*** – beynəlxalq əhəmiyyətli müxtəlif siyasi, iqtisadi, mədəni, informasiya təyinatlı amillərin ayrı-ayrı ölkələrin sosial varlığına hərtərəfli artan təsir prosesidir.

Biz hesab edirik ki, təhsil sistemi kontekstində beynəlxalq əmək prosesləri ilə bağlı olan sosial fenomen kimi qloballaşmanı mübadilə proseslərini asanlaşdırmaq üçün dövlətlər üstü təşkilatları hədəf götürən qloballaşmadan fərqləndirmək lazımdır (4).

Beləliklə, qloballaşma (fransız dilindən - qlobal - universal) iqtisadi, siyasi, sosial və mədəni əlaqələrin bütün insan cəmiyyətini əhatə etməsi prosesi kimi şərh olunur. Qloballaşma üç mənada başa düşülür - birincisi, insanlar, dövlətlər və mədəniyyətlər arasında qarşılıqlı əlaqələrin genişlənməsində davam edən tarixi bir proses kimi; ikincisi, homogen bir siyasi, iqtisadi və mədəni dünyaya tədricən hərəkət etmək kimi universallıq və homogenləşmə xüsusiyyətlərini gücləndirməklə dünyanın ümumbəşəri universallaşması kimi; üçüncüsü, qarşılıqlı iqtisadi fəaliyyət sahəsində şəffaflığı qorumaqla milli sərhədlərin açıqlığı kimi. Qloballaşmanın vacib bir istiqaməti kütləvi mədəniyyətin, kütləvi şüurun formalaşmasının çox gəlirli bir iş növünə çevrilməsidir.

Bu gün təhsil işçi qüvvəsi bazarının açarıdır. Yaxşı təhsil uğurlu məsuliyyətli ömür və sosial iştirak üçün təməl, işsizlik riskindən ən yaxşı müdafiədir. Hesablamalara görə, təhsili olmayan insanların işsiz qalmaq riski peşə diplomu olan insanlardan demək olar ki, 3 dəfə çoxdur. Buna görə də məqalədə məqsəd qloballaşma proseslərinin təklif etdiyi şanslardan çoxlarının istifadə edə biləcəyini əsaslandırmaqdır.

Fərdin qloballaşma proseslərini anlaması və bu proseslərdə fəal iştirak etməsi üçün onun aşağıdakı üç amilə ehtiyacının olduğu qeyd etmək olar: qeyri-stabilliyin stabil dərki,

predmet və strateji biliklər, texniki və koqnitiv səriştəlilik.

***Qeyri-stabilliyin stabil dərki*** dəyişikliklərə qarşı həssaslığı, çevikliyi, habelə korreaksiyaya hazır olmanı ifadə edir.

***Predmet və strateji biliklər:*** daha çox biliyin olması daha çox səriştəli olmaq deməkdir. Bu, təkcə qərar qəbuletmə situasiyalarında deyil, başqa səbəbdən də faydalıdır: insanın özünü səriştəli hiss etməsi onun qeyri-müəyyənliyə münasibətini şərtləndirir. Öz biliklərinə arxalanmaqla insan özünü səriştəli bilir, deməli, ikimənalı situasiyalara da az düşür və realistik qərarlar qəbul etmək iqtidarında da olur.

Aşağıdakı bilik kateqoriyalarını qeyd etmək lazımdır:

**İnformasiya mənbələri haqqında biliklər.** Söhbət kütləvi informasiya vasitələrinin, xüsusən də İnternetin insan üçün açdığı informasiya və kommunikasiya imkanlarından, habelə informasiyanı təklif edən insan və təşkilatlardan gedir.

**Başqa mədəniyyətlərdə qərar qəbuletmə situasiyalarında davranış haqqında biliklər**. Söhbət başqa mədəniyyətlərin nümayəndələrinin risk və qərar qəbuletmə situasiyalarında necə davranması barədə biliklərdən gedir.

**Qərar qəbuletmə strategiyaları haqqında biliklər.** Bu zaman çıxış situasiyası baxımından diqqətin hərəkət alternativləri üzərindəmi yoxsa nəticənin dəyərliliyi üzə-rindəmi fokuslanmasından asılı olaraq, iki strategiyanı fərqləndirmək lazımdır. Birinci strategiyada alternativlər verilmiş olur, ikincidə isə onları işləmək lazım gəlir.

***Texniki və koqnitiv səriştəlilik.*** Burada da söhbət tamamilə yeni və ya mürəkkəb məsələlərin həlli üçün lazım olan qabiliyyətlərdən fərqli bir şeydən getmir. Qloballaşmanın gedişində fərd tez-tez belə situasiyalarla qarşılaşır. Fərdin bu situasiyaların öhdəsindən uğurla gəlməsi üçün aşağıdakı səriştəliklər təhsil prosesində mümkün qədər erkən vaxtlarda aşılanmalıdır:

**Qeyri-səlis düşüncə qabiliyyəti.** Bu zaman bir sıra düşüncə tərzləri başa düşülür. Bunların üzərində ətraflı dayanmayıb sadəcə misal üçün, tutalım, "mental modellər" D.O.Konnorun və İ.Makdermotun tərifinə görə, "mental modellər tərbiyə və təhsilin, gedişində bizə aşılanan və ömür boyu müstəqil olaraq qazandığımız ideya, konsepsiya və təsəvvürlərdir ki, onlar bizim hərəkətlərimizi istiqamətləndirir və onlardan səbəb və nəticələri anlayıb izah etmək, habelə həyat təcrübəmizə məna vermək üçün istifadə edirik" (10) üzrə düşüncə tərzini, xarici reallığın və mümkün hərəkətlərin və onların nəticələrinin inikasını göstərə bilərik.

## 2. Təhsilin inkişafındakı qlobal tendensiyalar

XXI əsrin əvvəllərində bütün dünyada olduğu kimi, Azərbaycan təhsil sistemində qlobal meyllər inkişaf etdi. Bu qlobal meyllər aşağıdakı şəkildə özünü büruzə verdi:

- sosial mənşəli və maddi durumundan asılı olmayaraq, istedadlı gənclər üçün ölkənin təhsili əldə etməyi təmin edən təhsil sisteminin demokratikləşdirilməsi;
- hər kəs üçün təhsil hüququnu təmin etmək istəyi, yəni hər kəsin milli və irqi mənsubiyyətindən, siyasi baxışlarından və dinindən asılı olmayaraq, istənilən növ və səviyyəli bir təhsil müəssisəsində təhsil almaq üçün real imkanların yaradılması;
- ümumi müddətin tədricən artması və *məktəbəqədər təhsil və valideyn tərbiyəsi* keyfiyyətinin yaxşılaşdırılması.
- *ibtidai məktəbdə* tədris planına və təhsilin məzmununa yenidən baxaraq, əsasən universitet məzunlarını pedaqoji məktəblərə deyil, pedaqoji işə cəlb etməklə nəzərə çarpan dərəcədə artımın olması;
- *əsas (baza) məktəbin* yenidən qurulması. Bu, əsas bilik və bacarıqların təməlinin qoyulması, eyni zamanda tələbələrin təhsil və peşə istiqamətinin ən geniş imkanları ilə təmin edilməsindən ibarətdir.

- inkişaf etmiş ölkələr üçün ümumi bir tendensiya peşə təhsili sistemlərinin tədricən çətinləşməsi, yeni seçimlərin yaradılması və istifadəsidir.

- xüsusi ehtiyacı olan uşaqların, yəni inkişaf qüsurlu uşaqların və sağlamlıq imkanları məhdud uşaqların təhsil almasını təmin etmək üçün əlavə mənbələrin axtarılması;

- tədris xidmətləri bazarının tədricən genişlənməsi və spektrlərinin genişlənməsi;

- təhsil dünyanın bütün inkişaf etmiş ölkələrində prioritet maliyyələşdirmə obyektinə çevrilir, insan kapitalına investisiya qoyuluşunun perspektivləri barədə məlumat verilir;

- təhsilin idarə edilməsi sahəsində, təhsilin mərkəzləşdirilməsi və standartlaşdırılması;

- həm müxtəlif maraqları təmin etməyə, həm də tələbələrin qabiliyyətlərini inkişaf etdirməyə yönəlmiş tədris və təşkilati fəaliyyət dairəsinin genişləndirilməsi;

- təhsil sürətində və gələcək ixtisaslarının tələbələri seçimində daha çox hərəkətliliyi təmin edən çox səviyyəli təhsil sisteminin inkişafı ;

- universitetlərdə tədris prosesi müasir informasiya texnologiyalarının güclü bir şəkildə zənginləşdirilməsi, ən zəngin informasiya qaynaqları ilə İnternet sisteminə geniş yayılması ilə xarakterizə olunur;

- dünya təhsil sistemində bütövlükdə mütəxəssis hazırlığı məzmununun humanitar komponenti, eyni zamanda səxsiyyətyönümlü yeni elmi və təhsil fənlərinin: fəlsəfə, psixologiya, politologiya, sosiologiya, mədəniyyətşünaslıq, ekologiya, iqtisadiyyat

- ali peşə təhsilinin məqsədləri, məzmunu və texnologiyaları mütəmadi olaraq yenilənir, tədris planları elmi, texniki və sosial tərəqqinin nailiyyətlərinə və dünya təhsil standartlarının tələblərinə əsasən formalaşır

- təhsil sahəsində dövlətlərarası əməkdaşlığı dərinləşdirir. Bu prosesin fəal inkişafı milli təhsil sisteminin potensialından və bu əməkdaşlıqda dövlətlər və ayrı-ayrı iştirakçılar arasında tərəfdaşlıq üçün bərabər şəraitin təmin edilməsindən asılıdır;

- universitetlərin sənaye kompleksləri ilə birləşdirilməsi də mövcuddur. Nəticədə, müasir firma və müəssisələr üçün elmi tədqiqat və unikal mütəxəssislərin məqsədyönlü hazırlanması üçün bir baza;

- ölkələrin mövcud milli ənənələrini və milli kimliyini qoruyaraq yeniliklər geniş yayılmışdır. Buna görə təhsil məkanı bəşəriyyətin və bütövlükdə sivilizasiyanın inkişafına yönəlmiş multikultural və sosial yönümlü olur, beynəlxalq təhsil mühitinin formalaşması üçün daha açıqdır, mədəniyyət və bilik milli mənşəli insanı dünya həyat dəyərləri ilə tanış edir və sivilizasiyanın nailiyyətlərinin xəzinəsinə çevrilir.

Nəzərdən keçirilən təhsilin inkişafındakı qlobal tendensiyalar olduqca ümumi bir haldır. Bununla yanaşı, praktiki olaraq hər bir təhsil növünün və səviyyəsinin inkişafı üçün öz məqsədləri, xüsusiyyətləri, həyata keçirilmə xarakteri və müvafiq məzunların hazırlıq səviyyəsinə görə yeni sosial tələblər nəzərə alınmaqla spesifik cərəyanlar mövcuddur. Beləliklə, dünya ali texniki təhsil sisteminin inkişafı üçün bu gün aşağıdakı cərəyanlar ən xarakterikdir:

*Birincisi*, mühəndislik və texnologiyanı "humanitarlaşdırma" məqsədi ilə mühəndislik təhsilinin ***humanistləşdirilməsi***. Bu tendensiya ictimai istehsalın məqsəd və təbiətindəki ümumi dəyişikliyin, insanın ehtiyac və maraqlarına istiqamətlənməsinin, habelə cəmiyyətdə yüksək istehsal səmərəliliyinin təmin edilməsində şəxsi amilin müəyyənləşdirici rolu barədə məlumatlılığının əksidir. Mühəndislik təhsili sistemi tələbələrin gələcək peşə fəaliyyətlərində əxlaq normaları və dəyərlərinin rolu barədə anlayışlarının formalaşmasına diqqət artırır. Məhz bu fəaliyyətin mümkün nəticələri üçün indiki və gələcək nəsillərin şəxsi məsuliyyət hissini inkişaf etdirmələrini təmin edir.

*İkincisi*, ***fundamentalizmin*** rolunda mühəndislik təhsili xüsusi əhəmiyyət daşıyır.

Elmi və texnoloji tərəqqinin əhəmiyyətli dərəcədə sürətlənməsi, yeni yüksək texnologiyaların inkişafı üçün avadanlıqların sürətli dəyişməsini və müasir rəqabətqabiliyyətli məhsulların yaradılması prosesində uğurlu istifadəsini nəzərə alsaq, yalnız ixtisaslaşdırılmış bilik artıq kifayət deyil. Müasir mütəxəssis texnologiyaların fiziki, kimyəvi və bioloji əsaslarını dərindən mənimsəməli, kompüter və informasiya texnologiyalarına əsaslanan riyazi modelləşdirmə metodlarından istifadə etməklə daima inkişaflarında yeni effektlərdən istifadə etməyə hazır olmalıdır. Bu, perspektivli yüksək texnologiyaların inkişafını sürətləndirmək və sənaye istifadəsini mümkün etmək üçün çox vacib görünür.

*Üçüncü*, müasir insanın həyat tərzi müəyyən xüsusiyyətlərindən biri ixtisaslaşma tələb edən professional və sosial mobilliyi artırmağın ***universallaşdırılması.*** Bu, məzunlara peşə fəaliyyəti sahəsindəki problemlərin sərbəst həllinə, texnologiyaların, istehsalın şərtləri və təbiətindəki qaçılmaz dəyişikliklərə tez uyğunlaşmağa imkan verir.

*Dördüncüsü*, problemləri bu gün qlobal hala gələn ekoloji vəziyyətin ciddi şəkildə ağırlaşması, bu sahədə mütəxəssis təhsilinin keyfiyyətinin artırılmasını tələb edir. Bu tendensiya, bir tərəfdən, ekoloji təhsilin gücləndirilməsində və bütün mütəxəssislər üçün ekoloji mədəniyyətin aşılanmasında, digər tərəfdən, tamamilə yeni keyfiyyətdə olan mütəxəssislərin - ətraf mühitin monitorinqi və ətraf mühitin qorunması sahəsində mütəxəssis hazırlığının təşkilində özünü göstərir. Bu, "insan-cəmiyyət-təbiət-texnosfer" sistemindəki əlaqələrin uyğunlaşdırılmasına imkan verir.

*Beşincisi*, dünya iqtisadi münasibətlərinin qloballaşma proseslərinin bazar iqtisadiyyatı prinsipləri əsasında intensivləşməsi ***mütəxəssislərin iqtisadi və hüquqi hazırlığının gücləndirilməsinin*** vacibliyini müəyyənləşdirir. Bunsuz onlar məhsullarının texniki və iqtisadi xüsusiyyətlərini, rəqabət qabiliyyətinin göstəricilərini düzgün qiymətləndirə bilmirlər, ixtiralarının və digər elmi-texniki inkişaflarının və əqli mülkiyyətlərinin hüquqi müdafiəsini təmin edə bilmirlər.

*Altıncısı*, müasir mühəndisin peşə fəaliyyətinin məqsədlərinin, xarakterinin və quruluşunun ciddi şəkildə dəyişməsi və şəxsiyyət amilinin artması, idarəetmə səriştəsinin rolu və kadrların hazırlanması, yenidən hazırlanması və tərbiyəsi funksiyaları əhəmiyyətli dərəcədə artır. Bu fakt onların peşə təhsili məzmununa müvafiq dəyişikliklərin edilməsini zəruri edir. Xüsusilə ***mütəxəssislərin idarəetmə və psixoloji-pedaqoji hazırlıq*** keyfiyyətinin ciddi şəkildə yaxşılaşmasıdır.

### 3. Dünya təhsil sistemlərinin əsas modelləri

Tədris dövrlərinin, təhsil ixtisas dərəcələrinin və təhsil ixtisaslarının (sertifikat və diplomların), həmçinin elmi dərəcələrin və rütbələrin verilməsi ilə bağlı sənədlərin qarşılıqlı tanınması və ekvivalentliyi problemi dünya təhsil sisteminin inkişaf meylləri ilə sıx bağlıdır. Problemi müvəffəqiyyətlə həll etmək üçün beynəlxalq mütəxəssislər hər bir milli ali təhsil sisteminin xüsusiyyətlərini nəzərə almalıdırlar ki, bu da standarta uyğun olmalıdır və təhsilin keyfiyyətini obyektiv qiymətləndirmək üçün istifadə olunmalıdır.

Bu günə qədər dünya təhsil sistemlərinin əsas modelləri aşağıdakı kimi öz əksini tapmışdır.

*Amerika* modelində məktəb - orta məktəb - ikiillik kollec - universitetin strukturundakı dörd illik kollec - magistratura - məzun məktəb daxildir.

*Fransız* modelinə kollec - texnoloji, peşə və ümumi lisey - universitet - magistr proqramı - magistratura daxildir.

*Alman* modeli: ümumtəhsil məktəbi - həqiqi məktəb, gimnaziya və əsas məktəb - institut və universitet.

*İngilis* modeli: birləşdirilmiş məktəb – qrammatika və müasir məktəb - kollec - universitet - magistratura - məzun məktəbi.

*Rus* modeli: orta məktəb - tam orta məktəb, gimnaziya və lisey - kollec - institut,

universitet və akademiya - aspirantura - doktorantura.

*Azərbaycan modeli*: əsasən rus modeli ilə üst-üstə düşür (fərq magistr təhsilidir), orta məktəb - tam orta məktəb, gimnaziya və lisey, kollec – institut, universitet, magistr təhsili və akademiya - aspirantura - doktorantura. Təhsilin yeni modellərinin axtarışı və inkişafı davam edir və bu proses davamlıdır.

Təhsilin gələcəyi S.Hantinqtonun dediyi kimi, sivilizasiyaların toqquşması (11) ilə deyil, mədəni, o cümlədən təhsil dəyərlərinin bir-birinə yaxınlaşması, bir-birini qarşılıqlı tamamlaması və qarşılıqlı şərtləndirməsi ilə müəyyən olunacaqdır. Bu mənada müxtəlif xalqların təhsil ənənələrini araşdırmaqda köməklik edən fəlsəfi, kulturoloji və aksioloji yanaşmalar aktual əhəmiyyət əldə edir. Mədəni antropologiya, etnologiya kimi elmlərdə istifadə olunan metodologiya və alətlər də faydalı ola bilər. Bu elmlərin əldə etdiyi məlumatlar təhsilin təkcə keçmişini və indiki vəziyyətini deyil, gələcəyini də dərk etmək üçün zəngin faktoloji və empirik material verir. Humanist aksiologiya nöqteyi-nəzərdən təhsilin qloballaşması şəraitində onun ən mühüm məqsədləri bu gün ideal kimi, utopik görünür. Lakin idealın mənası da elə məhz bəşəriyyəti uzaq və yüksək məqsədlərə can atmağa həvəsləndirmək qabiliyyətindədir.

Deməli, təhsilin dinamizmi və beynəlmiləlləşməsi, beynəlxalq təhsil sisteminin ayrı-ayrı komponentləri arasındakı müxtəlif sıx əlaqələrin olması, təhsil sistemlərinin konsentrasiyasının artması müasir dünya təhsil məkanına ən çox xas olan xüsusiyyətdir.

**Nəticə**

Göstərilənlərə əsasən belə nəticəyə gəlmək olar ki, qlobal təhsilin məzmunu və tədris metodlarına münasibətdəki fərq XX əsrin sonlarından başlayaraq, müasir təhsil modelinə qədər paradiqmatik əsasların və struktur vahidliyini dəyişdirən dönməz bir transformasiya prosesi yaşadığı dövrdə təlim keyfiyyətinə təsir göstərir.

Hər bir ölkənin ali təhsil sistemində özünəməxsus müasir təhsil modelləri, xüsusiyyətləri, öz problemləri və öz həll yolları var. Bu ölkələr və iqtisadi nizamın təhsil sistemləri arasındakı fərqlərdən bəhs edərək beynəlxalq ali təhsildəki ümumi meylləri müəyyən edə bilərik ki, bunların təzahürləri bir ölkə iqtisadiyyatının həqiqi şəraitində fərqli dərəcədə həyata keçirilməsidir. Bu baxımdan beynəlxalq ali təhsilin əsas meyllərini aşağıdakı kimi təhlil edə bilərik: Bunlardan birincisi çevrilmə arzusudur, yəni. təhsil sistemlərinin özlərini daima dəyişmə və yeniləmə olmadan həyatın dəyişən şərtlərinə uyğunlaşmaq və inkişaf etmək mümkün deyil.

Qloballaşma yolundakı ikinci tendensiya, pedaqoji kadrların sərbəst mübadiləsinin olması ilə özünü göstərir. Eyni zamanda, tələbə axınları aşağıdakı istiqamətə yönəldilmişdir: inkişaf etməkdə olan bazarlara malik ölkələrdən və keçid iqtisadiyyatı olan ölkələrdən - Avropa və ABŞ-dakı universitetlərə, inkişaf etməkdə olan ölkələrdən – inkişaf etməkdə olan bazarlara və keçid iqtisadiyyatı olan ölkələrə, təhsilin daha ucuz olduğu ölkələrə. Ali təhsil üçün dünya bazarının inkişafı eyni zamanda yaxşı təhsil modelinə sahib olmaqda özünü göstərir.

Təhsil sistemlərinin qloballaşması, artan texniki avadanlıqlar, təhsil xidmətləri bazarlarında yeni təminatçıların meydana çıxması qlobal pedaqogikanın yaranmasının sosial məzmununu təşkil edir.

Qlobal pedaqogika universal xarakter daşıyır, çünki əvvəllər xüsusi təhsil müəssisələrində təhsil almış və xüsusi təhsil metodları və texnologiyalarının köməyi ilə əhalinin müxtəlif təhsil qruplarına xidmət göstərə bilər.

Təhsil praktikasındakı vəziyyətin təhlilinə və pedaqoji nəzəriyyənin inkişafının müasir dövrünün xüsusiyyətlərinə əsaslanaraq qlobal pedaqogikanın formalaşmasına və ixtisas pedaqogikası modelindən səriştəli pedaqogika modelinə keçməyə istiqamətlənməsinə olan ehtiyacları nəzərə almaq lazımdır.

Eyni zamanda, universitetlərin qarşısında duran əsas vəzifə, əvvəldə qeyd etdiyimiz kimi, yalnız dəyişən dünyanı deyil, bu dünyada baş verən dəyişiklikləri və ya gələcəkdə baş verən dəyişiklikləri idarə etmək üçün yeni nəsil mütəxəssislərin hazırlanmasıdır.

Xüsusi vurğulamaq lazımdır ki, ali təhsilin bu aspekti sosial-iqtisadi inkişafın müxtəlif səviyyələrində olmasına baxmayaraq, bütün ölkələr üçün müxtəlifdir, çünki istənilən ölkədə və hər zaman dəyişikliklər baş verir. Azərbaycan da həm siyasətdə, həm iqtisadiyyatda, həm də təhsil sahəsində ciddi dəyişikliklər dövrünü yaşayır. Bu cür dəyişikliklərin sürəti artacaq, buna görə Azərbaycan təhsil sistemi, əslində təhsilin keyfiyyəti baxımından dünyanın ən yaxşılarından biri olmaqla, xüsusilə yeni idarəetmə və qlobal iqtisadiyyat sahəsində yeni mütəxəssislər hazırlamalıdır. Bu, Azərbaycan universitetlərinin bugünkü məzunlarının – sabahın mütəxəssislərinin uğurlarının, dəyişiklikləri gözləyən rəqabətdə olmalarından və onlara necə tez uyğunlaşmalarından asılı olacaqdır.

## ƏDƏBİYYAT


2. Mahmudov M.C. Boloniya prosesi: problemlər, perspektivlər, reallıqlar. Bakı: Elm və təhsil, 2010, 504 s.
3. Mehdiyev R. Azərbaycan: Qloballaşma dövrünün tələbləri. Bakı: XXI-Yeni Nəşrlər Evi, 2005, 464 s.
4. Nəzərov M.H. Müasir dövrdə təhsilin sosialmədəni problemləri. Monoqrafiya. Bakı: Mütərcim, 2018, 296 s.
5. Nəzərov M. Qloballaşma şəraitində ali məktəblərin beynəlmiləşmə strategiyası // Mədəniyyət dünyası, elmi-nəzəri məcmuə, XXXII buraxılış, Bakı: ADMİU, 2016, №2, s. 104-110.
6. Kwiek, M. The emergent European educational policies under scrutiny: The Bologna process from a central European perspective. In: European Educational Research Journal, 2004, Vol. 3, No. 4, pp. 759-776.
7. Коннор Д. О, Макдермот И. Искусство системного мышления. Издатель-ство Альпина Бизнес Букс. М., 2006.
8. Хантингтон С. Столкновение цивилизаций? // Полис, 1994. №1, с.33-48.
9. Назаров М.Г. Интернационализация высшего образования:понятие, стратегии // Гилея: научный вестник, Киев, 2014, вып. 88 (№9), с.277-280



***Резюме***

***Муслим Назаров***

***Основные направления развития глобальной системы образования***

В статье анализируются перспективы развития образования, находящиеся в эпицентре глобализационных процессов. Историческая система, созданная под влиянием факторов глобализации, представлена последовательно. Чтобы человек понимал процессы глобализации и принимал активное участие в этих процессах, необходимо знать такие факторы, как знание факторов и знаний, таких как устойчивое восприятие стабильности, предметные и стратегические знания, техническая и когнитивная компетентность. Динамизм и интернационализация образования, наличие различных тесных связей между различными компонентами международной системы образования и рост концентрации систем образования - все это черты, присущие современному миру.

Отдельный анализ предоставляется для того, чтобы человек мог понять процессы глобализации и активно участвовать в этих процессах. Показаны основные тенденции развития мировой системы высшего образования.

Показаны развития мировых тенденций в системе образования Азербайджана. В то же время это обосновано необходимостью сформулировать новую образовательную философию, основанную на общечеловеческих и национальных ценностях общества и решить вопросы возрождения ду-

ховной жизни общества. Анализируются основные модели мировых систем образования. Глобализация образовательных систем, появление новых поставщиков на появляющемся техническом оборудовании и рынках образовательных услуг выявили социальный контекст появления глобальной педагогики.

Проблема взаимного признания и эквивалентности образовательных циклов, образовательных квалификаций и учебных специальностей, а также научных степеней и званий тесно связана с тенденциями развития мировой системы образования. Каждая страна имеет свои современные модели образования, характеристики, проблемы и решения. Описывая различия между этими странами и экономическими системами образования, они определяют общие тенденции в международном высшем образовании и по-разному иллюстрируют процесс их реализации в реальной экономике страны.

В статье также описываются быстрые и глубокие изменения в динамике современного социального развития во всех сферах жизни и деятельности человека - науке и технике, экономике и политике, образовании и культуре, организации производства и управлении.

***Ключевые слова:*** *образование, глобализация, знания, развитие, образовательные модели, мировые тренды.*

***Summary***

***Muslim Nazarov***

***Main Directions of Development of the Global Education System***

The article analyzes the perspectives of education development that are at the epicenter of processes that are undergoing globalization. The historical system created under the influence of globalization factors is presented sequentially. For an individual to understand the processes of globalization and to take an active part in this process, it is necessary to know the relevant categories of factors and knowledge such as stable perception of instability, subject and strategic knowledge, technical and cognitive competence. The dynamism and internationalization of education, the presence of various close links between different components of the international education system, and the increase in the concentration of education systems are all about the features inherent in the modern world.

Separate analyzes are provided so that an individual can understand the processes of globalization and actively participate in these processes. The main trends for the development of the world higher education system are shown. The trends in the development of global trends in the Azerbaijani education system are shown. At the same time, it is justified by the need to form a new educational philosophy based on the universal and national values of society and address the issues of revival of the spiritual life of the society. The main models of world education systems are analyzed.

The globalization of educational systems, the emergence of new suppliers in the emerging technical equipment, and educational services markets have revealed the social context of the emergence of global pedagogy.

The problem of mutual recognition and equivalence of educational cycles,educational qualifications and educational specialties, as well as scientific degrees and ranks is closely related to trends in the development of the world education system.

Each country has its own modern education models, features, problems and solutions. Describing the differences between these countries and the economic systems of education, they identify common trends in international higher education and illustrate the process of their implementation differently in the real economy of a country.

The article also describes rapid and profound changes in the dynamics of modern social development in all areas of human life and activity - science and technology, economics and politics, education and culture, production organization and management.

***Keywords:*** *education, globalization, knowledge, development, educational models, global trends.*

Baş redaktor f.e.d., prof. Hüseynli Nazim Ziyad oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**TARİX, ANTROPOLOGİYA VƏ SİYASİ ELMLƏR**

**UOT 32**

# ERMƏNİ KİMLİYİNİN FORMALAŞMASINDA DİN FAKTORUNUN ROLU

**Elgün QƏHRƏMANOV** *

Məqalə redaksiyaya daxil olmuşdur: 27 fevral 2019; çapa qəbul edilmişdir: 10 iyul 2019; online-da çap edilmişdir: 25 sentyabr 2019
Received: 27 Februrary 2019; accepted: 10 July 2014; published online: 25 September

***Açar sözlər:*** *erməni millətçiləri, erməni kimliyi, xristianlıq, terror, I Vazgen*

## Giriş

Hələ Osmanlı vaxtında erməni xalqı, bu dövlətin ərazilərinə səpələnmiş vəziyyətdə idi. Onlar birgə yaşadıqları xalqlarla qaynayıb qarışmış, lakin öz milli kimliklərini qoruyub saxlamağı bacarmışdılar. Yaşadıqları coğrafiyaların heç birində say üstünlüyünə malik deyildilər. Hətta özlərinin "ana vətən" hesab etdikləri, Şərqi Anadolu torpaqlarında belə çoxluq təşkil etməmişdirlər. Hər zaman etnik azlıq xarakterini saxlamışdırlar. Milli kimliklərini uzun müddət qoruyub saxlaya bilməsinin səbəblərindən biri din faktorunun həmişə aparıcı rol oynamasıdır. Bu xalqı ayaqda saxlayan əsas səbəblərdən biri ermənilərinin zaman-zaman ali bürokratik hakimiyyətinin üzvləri ilə əlaqələr qurması və onların rəğbətini qazanmaları idi. Tarixləri boyunca bir çox fərqli xalq və sivilizasiyalarla yaxın əlaqə içində olan ermənilər məcbur qalmadıqları vəziyyətlərdə belə, bu xalq və mədəniyyətlərdən özləri üçün uyğun olan, ehtiyac duyduqları xüsusiyyətləri almaqda hər hansı tərəddüd göstərməmişdilər. Erməni kimliyinin ortaya çıxmasında və dolayısıyla zamanla çevriləcək, modernləşəcək, sekulyarlaşacaq olan erməni kimliyinin əsasında bu dinamizm var.

## 1. Erməni millətçiliyin ortaya çıxması

XIX əsrin I yarısında Rusiya imperiyasının işğalından sonra regionda möhkəmlənmək və digər böyük dövlətlərin Qafqazla bağlı planlarını dağıtmaq üçün bölücü bir ünsürə ehtiyac vari idi. Bu özünəməxsus qapalılığı ilə seçilən qatı erməni katalikosluğu idi. Onu da qeyd edək ki, erməni kilsəsinin Qriqoryan adlanması, Çarizmin siyasi maraqları kontekstində baş tutmuşdur. Ermənilər isə Müqəddəs Qriqorun bu dini onlara gətirdiyindən ona "Lusavoriç", yəni ilahi nur, nurlandırıcı ünvanını vermişdilər. Bu səbəbdən erməni kilsəsi eyni zamanda "Lusavoriçağan" adıyla da tanınmaqdadır.

Erməni cəmiyyətində milli kimliyin formalaşmasında dinin əhəmiyyəti olduqca böyükdür. Ermənilərdə din ilə millət, kilsə ilə erməniçilik iç-içə girmiş vəziyyətdədir. Çünki erməni dövləti fikrini ilk dəfə irəli sürən Erməni kilsəsi olmuşdur. Erməni kilsəsi, dini vəzifələri və öhdəlikləri yanında, özünü erməni milləti üçün milli siyasi bir hakimiyyət olaraq qəbul etmişdi. Kilsənin formalaşmasından günümüzə qədər keçən vaxt içində kilsə başçıları və din xadimləri erməni cəmiyyətinin şəkillənməsinə istiqamət verən ən böyük güc olmuşdurlar. Tarixçilər erməni millətini erməni kilsəsinin meydana gətirdiyi və kilsənin erməni millətinin ruhu olduğu məsələsində həmfikirdirlər. Ermənilər özlərini "milli

* doktorant, Bakı Dövlət Universiteti, Tarix fakültəsi Erməni Araşdırmaları Elmi-Tədqiqat və Tədris Mərkəzi
*e-mail: elgun041@gmail.com*

bir kilsəyə sahib olan ilk cəmiyyət" olaraq qəbul etməkdədirlər. Əslində erməni kilsəsinin bu qədər azad fəaliyyət göstərməsinə böyük imkanlar məhz Osmanlı dövründə, xüsusilə Fateh Sultan Mehmetin dövründə olmuşdur [3, 233]. İlk Osmanlı hökmdarları dövründə Bizans təzyiqlərindən Osmanlıya sığınan ermənilərə, ilk "Milli kilsə" ünvanını da türklər vermişdilər. Qərbi Anadoluda ilk erməni dini mərkəzi Kütahyada olmuşdur. Orxan Qazinin Bursanı ələ keçirərək paytaxt elan etdikdən sonra, Kütahyadakı erməni ruhani mərkəzini və ermənilərinin bir çoxunu Bursaya köçürmüşdü. Ermənilər bu dönəmlərdə müstəqil olaraq, nə siyasi, nə də sosial baxımdan bir təşkilata sahib deyildilər. İstanbulun tutulmasıyla birlikdə, Osmanlı dövləti coğrafi olduğu qədər də, siyasi nüfuzu sahəsi də genişlənmiş, üç dinin (İslam, xristianlıq, yəhudilik) qoruyucusu olmuş və bu dinlərə aid həyatın təşkilatlanmasında vacib rol oynamışdır. Qeyd etdiyimiz kimi, ortodoks xristianlığın mərkəzi sayılan Bizans dövlətinin dövründə ermənilərin bir din mərkəzi olmamışdır. Provaslav bizanslılar Qriqoryan məzhəbini mənimsəmiş ermənilərə qarşı heç də tolerant davranmamışdılar və onları öz içərilərində əritməyə çalışmışdırlar. Məhz Sultan Mehmet Fateh dövründə nəinki yəhudiliyə, hətta xristianlara qarşı müsbət yanaşmış və onlara bir çox dini azadlıqlar vermişdir. İlk dəfə Fateh Sultan Mehmet tərəfindən 1461-ci ildə ermənilər müstəqil bir "millət" olaraq qəbul edilmişdilər. Bursadan bir qisim erməni ailələri ilə birlikdə gətirilən yepiskop Hovakim, bütün Türkiyə ermənilərin patriarxı olaraq elan edilmişdi. Müsəlman bir sultanın, bir xristian patriarxlığı təsis etməsi, nadir hadisələrdən biri kimi, tarixə keçmiş və bunun sayəsində ermənilər Osmanlı dövlətində "imtiyazat-ı şahaneyi haiz millət" olaraq yaşamağa başlamışdılar. Camaatlığın və kilsə bütövlüyü içərisində formalaşan cəmiyyət bunun sayəsində milli kimliklərini qorumağı davam etmişdilər [9]. Eyni zamanda erməni patriarxlığına ortodoks və musəvilərə daxil olmayan digər qeyri-müsəlman vətəndaşlar üzərində də səlahiyyətlər verilmişdir. Çingenlər, süryanilər, kaptilər, gürcülər, kaldelilər, həbəşlilər, Suriya və Misir monofizitləri, bosniyalı boqomillər erməni patriarxlığına bağlanaraq, erməni kilsəsinin nüfuzunu daha da artırmışdır. Qeyd olunan millətlər Osmanlı hakimiyyəti ilə əlaqələrini erməni patriarxlığı vasitəsilə qurmağa çalışırdılar. Osmanlı dövlətində qeyri-müsəlman millətlərə dini, təhsil, mədəni və idarəetmə sahələrdə verdikləri azadlıqlar, onların bir millət kimi ayaqda durmasına böyük ölçüdə təsir etmişdir. Hətta erməni yazıçılardan biri olan Riçard Hovannisyan "Armenia on the Road to İndependence" adlı əsərində bunları yazmışdır: "Türk hakimiyyətində əsrlər boyunca ermənilərin milli kimliklərini qoruyub saxlaya bilməklərinin ən vacib səbəbi, Osmanlı dövlətinin idarəetmə quruluşudur. Millət anlayışı ermənilər üçün hər zaman faydalı və yaxşı işləyən bir sistem olmuşdur. Erməni kilsəsi milli inanclarına olan sədaqətlərini qorumaq surətiylə, ermənilərin kimliyini himayə etmişdir" [4, 72].

Erməni milləti içindəki millətçilik duyğularının bu şəkildə inkişaf etdirilməsi və "muxtar Ermənistan" fikri ilk əvvəl erməni patriarxları və din xadimləri tərəfindən dəstəklənmişdi. Şərqi Anadoluda erməni rahibləri ən kiçik kəndlərə qədər gedərək, Ermənistan və erməni kimliyinin nə demək olduğunu bilməyən kəndlilərə millətçilik duyğularını və fikirləri aşılamağa başlamışdırlar.

Eçmiədzin katalikosluğu nəzəri olaraq, bütün dünya ermənilərinin dini mərkəzi sayılır. Ermənilər əvvəllər Roma kilsəsinin təlimləri çərçivəsində inanclara sahib idilər. Ancaq V əsrdən xristianlar arasında çıxan fikir ayrılıqları səbəbindən öz kilsələrini qurmağa başladılar. Bəzi müəlliflərin fikrinə görə, Eçmiədzin katalikosluğun qədimliyi, Sis və Akdamar katalikoslarından daha mənsurdur. XIX əsrdə Eçmiədzinin ruslar tərəfindən ələ keçirilməsindən sonra bu katalikosluğun fəaliyyəti daha da artmışdır. Hətta bütün erməni kilsələri üzərində liderliyini tələb etməyə və ona biət etməyə çağırmışdır.

Osmanlı erməniləri üzərində ideoloji fikrin formalaşmasında Eçmiədzin katalikosluğunun bir vasitə olaraq istifadə etməyə başlayan Ruslar, həm də bu kilsə fəaliyyətləri

üzərində nəzarətini daha da artırırdı. Təsadüfi deyil ki, Osmanlı hakimiyyəti altında yunan, serb, bolqarlarda millətçilik məsələləri kilsə vasitəsilə həyata keçirilirdi və bu istiqamətdə təkcə Rusiya deyil, İngiltərə, ABŞ, Fransa və Almaniya öz fəaliyyət dairəsini missionerlik vasitəsilə genişləndirməyə çalışırdılar. Beləliklə Osmanlı dövlətində milli kilsələrin formalaşması daha da sürətlənirdi. Hətta erməni katalikosluğuna patriarx seçkiləri zamanı, Osmanlı ermənilərinin bu seçkilərdə iştirak etməsinə və onların vətəndaşlıqdan çıxaraq Rusiyaya getməsinə Osmanlı dövləti seyrçi qalmaqdan başqa bir şey edə bilmirdi [2, 217-218].

1881-ci ildə III Aleksandrın hakimiyyət gəlməsi ermənilərin bir müddət Rusiya ilə soyuq münasibətlərdə oldu, bunun da səbəbi, çarın ölkəsində ruslardan başqa bir xalqı görmək istəməməsi idi. Bu vaxt katalikos I Makarios Rusiyaya qarşı çıxaraq, onun əmirlərini yerinə yetirməməyi və Rusiyaya inanmağın ağılsızlıq olduğunu, Osmanlı dövlətinə xəyanət edilməməsi lazımlığını bildirdi. XIX əsrin 90-cı illərində vəziyyət yenidən dəyişdi. Osmanlı dövlətinin istəmədiyi Kırımyan 1892-ci il seçkilərində qələbə çaldı [1, 108]. Maraqlıdır ki, bu dövrdə ermənilərə ruslar hələ də yaxşı davranmırdı .

Vanda Armenikan, Cenevrədə Hnçak və Tiflisdə Daşnak partiyalarının yaradılmasında missionerlik məktəblərində təhsil alaraq, xüsusilə ABŞ-a gedərək orada millətçilik anlayışları ilə tanış olub, Anadoluya dönən erməni gənclərinin də fəaliyyətləri unudulmamalıdır. XIX əsrin sonları erməni dini cəmiyyətləri istər, İstanbulda, Adanada, Vanda, istərsə də, Eçmiədzində millətçilik duyğularının inkişaf etdirilməsinə və təşkilatlanmasına başçılıq edirdilər. İstanbul patriarxı olan İzmirliyan, həmdə bu dövrdə Hnçak komitəsinə başçılıq edərək fəaliyyətini daha da artırırdı. O cümlədən 1890-ci ildə Krisdapor Mixaelyanın başçılığı ilə yaradılan Daşnaksütyun partiyası da erməni millətçilərinin ideologiyasının bir parçası idi. Bu dövrdə Osmanlı hakimiyyətinin, III Aleksandr dövründə Rusiyanın yeritdiyi məlum siyasətindən istifadə edərək, milli azlıqlarla bağlı boşluqları doldurmaq və onların ikinci bir dövlətin əlində vasitəyə çevrilməsinin qarşısını almaq üçün gördüyü tədbirlər ya təsirli deyildi, ya da kifayət qədər yetərli deyildi.

Osmanlı sultanı II Əbdülhəmid zamanında çıxan erməni üsyanlarından ən vacib rolu erməni kilsəsinin başında duran patrik Nerses Varjabedyan, keçmiş patriarx Mığırdıç Kırımyan və Mateos İzmirliyan oyanmışdır. 1896-ci ildə erməni fəalları İstanbulda Osmanlı Bankı işçilərini girov götürmüşdü və bu paytaxtda 3 gün xaos vəziyyətinə gətirib çıxartdı. Bu post modern terrorizmin ən gözəl nümunəsidir. Beləcə kilsələr xristianlığın əsaslarını bir tərəfə buraxaraq, əhali arasında təbliğat aparmağı başlıca vəzifə olaraq seçdikləri görülürdü. Müvəffəq olmanın ən böyük şərtini kilsənin dəstəyində görən terror təşkilatları da, erməni kilsəsi və din xadimlərini erməni məsələsini mərkəzi məsələ çevirməyi, onları terrorun içinə çəkməyə çalışmışdılar. Anadoludakı kilsələrin bir qismi terror planlarının edildiyi və silahların saxlanıldığı yerlər olmuşdur. Türkiyə məbədlərə göstərdikləri hörmət, həmin yerləri müqəddəs qəbul etməsi, erməni millətçilərin əl-qolunu açmış və bu kilsələri bir baza olaraq istifadə edilməsinə şərait yaranmışdır. Bu məqsədə xidmət etmək üzrə, XIX əsrin sonu-XX əsrin əvvəllərində erməni cəmiyyətləri, məktəbləri və kilsələri, qanuni və dini bəzi toxunulmazlıqlardan istifadə etmək surəti ilə, üsyan, inqilab hazırlıqlarının edildiyi siyasi büro və silah deposu kimi istifadə edilirdi [2, 219].

1912-ci ildə Eçmiədzin katalikosluğuna gətirilən Kevork adı ilə tanınan, Sürenyan, Rusiya ilə əlaqələri tam möhkəmləndirdi. Hətta Avropa ölkələrindən də kömək istəməkdən belə çəkinməmişdi. Kevrokun Rus çarını ermənilərin hamisi ünvanı ilə xeyir-dua verməsindən sonra ermənilərin maddi-mənəvi ruslara yardım etməyə məcbur olduğuna dair bir “əmirnaməni-ruhanı” yayımladı [3, 235]. Bundan sonra Osmanlı dövlətindən qaçan ermənilər ya rus ordusuna qatılaraq Rusiyaya dəstək oldular, ya da sərhəd bölgələrində, könüllü ordu birlikləri yaradaraq, müsəlman kəndlilərə hücuma başladılar. Birinci dünya müharibəsinin əvvəllərində, Kevork ermənilərin yeri yalnız öz din qardaşlarının yanında

olduğunu deyərək, Rusiya tərəfində vuruşurdular. Hətta Osmanlının digər düşmənləri olan, İngiltərə və Fransa ordusuna da qatılmışdılar. Erməni tarixçiləri rus ordularında döyüşən erməni əsgərlərini 20-25 min arasında olduğunu yazırlar. Millətlər Cəmiyyətinin Qaçqınlarla bağlı Komissiyası müharibə zamanı Türkiyədən Rusiyaya köç edən ermənilərinin sayının 400 min olaraq göstərmişdi [1, 110].

Zaman-zaman erməni cəmiyyətində mövcud olan rus-ortodoks, fransız-katolik və ingilis (ABŞ) - protestant kilsələrinin təsiri ilə müxtəlif kimliyin ortaya çıxmasına səbəb olmuşdur. Erməni millətçiliyin oyanmasında kilsəyə ən böyük yardımı bu surətlə böyük dövlətlər və missionerlər təmin etmişdilər. Osmanlı dövlətində maraqları olsun və ya olmasın hamısı din duyğusu ilə hərəkətə keçərək, tamamilə siyasi və iqtisadi məqsədləri ilə erməniləri dəstəkləmişdilər.

**2. Müasir dövrdə erməni kilsəsinin millətin formalaşmasında oynadığı rol**

Beləliklə, XIX əsrin sonlarından erməni siyasi təşkilatları, dini qurumların xeyir-duası ilə birgə başlatdıqları terror hadisələrini XX əsrdə də davam etdirirdilər. Sovet Rusiyası zamanında da erməni məsələsi, mövcud sərt ideoloji rejimin olmasına baxmayaraq, ortaya atılır və siyasi təzyiq alətinə çevrilirdi. Sovet Rusiyası öz klassik təzyiq vasitəsini Türkiyə münasibətləri kontekstində erməni məsələsi vasitəsiylə həyata keçirməyə çalışmışdır. Xüsusilə 1952-ci ildə Türkiyənin NATO-ya üzv ölkə kimi qəbul olunmasından sonra "erməni soyqırımı" ilə bağlı məsələ gündəmə gətirildi. Lakin mövcud ideoloji düzəndə, bu cür məsələlərin qaldırılması sovetlər üçün çox təhlükəli hesab olunurdu. Lakin XX əsrin 60-c illərində erməni millətçilərin fəallığı artmağa başladı. Həmin dövrdə Ermənistan Kommunist Partiyasının Mərkəzi Komitəsinin I katibi Yakov Zarobyan, SSR rəhbərlərinə bu məsələ ilə bağlı dəfələrlə müraciət etmişdir.

Hər bir hadisənin görünməyən tərəfləri olduğunu nəzərə alsaq, onda "erməni soyqırım" məsələsində erməni kilsənin çox vacib rol oyandığı qeyd etməliyik. Hesab etmək olar ki, bütün açar nöqtələrdə kilsə yer almaqdadır. Mövcud erməni ideologiyasının əsasını təşkil etməkdədir.

Müasir dövrümüzdə erməni kilsəsi öz dini və siyasi hakimiyyətini müxtəlif üsullar vasitəsilə davam etdirir. İstər lobbiçilik, diaspora təşkilatları, istərsə də dövlətin vacib orqanlarını təsir altında saxlamaqla öz gücün saxlayır.

1955-1994-cü illərdə Erməni kilsəsinə başçılıq edən I Vazgen, Ermənistanın müstəqil dövlət kimi formalaşmasında böyük əməyi olan və ölkəsində güclü siyasi təsiri olan bir din xadim idi. I Vazgen kimdir?

Əsl adı Levon Karaped Balciyan 1908-ci il 20 sentyabrda Ruminiyanın Rodoto kəndinə erməni ailəsində anadan olmuşdur. 1936-ci ildə Buxarest Universitetinin fəlsəfə və ədəbiyyat fakültəsini bitirmişdir. Onun ilk iş fəaliyyəti Buxarest erməni məktəbində dərs verməsi ilə bağlıdır. Bir müddət burda dini dərslər verdikdən sonra 1943-cü ildə Vazgen dini adını götürmüşdü. 1951-ci ildə Ruminiyada kommunist rejimi möhkəmləndikdən sonra, O, birləşmiş Ruminiya və Bolqarıstanın yepiskoluğuna başçı təyin olundu. 1954-cü ildə I Vazgen Eçmiədzin Ali Kilsə Şurasına üzv qəbul olunur. İrəvana dəfələrlə səfər etmiş və hətta Sovet hakimiyyətinə həsr olunmuş bir neçə kitab yazmışdır. Təbii ki, bu o dövrdə I Vazgenin atdığı məqsədli bir addım idi. Bunun nəticəsi idi ki, 1954-cü ildə patriarx VI Gevorqun ölümündən sonra Sovet hökuməti ilə əməkdaşlıq nəticəsində kilsənin səlahiyyətlərinin azaldılmasının qarşısını aldı. 1955-ci il oktyabrın 2-də Eçmiədzin katalikos kilsə seçimlərində baş patriarx seçilmişdir. Maraqlıdır ki, Yaxın Şərqdəki erməni yepiskopluğu bu seçkilərdə təmsil olunmurdu. Seçkilərdən dərhal sonra O, Sovet vətəndaşlığını qəbul edir. Daha sonra Erməni kilsənin daxilində mövcud problemlərin olmasına baxmayaraq üç aylıq Yaxın Şərqə səfər edir. Yaxın və Orta Şərqdə olan kilsə

diasporları ilә olan әlaqәlәri möhkәmlәndirdi [6]. Әsas mәqsәd isә Beyrutda yerlәşәn Kilikiya katolikosluğuna sovet tәrәfdarı birinin seçilmәsi idi, lakin bu uğursuz oldu. Hәtta hәmin ildә Misir prezidenti Camal Әbdül Nasirlә görüşü vә bunda sovetlәrin duyduğu narahatlığı da qeyd etmәliyik. Sovet Rusiyasının marşalı Nikolay Bulqanin 1956 mayın 12-dә I Vazgenlә görüşündәn sonra onun geniş siyasi fәaliyyәtini nәzәrә alaraq, kilsәnin imtiyazlarını artırdı. Buraya yeni-yeni kilsәlәrin açılması da aiddir.1962-ci ildә onun xidmәtlәri nәticәsindә Ermәnistan kilsәsi Dünya kilsәlәri Şurasına üzvü oldu. Ermәnistan kilsә tarixindә әn önәmli nöqtә isә 1970-ci ildә I Vazgenin Romaya sәfәri vә VI İohan Pavellә görüşü idi. Bu görüşә qәdәr ermәni kilsәsi ilә Roma papasının tәmasda olduğu ilә bağlı bir tarixi fakt yoxdur. Hәtta I Vazgen sәfәrdәn әvvәl jurnalistlәrin suallarına cavab verәrkәn, “bizim onunla V әsrdәn heç bir tәmasımız olmadı, ora getdiyimdә onunla (Roma papa) bu haqda danışacağıq” [6] demәsi bunu bir daha tәsdiq edir. 80-ci illәrdә I Vazgen İngiltәrәyә sәfәr edәrәk, protestant din xadimlәri ilә dә müxtәlif görüşlәr keçirmişdir. Onun katolik, protestant vә pravoslav din xadimlәri ilә qurduğu yaxın әlaqәlәri nәticәsindә, dünya xristian blokunu öz fәaliyyәtinә cәlb etmәyi bacarmışdır. 1980-ci illәrdә sovetlәrdә müstәqillik ilә bağlı çağırışlar artdıqca, o da öz xalqının müstәqilliyi ilә bağlı qeyd olunan xristian blokuna müraciәtlәr etmişdir. Hәtta Dağlıq Qarabağın Ermәnistana birlәşdirilmәsi ilә bağlı kampaniya başladanlardan biri olmuşdur. Patriarx I Vazgen diasporada yaşayan ermәnilәri öz ölkәlәrinә yardım vә dәstәk olmağa çağırıb vә Qarabağ müharibәsi illәrindә, onun sәylәri ilә, milyon dollarlıq yardımlar toplanıb, kilsә üzәrindәn dövlәt rәsmilәrinә tәslim edilmişdi [7]. Katalikosun bu әvәzsiz xidmәtlәrinә görә, Ermәnistanın ilk prezidenti Levon Ter-Petrosyan şәxsәn ona Ermәnistanın ilk Milli Qәhrәmanı adını tәqdim etmişdi. O, uzun müddәt Dağlıq Qarabağda kilsәlәrin açılması ilә bağlı kampaniya başlatmış vә 1988-ci ildә buna nail olmuşdur. Dağlıq Qarabağ mәsәlәsi ilә bağlı, azәrbaycanlıların dini-mәnәvi lideri şeyx Allahşükür Paşazadә ilә dәfәlәrlә görüşmüşdü. SSRİ dağıldıqdan sonra, Ermәnistanda sovet tәrәfdarlarına qarşı bir hәrәkat başlandı, lakin katalikosluğa böyük hörmәtdәn dolayı, I Vazgen bu tәzyiqlәrdәn canını qurtardı. Tәbii ki, sovetlәrlә olan әmәkdaşlıqları nәticәsindә, kilsә üçün böyük faydalar tәmin etmişdi. Maraqlıdır ki, o rus dilindә yaxşı danışmasına baxmayaraq, qeyri-ermәnilәrlә fransız dilindә danışmağa üstünlük verirdi [6].

1955-1994- cü illәr hәm dә ermәni terrorunun әn yüksәk dövrü olmuşdur. I Vazgenin Ermәnistan milli kilsәsinә 40 illik rәhbәrlik dövrünә diqqәt etsәk terrora böyük ölçüdә hamilik etdiyini görәrik. Dünyada yaşayan bütün ermәni dini icmalarına çağırışları vә birlәşmә ideyasının mәrkәzi qeyd edilәn patriarxın adı ilә birbaşa bağlıdır. Onu da qeyd etmәliyik ki, ermәni terrorizmin bu qәdәr dәhşәtli vә müәyyәn mәnada mәqsәdә çatmasının başlıca sәbәblәrindәn biri, xristian blokundan mәharәtlә istifadә etmәsidir.

I Vazgen ermәni ictimaiyyәti tәrәfindәn geniş müsbәt tәbliğ olunsa da, aydındır ki, onun azәrbaycanlılara vә Türkiyә vәtәndaşlarına qarşı edilmiş qanlı cinayәtlәrә hәmişә haqq qazandırmış vә bu yolda hәmişә ermәni millәtçilәrini himayә etmişdi. Hәlә 1968-ci ildә I Vazgen Los-Ancelesdә Azәrbaycan Xalq Cümhuriyyәtinin Daxili İşlәr Naziri olmuş Behbud xan Cavanşiri Türkiyәdә qәtlә yetirәn ermәni terrorçusu daşnak Misak Torlakyanı xәstәxanada ziyarәt etmişdi [8]. Vә onun xidmәtlәrini ermәni xalqı üçün әhәmiyyәtli olduğunu bәyan etmişdir. Bütün bunlar göstәrir ki, ermәni millәtçilәrin formalaşmasında kilsә tәşkilatların rolu olduqca böyükdür. Bu prosesin XX әsrin 90-ci illәrә qәdәr davam etdiyini nәzәrә alsaq onda belә qәnaәtә gәlmәk olar ki, ermәni dini qurumları analoji hadisәlәri yenidәn üzә çıxara bilәr. 2016-ci il aprel döyüşlәrindә ermәni keşişlәrin sәngәrlәrdә görünmәsi bunun bir siqnalıdır.

Nәticә olaraq onu da qeyd etmәliyik ki, ermәni kilsәsi daha erkәn dövrlәrdә tәşkilatlanması vә yalnız dini deyil, eyni zamanda siyasi tәşkilat kimi formalaşması, ermәni

millətinin qarşısında qoyduğu vəzifələrə çatmasına böyük ölçüdə kömək etmişdir. Dünyanın bir çox ölkəsinə dağılmış olan ermənilər, kimliklərini mühafizə etmək və yaşatmaq adına, kilsəyə sıx-sıx bağlanmaqdadırlar. Erməni kimlik probleminin bu günə qədər davam etməsi, onların "haqq mübarizəsinin" bir parçasına çevrilməsidir. Əslində ermənilərin günümüzdə də dünyanın ən böyük və təsirli diaspor cəmiyyətlərinə malik olmasının səbəblərindən biri kilsə başçılarını istəkləri çərçivəsində hərəkət etməsidir. Yəni erməni diaspora və lobbiçilik fəaliyyətlərini həmişə öz dini mərkəzləri vasitəsiylə, yəni Eçmiədzin vasitəsiylə həyata keçirir. Hələ Birinci dünya müharibəsi ərəfəsində erməni patriarxlar, erməni xalqının dünyanın müxtəlif ölkələrinə getməsi ilə bağlı təşviqat işləri həyata keçirmiş və miqrasiya edən ermənilərin öz mübarizələrini dünyanın güc mərkəzlərində, xüsusilə Amerika və Avropada aparmasına çağırmışdır. Bu lobbiçilik fəaliyyətlərinə daha erkən dövrlərdən başlamışdırlar. Bu mübarizə üsulları məşhur qəzetlərin, jurnalların redaksiyalarına, bank sektoruna, parlament və digər güc strukturlarına nüfuz etməklə öz amallarını həyata keçirməyə çalışırdılar. Bu gün də bu proses davam etməkdədir. Dolayısıyla burdan belə nəticə çıxara bilərik ki, dünya ictimaiyyətinin daim ən vacib məqamlarda erməni tərəfdarı kimi görünməsi təsadüfi deyil, çünki ermənilər təşkilatlanmağa və dünyada müsbət imic qazanmağa daha erkən dövrlərdən başlamışdı. Hələ ki, bu müstəvidən baxdıqda biz azərbaycanlılar geridə qalmaqdayıq. Bunun üçün biz öz doğru yolumuzdan geri çəkilməməli və bu yolda təbliğat və təşviqat məsələlərini həyata keçirməkdən usanmamalıyıq.



## QAYNAQLAR


1. Cahit Külekçi. Ermeni Kimliğinin Dönüşün Süreci ve Amira Sınıfının Oluşumu // Hikmet Yurdu, Yıl: 2013, C: 6, Sayı: 2, Temmuz-Aralık 2013/ 2, s.101-117
2. Ortaylı İlber. Osmanlı İmparatorluğunda Millet Sistemi // Yeni Türkiye Yayınları, Cilt: 10, Ankara, 2002, s. 216-220.
3. Zeynep İskefiyeli. Ermeni Kimliğinin Oluşumunda Din Faktörü, Hristiyanlık, Kilse ve Misyonerlik, Akademik İncelemeler, Cilt: 2, Sayı: 1, Yıl 2007, s. 231-255
4. Hovannisian Richard G.,Armenia on the Road to İndependence 1918. Armenia on the Road to Independence, 1918. University of California Press.1967, 376 p.
5. Sevan Değirmenciyan. İstanbul Ermenilerinin kimliği (https://repairfuture.net/index.php/tr/kimligi-tuerkiye-den-bak-s/istanbul-ermenilerinin-kimligi)
6. Vazgen I, Head of Armenian Church, Dies at 85 (https://www.nytimes.com/1994/08/19/obituaries/vazgen-i-head-of-armenian-church-dies-at-85.html)
7. https://www.youtube.com/watch?v=UxK4-NfmhTY
8. Բացառիկ լուսանկար. Վազգեն I-ինի և Բաքվի հայկական [illegible]կազմակերպչին սպանած Միսաք Թոռլաքյանի հանդիպումը. https://operativ.am/?p=257431&l=am
9. Kılıç Davut. Ermeni kimliğinin inşasında kilsenin rolü, http://www.ayk.gov.tr/wp-content/uploads/2015/01/KILI%C3%87-Davut-ERMEN%C4%B0-K%C4%B0ML%C4%B0%C4%9E%C4%B0N%C4%B0N-%C4%B0N%C5%9EASINDA-K%C4%B0L%C4%B0SEN%C4%B0N-ROL%C3%9C.pdf


***Summary***

**_Elgun Gahramanov_**

***The Role of the Religion Factor in the Formation of the Armenian Identity***


The Armenian people were scattered throughout the time of the Ottoman empire. They grew together with other nations living in those places. But they managed to maintain their identity. They did not predominate in any geographical area where they had lived. Even they did not predominate, in East of Anadolu were they considered as their “motherland”

The main reason for preserving national identity for a long time was that the religion factor played a significant role in that issue. All the time they kept the nature of the ethnical minority. Also, the main reason which kept this nation on the feet was creating ties the members of the supreme bureaucratic power and earning their goodwill. The Armenians didn’t hesitate to use the peculiarities which they need from the nation with whom they kept close ties, even they were not obliged during their history.

In the occurrence of the Armenian identity and by the time in the being modern and secular Armenian identity is based on dynamism. If you glance at the inner structure and management of the Armenian church, it is possible to see differences among theirs and other churches. It has a specific administration. İn this structure the civilians also have rights. It is possible to see the civilians’ participation in the adoption of church regulations. For example, the administration of the first church in Istanbul was under the rule of civilians for a long time. Such opportunities increase the Armenian church maneuver options and convert it to affective power in the political system of the government. Thus, the political control of the government and the Armenian church were in unity.


***Key words:*** *Armenian nationalists, Armenian identity, christianity, terror, Vazgen I*

***Резюме***

***Эльгюн Кахраманов***

***Роль религиозного фактора в формировании армянского самосознания***

Еще в период Османской империи, армянский народ находился в разбросанном состоянии на территории этого государства. Они подверглись ассимиляции с проживающими народами, но несмотря на это смогли сохранить свое национальное самосознание. Армяне не имели численного превосходства и влияние на проживаемых территориях. Даже на территории Восточной Анатолии, которую они считали своей родиной, они не составляли большинства. В принципе они всегда сохраняли свою этническую сущность. Одной из причин, по которой армянам удалось в течение длительного времени сохранять свое национальное самосознание, являлся религиозный фактор, который до сих пор играет главную роль в их жизни. Удерживать свои позиции армянам всегда позволяла способность устанавливать связи и завоевывать доверие членов высшей бюрократической власти. На протяжении всей истории , находясь в тесных связях с разными народами и цивилизациями, и всегда будучи от них в зависимости, они не проявляли сомнения в приобретении для себя необходимых особенностей этих народов и культур. С появлением вопроса об армянском самосознании, эти особенности имели динамику последовательной модернизации, секуляризации. Во внутреннем устройстве и управлении армянской церкви, с любой точки можно обнаружить определенные противоречия по сравнению с другими церквами. В отличие от других церквей, в армянской церкви решающим могло быть не только слово священнослужителя, но и не имеющего церковного сана простого лица .В принятии церковных положений и указов можно наблюдать участие обычных гражданских лиц. Например, первая армянская церковь в Стамбуле которым длительное время управлялась лицом не имеющего церковного сана. Такие особенности армянской церкви увеличивают ее маневренность и влияние в государственной политической системе. Таким образом, армянская церковь образует единство с государством в политическом управлении страной.

***Ключевые слова:*** *Армянские националисты, армянская самосознания, христианство, террор, I Вазген*

Baş redaktorun müavini s.e.d., prof. İbrahimova Gülzar İsaxan qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 31**

# MƏDƏNİYYƏT SİSTEMİNİN SOSİAL-İQTİSADİ PROSESLƏRİN İDARƏ OLUNMASINDA APARICI ROLU

**Əhməd QƏŞƏMOĞLU**†

Məqalə redaksiyaya daxil olmuşdur: 7 may 2019; çapa qəbul edilmişdir: 3 iyun 2019; online-da çap edilmişdir: 25 sentyabr 2019
Received: 7 May 2019; accepted: 3 June 2019; published online: 25 September

***Açar sözlər:*** *mədəniyyət, idarəetmə, sosial-iqtisadi proseslər, sistemli yanaşma, ahəngyol*

## 1. Giriş

Marksizm, materializm fəlsəfəsinin, eyni zamanda praqmatik yanaşmanın təsiri altında belə bir fikir formalaşmışdır ki, hər bir cəmiyyətin inkişafında, tərəqqisində həlledici rolu iqtisadi amillər, iqtisadi sistem oynayır. Həqiqətən də cəmiyyətin həyatında iqtisadi amillər olduqca mühüm rol oynayır. Belə bir vəziyyət özünü sadə, primitiv, inkişaf etməmiş cəmiyyətlərdə daha çox göstərir. Amma qlobollaşma sürətləndikcə, cəmiyyət günü-gündən mürəkkəbləşdikcə tamamilə başqa bir vəziyyət yaranır. Aydınlaşmağa başlayır ki, mədəni səviyyəsi aşağı olan cəmiyyətlərdə, mövcud olan böyük iqtisadi sərvətlərdən lazımi şəkildə istifadə etmək bacarığı çatışmır. Bunun da nəticəsində böyük iqtisadi sərvət lazım olan istiqamətlərdə istifadə edilmir. Əksinə, bəzən elə istiqamətlərdə sərf edilir ki, bu həm cəmiyyətin inkişafında, həm də elə həmin iqtisadi sistemin inkişafında mənfi rol oynayır.

## 2. Mədəniyyət sisteminin potensialı

İnsan cəmiyyətdə öz insanlıq, mədəniyyət, mənəviyyat səviyyəsi ilə əhəmiyyətlidir. İqtisadi amillər bir vasitə kimi olduqca zəruridir və mədəniyyətin inkişafına xidmət etdikdə cəmiyyətdə daha ahəngdar bir vəziyyət yaranır və tərəqqi prosesi sürətlənir. Yüksək mənəviyyata kömək edən iqtisadi amillər daha arzu olunandır. Mənəviyyatı, mədəniyyəti aşındıran iqtisadi amillər hər zaman fərqləndirilməlidir. İqtisadiyyat və mədəniyyət amillərinin sərhədlərinin müəyyənləşməsində həssas olmaq lazımdır. Mədəniyyəti, mənəviyyatı yüksək olan ölkə ən çətin situasiyalardan çıxa bilmək, öz siyasətini, iqtisadiyyatını, ekologiyasını, demoqrafiyasını qura bilmək potensialına malikdir. Misal olaraq Yapon, Çin, Cənubi Koreya, Sinqapur, Malaziya və s. kimi ölkələri göstərmək olar. *Bu gün dünyada həmin ölkələrin iqtisadiyyatlarının möcüzələri yoxdur, onların mədəniyyətlərinin möcüzələri vardır.* Müstəqil ölkənin ən böyük nailiyyəti mövcud resurslarından istifadə etməklə öz mədəniyyətini, mənəviyyatını qorumaq, inkişaf etdirməkdir.

Müasir sosiologiya tarixində görkəmli yer tutan, müasir sosiologiyanın formalaşmasında mühüm rol oynayan Frankfurt sosiologiya məktəbi də cəmiyyətdə mədəniyyətin roluna olduqca yüksək qiymət vermişdir. Bu məktəbin nümayəndələri həyatdakı proseslərin formalaşmasında mədəniyyətin rolunun, onun təsir mexanizminin aydınlaşmasına dair qiymətli tədqiqatlar aparmışlar. Bu məktəbin görkəmli nümayəndələri T.Adorno, V.Benyamin, E.Fromm, M.Horkhaymer və H.Markuzenin və digərlərinin əsərlərində epistomologiyaya, marksizmə, mədəniyyətin mühüm problemlərinə, irqi, milli məsələlərə və s. həsr olunmuş mühüm tədqiqatlar var. Amma aparılan bütün tədqiqatlarda əsas

† iqtisad üzrə fəlsəfə doktoru, dosent, AMEA Fəlsəfə İnstitutu
*e-mail: ahmgmm@gmail.com*

ana xətt olaraq mədəniyyətin cəmiyyətdə nə dərəcədə aparıcı rol oynadığı əsas diqqət mərkəzində olmuşdur. Onların marksizmlə bağlı bütün tədqiqatlarında da iqtisadi amillərə əlahiddə yer verilməsinə etiraz edilmişdir. Elmi araşdırılmalarında ekonomizmə, ortodoksal marksizmə ciddi yer verilmiş, kapitalizm cəmiyyətinin əsas prinsipi olan instrumental rasionalizm tənqid edilmiş, bu sahədə daha mükəmməl elmi nəzəriyyələrin yaradılmasına cəhd edilmişdir. Hətta freydizmlə marksizmin birləşməsi istiqamətində tədqiqatlar aparmışlar (4; 6; 7; 8). Ümumilikdə bir revezionist, təftişçi neomarksist nəzəriyyələr kimi ortaya çıxan Frankfurt məktəbi nəzəriyyələri cəmiyyətdə müxtəlif proseslərə mühüm təsir edən aparıcı rolun iqtisadiyyatdan daha çox mədəniyyətə aid olduğunu əsaslandırmışlar (1, s. 349). Tanınmış Fransız tədqiqatçısı R.Debre də iqtisadi amillərin inkişafa belə həlledici təsir etməsi fikrini bir mif, xülya hesab edir. Bununla bağlı onlarla tanınmış, ciddi mütəxəssislərin fikirlərini də misal gətirmək olar.

### 3. Mədəniyyət sistemi və sosial-iqtisadi proseslər

Mədəniyyət barədə, xüsusi ilə onun sosial-iqtisadi proseslərin idarə olunmasına təsiri barədə danışdıqda həm ümumi mədəni səviyyəyə - mədəniyyətin funksional tərəfinə diqqət vermək, həm də mədəniyyətin strukturuna diqqət yetirmək lazımdır. Çünki, mədəniyyət sistemi əxlaq, təhsil, dil, din, incəsənət(onun bütün şaxələri), elm, fəlsəfə, ideologiya, siyasət, folklor, əsatir və s. komponentlərin qarşılıqlı əlaqələrinin yekunu kimi özünü göstərir. Sosial-iqtisadi idarə etmədə bəzən adi musiqi alətinin belə mühüm rolu ola bilər. Yaxud insanlarla hansı dildə danışmanın, hansı dini sistemin tövsiyələrindən istifadə etmənin və s. mədəniyyətin bütün komponentlərinin ayrılıqda müəyyən xüsusiyyətlərlə istifadə olunmasının çox effektiv təsiri ola bilər. Sosial-iqtisadi proseslərin idarə olunmasında hökmən bu imkanlardan hərtərəfli istifadə olunması vacibdir.

Mədəniyyəti inkişaf etmiş cəmiyyətlərdə sosial-iqtisadi prosesləri idarə etmək imkanları daha çox olur. Ən mühüm olanlardan biri odur ki, mədəniyyəti inkişaf etmiş cəmiyyətlərdə, idarə etmə düzgün qurulduqda, sosial-iqtisadi proseslərin idarə olunmasında, əsasən, yaxud bütövlükdə bu cəmiyyətin üzvlərinin intellektual, mənəvi potensialından daha çox faydalanmaq olar. İdarə etmə zamanı cəmiyyətin potensialını daha tez hərəkətə gətirmək, onların idarə etmədə, qərarların qəbul edilməsində pozitiv cəhətdən istifadə etməsinə nail olmaq olar ki, bu da mövcud problemlərin daha tez ortadan götürülməsinə kömək edər. Mədəni səviyyə aşağı olan cəmiyyətlərdə isə bu idarəetməni daha çox kənar qüvvələr həyata keçirməli olur. Yaxud da heç mühüm olan sosial-iqtisadi prosesin idarə olunması ilə heç kim məşğul olmur.

### 4. Mədəniyyət kateqoriyası haqda

Bəs mədəniyyət dedikdə nə başa düşülür? İlk baxışdan sual olduqca sadə görünə bilər. Sanki hər birimizin bildiyi bir şey barədə soruşulur. Doğrudur, hər kəsdə mədəniyyətin mahiyyəti barədə müəyyən təsəvvürlər vardır. Amma diqqətlə fikir verildikdə müxtəlif ölkələr, ziyalılar, alimlər, siyasətçilər, şəxslər arasında bu suala verilən cavabların müxtəlif olduğunu görmək çətin deyildir. Hər kəs mədəniyyətin nə olduğunu bilir və eyni zamanda bilmir. Bu gün elmi ədəbiyyatda, ictimai şüurda mədəniyyətin mahiyyəti barədə aydın təsəvvür yoxdur. Verilən təriflər müxtəlif səviyyələrdə səthi xarakter daşıyır. Mədəniyyətə verilən bütün təriflərdə, əsasən, etimoloji olaraq insanın, sosial qrupun, sosial sistemin həyat üçün nə qədər hazırlanması, formalaşması səviyyəsi nəzərdə tutulur. Amma bu həyatın hansı həyat olduğuna, onun meyarlarının mahiyyətinə elə bir diqqət yetirilmir. Bir az diqqətlə fikir verdikdə, insanların əksəriyyətinin mədəniyyət barədə danışdıqda, özlərinə də çox aydın olmayan bir şey barədə danışdıqlarının şahidi olarıq.

70 ilə qədər bir dövrdə bizim mədəniyyət sistemimizə marksizm-leninizm yönündən, əsasən, kommunist ideologiyasına köməkçi bir vasitə kimi baxılmışdır. Marksın

əsərlərində "mədəniyyət" sözündən dəfələrlə istifadə edilməsinə baxmayaraq, bu terminə konkret münasibət bildirilməyib. Hər dəfə müəyyən kontekstdə istifadə olunmuşdur (11,12 ). Marks bu anlayışdan insani münasibətləri, onların fəaliyyətlərini və s. xarakterizə edən termin kimi əsasən öz iqtisadi nəzəriyyəsini əsaslandırmaq üçün istifadə etmişdir. Müxtəlif elmi ədəbiyyatlarda da "mədəniyyət" kateqoriyasına verilən izahlarda birtərəfli, bəzən isə dolaşıq yanaşmaların şahidi oluruq. Məsələn, Azərbaycan filosoflarının hazırladığı "Fəlsəfə\ensklopedik lüğət" də mədəniyyətə belə bir tərif verilmişdir: "varlığın və şüurun bütün sahələrində bəşəriyyətin predmetləşdirmə (sərvətlər, normalar, işarə sistemləri yaradılması və s.) və predmetsizləşdirmə (mədəni irsin mənimsənilməsi) proseslərin dialektik vəhdətindən ibarət, gercəkliyin yenidən dəyişdirilməsinə, bəşər tarixi zənginliyinin şəxsiyyətin daxili zənginliyinə çevrilməsinə, insanın mahiyyət qüvvələrinin hər vasitə ilə aşkara çıxarılmasına və inkişaf etdirilməsinə yönəldilmiş sosial- mütərəqqi yaradıcı fəaliyyəti" (2, s. 276). Göründüyü kimi tərif tərcümə xarakteri daşıyır və çox dolaşıqdır. Tanınmış kulturoloqumuz Fuad Məmmədovun olduqca maraqlı "İdarəetmə mədəniyyəti" kitabında da mədəniyyət anlayışına müxtəlif tərifləri təqdim etmişdir (3, s. 240]. Bu kitabda mədəniyyətə aşağıdakı kimi tərif də verilmişdir: "mədəniyyət-ikinci sinif təbiətdir, insanın ağlı, hissi və fiziki əməyi ilə yaradılan bütün pozitivlərdir. Bununla yanaşı, o tarixi, yaradıcı prosesdir, xaos və cahillikdən-biliyə, nizama, inkişafa və rifaha doğru yoldur. Mədəniyyətin inkişafının əsasını təşkil edən əsas motiv – insanın həyatının qorunub saxlanması və yaxşılaşdırılması haqqında qayğıdır". Müxtəlif dillərdəki mənalarının yekunu olaraq - hər hansı bir şeyi cilalamaq, istifadə üçün yaralı hala salmaq, təkmilləşdirmək, tərbiyə etmək, yüksəltmək kimi mənalar verən mədəniyyət kateqoriyasına indi dünya miqyasında olduqca tanınmış alimlərin verdiyi bir neçə tərifi də nəzərdən keçirək. Teylor mədəniyyətə primitivlikdən təkmilləşməyə doğru baş verən təkamül kimi baxır. A.Krayber və K.Klakxonun fikrincə, mədəniyyət insanın davranışını müəyyənləşdirən daxili quruluşa və xarici təzahür formalarına malik olan normalardan ibarətdir və mədəniyyətin nüvəsi xalqın ənənələridir. Redkliff, Braunun fikrincə, mədəniyyət – dil, inam, estetik münasibət, bilik, peşəkarlıq, adətlərdən ibarət küllidir. Malinovskiyə görə mədəniyyət – ümumi və qəbul olunmuş düşüncə tərzidir. Smelserə görə, mədəniyyət – dil, hadisələrə münasibət, əhalinin üstünlük verdiyi dəyərlər və cəmiyyətdə mövcud olan davranış qaydaları ilə xarakterizə olunmalıdır.

Dərindən araşdırda mövcud təriflərin hamısında müəyyən bir birtərəfliliyin olduğunu, məsələyə tam təfərrüatı ilə yanaşıla bilməmənin şahidi oluruq. Mədəniyyətə verilən təriflərin belə yarımçıq olmasının səbəbidir ki, bu gün mədəniyyət sistemlərinin önəminə lazımi qiymətlər verilmir. Məhz bunun hesabınadır ki, qlobollaşma prosesinə subyektiv müdaxilə edənlər ona bu qədər məsuliyyətsiz yanaşırlar. Bu təriflər ayrı-ayrılıqda yəqin ki, müəyyən məna daşıyır və tədqiqat üçün maraqlıdır. Amma sosial-iqtisadi proseslərin idarə olunması zamanı mədəniyyət amilini hiss etməmimiz, ondan istifadə edə bilməmiz üçün mədəniyyətdə daha konkret, daha aydın bir tərif verməyə ehtiyac duyulur.

Bir az əvvəl qeyd etdiyimiz kimi, iqtisadi amillər həyatın müəyyən səviyyəsi üçün olduqca zəruri amillər olsa da cəmiyyətin formalaşması, fəaliyyəti üçün ən mühüm olan mədəniyyət amilləridir. Təbii ki, iqtisadi amillər hava, su kimi insanın, cəmiyyətin mövcudluğu üçün zəruri amillərdir. Amma, elə havanın suyun cəmiyyətin tərəqqisi üçün həlledici göstərici olmadığı kimi, iqtisadiyyat da sosial sistemin can atdığı əsas hədəf deyil, zəruri, köməkçi vasitədir.

Hansı mədəniyyət sistemi daha üstün, daha çox arzu olunandır? Misal üçün, Avropa mədəniyyəti Azərbaycan mədəniyyətindən üstündürmü? Təəssüf ki, bu suala bu günə qədər müxtəlif mütəxəssislər tərəfindən, eyni zamanda bizim KİV lərdə, müxtəlif tanınmış adamların çıxışlarında, məqalələrində ancaq populist cavablar verilir. Bu suala daha düzgün cavab vermək üçün elmi araşdırmalara ehtiyac vardır.

Elmi, fəlsəfi baxımdan bu mədəniyyət sistemlərini müqayisə eləmək üçün məsələyə həm funksional olaraq, həm də struktur yanaşmaq lazımdır. Qeyd etmək lazımdır ki, əksər hallarda əksər mütəxəssislər mədəniyyət sistemini birtərəfli, struktur yanaşma baxımından araşdırırlar. Yəni mədəniyyət sisteminin strukturunu təşkil edən komponentlərə, amillərə, elementlərə diqqət yetirməklə müqayisə aparılır. Misal üçün, qərbin məişəti, texniki rahatlığı, həyat tərzinin müəyyən cəhətləri, davranışlarındakı müəyyən xüsusiyyətlər diqqət mərkəzinə çəkilir. Bu cəhətlər adətən daha cəlbedici görünür. Bir qayda olaraq funksional yanaşma, yəni mədəniyyətin cəmiyyətdə konkret olaraq hansı missiya daşıdığı, onun funksiyası, bu funksiyanı müəyyənləşdirmək üçün meyarlar barəsində, demək olar ki, danışılmır. Bəla burasındadır ki, dünyanın qabaqcıl sayılan elmi mərkəzlər də bir çox hallarda bu şəkildə fəaliyyət göstərirlər. Misal üçün, Amerikanın, Avropanın bir çox qabaqcıl elmi Mərkəzləri Şərqin, Afrikanın, lap elə Xəzər regionunun mədəniyyəti barədə danışanda bir çox hallarda əsas diqqəti dini amillərə yönəldirlər.

**5. Ahəngyol elmi və mədəniyyət**

Fikrimizcə, ahəngyol elmi* (1; 9; 10) mədəniyyət kateqoriyasının daha məzmunlu və konstruktiv olaraq öyrənilməsinə, mədəniyyət sistemindən sosial-iqtisadi proseslərin idarə olunmasında konkret olaraq istifadə edilməsinə kömək edə bilər. Hər bir insanın, sosial sistemin, ölkənin mədəniyyəti, onun hər hansı bir fəaliyyət zamanı qarşısına qoyduğu məqsədin xarakterindən başlayır. Qarşıya qoyulan məqsəd bəşəri dəyərlərə zidd deyilsə, ədalətli, humanistdirsə, tərəqqiyə xidmət edirsə və bu məqsədə çatmaq uğrunda göstərilən fəaliyyət ətrafda, sosial mühitdə ahəng, insanlar arasında qarşılıqlı anlaşma yaradırsa o zaman mədəniyyətin müəyyən səviyyəsindən söhbət gedə bilər. Bir insan hər hansı bir kollektivdə o kollektiv üçün də faydalı bir məqsədə nail olmaq üçün ahəng yarada bilirsə, həmin adam o kollektivdə mədənidir. O bu mədəniyyəti hansı miqyasda yarada bilirsə, elə o miqyasda da mədənidir. Əgər mədəniyyəti ilə öz ölkəsində ad qazanmış bir fransız cəngəlliyə düşürsə və oradakı tayfa arasında ahəng yarada bilmirsə, həmin fransız həmin cəngəllikdə mədəni deyildir.

Məhz bu baxımdan yanaşdıqda insanların, sosial sistemlərin mədəniyyətlərinin müqayisəsindən danışmaq olar. Təhsil, elm, mütaliə, geyim, məişət əşyaları, mənzil şəraiti, nizam-intizam, səliqə, davranış etiketləri və s. bu kimi amillər mədəniyyətin əsas, həlledici göstəriciləri yox, mədəni olmaq üçün vasitələr, imkanlardır. Ən əsası bu imkanlardan nə cür istifadə etməkdir. Avropalılarda, Qərbdə bu imkanlar baxımından xeyli üstünlük vardır. Amma Qərbdə eyni zamanda bu imkanlardan istifadə sahəsində ciddi problemlər də vardır. Bu gün Qərb cəmiyyətini xarakterizə edən filmlərə baxdıqda belə mövcud, geniş maddi imkanlar içində hansı mənəvi problemlərin yaşam tərzinə çevrildiyinin şahidi oluruq. Ortada olan vəziyyəti dərindən təhlil etdikdə, bu qənaətə gəlmək olar ki, Avropa məişətdə, texnikada əksər ölkələrdən çox qabaqdadır, çox mədənidir. Qanunvericilik, idarə etmə sahəsində özlərinə məxsus bir sıra nailiyyətlərə malikdirlər. Çünki onların bu sahədə əldə etdikləri, istifadə etdikləri vasitələr ətrafda daha çox ahəng yaradır. Amma mənəviyyat məsələlərində, tarixi inkişaf boyu bir sıra amilləri nəzərdən qaçırmışlar. İndiki zamanda öz həyat tərzlərini başqalarına da olduğu kimi, təlqin etməklə, instrumental rasional, praqmatik maraqlarını həyata keçirmək üçün bir sıra hallarda cəmiyyətin təbii inkişaf qanunlarını pozurlar, bununla yer üzündə gərginliyin artmasına səbəb olurlar. Deməli, rasional düşüncə, praqmatik dəyərlər baxımından müəyyən komponentlər üzrə avropalılar mədənidir. Amma bunu, təəssüf ki, yenə də onların rasional düşüncəsinin,

* Ahəngyol elmi müəllif tərəfindən təklif edilmişdir. 2011-ci ildə dahi L.Zadə tərəfindən dəstəklənmiş və bu elm haqda məlumat Koliforniya Universitetinin BİSC – qapalı elektron jurnalında verilmişdir. Dünyanın 15 ölkəsində təqdimatı keçirilən bu elm sahəsinin AMEA, Rəyasət Heyətində də uğurla təqdimatı keçirilmişdir. Bir neçə yüksək indeksli dərgilərdə ahəngyol elmi barədə ətraflı məlumat verilmişdir. İndi beynəlxalq aləmdə uğurla yayılmaqdadır.

praqmatik maraqlarının nəticəsi olaraq ortaya çıxan, mənəvi aşınmaya səbəb olan, müharibələr alovlandıran davranışları barədə demək olmaz. Beləliklə, fikrimizcə, mədəniyyətə daha konkret, konstruktiv olaraq belə tərif vermək olar: *Mədəniyyət – bəşəri dəyərlərə uyğun olaraq seçilən məqsədə doğru, öz mühitində ahəng yaratmaqla təzahür edən fəaliyyət tərzidir.*

Təqdim olunan məqalədə mədəniyyət kateqoriyasına sosial idarəetmə tələbləri baxımından diqqət yetirilmişdir. Fikrimizcə, mədəniyyət – yer üzünə gəlmiş hər bir fərdin mənəviyyatlı insanlıq keyfiyyətlərinə nə dərəcədə yiyələnməsini, şəxsiyyət olaraq hansı şəkildə formalaşmasını xarakterizə edir. Bu sözləri, ümumi halda cəmiyyət, istənilən sosial sistem haqda da demək olar. Ona görə də, "mədəniyyət" kateqoriyasını daha ətraflı izah etmək üçün ən əvvəl insanın, şəxsiyyətin mahiyyəti barədə dərindən düşünməyə ehtiyac vardır. Ahəngyol elminin prinsiplərinə görə insan "kosmo-bio-psixo-sosio" varlıqdır və hər bir insanın keyfiyyəti aşağıdakı 3 amillə xarakterizə olunur: 1) fiziki sağlamlıq; 2) mənəvi zənginlik və 3) əməyə yaradıcı münasibət təlabatının dərəcəsi. Bu üç amilin hər biri həmin "kosmo-bio-psixo-sosio" təsir altında formalaşır, inkişaf edir.

Bu üç amil qarşılıqlı olaraq birlikdə hər hansı bir insanın insan olaraq keyfiyyətini xarakterizə edir. Onlardan hər biri müxtəlif şəkildə inkişaf edə bilər. Misal üçün, yalnız fiziki sağlamlıq yüksək səviyyədə olub, mənəvi zənginlik və əməyə yaradıcı münasibət tələbatı aşağı olduqda, belə insan xeyli kobud olur. Yaxud, insan ancaq mənəvi cəhətdən inkişaf etməklə, o biri amillər üzrə zəif ola bilər. Belə olduqda isə, insan təmiz qəlbli, vicdanlı, eyni zamanda, xəstəhal, yazıq bir adam kimi də görünə bilər. Tarixdə, belə adamlar arasında xeyli maraqlı insanlar, hətta müqəddəs sayılanlar belə olmuşdur. Onların intellektcə inkişaf edənləri dahi də ola bilər. Əməyə yaradıcı münasibət tələbatı ilə seçilən, o biri amillərinsə zəif olduğu adamsa vasvası, çalışqan bir insan tipi kimi fərqlənə bilər. Təbii ki, həyatda nadir adamları istisna etməklə insanlarda bu üç amilin hər biri müəyyən dərəcədə inkişaf etmişdir və hər bir insanı bu 3 amilin potensialına görə müəyyən keyfiyyət göstəricisi ilə xarakterizə etmək mümkündür. Sosial-iqtisadi proseslər idarə olunduğu zaman idarəetmənin obyekti və eləcə də subyekti olan insanlarda bu amillərin hansı nisbətdə olması mühüm rol oynayır. Doğrudur, idarəetmə zamanı tədqiqatçını, idarəedicini bu göstəricilərin nisbətini xarakterizə edən orta statistik göstəricilər daha çox maraqlandıra bilər. Amma, konkret situasiyadan asılı olaraq, bəzən bir fərddə (xüsusi ilə rəhbər şəxsdə) bu göstəricilərin nisbəti olduqca mühüm, bəzən həlledici rol oynaya bilər.

Min illərdir ki, dünyanın bütün müdrik insanları, peyğəmbərləri, dini kitabları, böyük söz ustaları, folkloru, mənəviyyatlı insanları deyir, yazır, təsdiq edir ki, hansı cəmiyyətdə ki, mənəvi dəyərlər daha öndədir, maddi dəyərlər əsasən mənəvi dəyərlərə yiyələnməyə xidmət edir, həmin cəmiyyətdə mədəniyyət inkişaf edir, mədəni insanlar çoxalır. Hər hansı bir cəmiyyətdə, maddiyyat mənəviyyata xidmət edirsə, o cəmiyyətdə get-gedə mədəniyyət sistemi güclənir, bir ahəng yaranır. Əksinə, mənəviyyat başqa dəyərlərin təsiri altına daha çox düşdükcə, cəmiyyətdə gərginlik çoxalır, kriminallıq artır. Ona görə də sosial-iqtisadi proseslərin idarə olunması zamanı iqtisadi amillərə elə təsir etmək lazımdır ki, maddiyyat, başqa dəyərlər mənəviyyata xitmət etsin, əksi baş verməsin.

Bunu fəlsəfi baxımdan da asan əsaslandırmaq olar. Sistem nəzəriyyəsindən, sinergetika elmindən də məlumdur ki, cəmiyyət müəyyən iyerarxik qüvvələrin təsiri altında təbii olaraq, özü-özünü nizamlayan sistemdir. Amerikanın çox məşhur alimləri R.Akoff və F.Emerinin də təsdiq etdiyi kimi (5), hər bir sosial sistemin təbii olaraq can atdığı müəyyən bir məqsəd vardır. *Ahəngyol əsaslandırır ki, həmin məqsəd ahəngin bərpasıdır.* Mənəvi dəyərlərə üstünlük verilən cəmiyyətdə hər kəsin mənəvi potensialı daha çox üzə çıxır və bu, cəmiyyətin özünü təşkil məqsədinə doğru tənzimlənmə imkanını artırır. Yəni bir "ahəng effekti" baş verir. Belə ki, cəmiyyətdə mənəviyyatın üstünlüyü ideyası aparıcı

olduqda, hər bir kəsin mənəvi potensialının üzə çıxması üçün imkanlar çoxalır. Bu imkanlar çoxaldıqca insanların hər birində öz təyinatına, mahiyyətinə görə fəaliyyət imkanı artır. Bu isə cəmiyyətin öz mahiyyətinə görə tənzimlənmək imkanını çoxaldır. Beləliklə, cəmiyyətdə ahəng əhval ruhiyyəsi artır. Bu isə hər bir insana daha mədəni olmağa - ətrafında ahəng yaratmağa kömək edir.

Mədəniyyət sahəsi eyni zamanda bir strateji sahədir. Bombalarla, uzun illərin müharibələri ilə yıxıla bilməyən bir dövləti, mədəniyyət sisteminə müdaxilə etməklə, həmin cəmiyyətdə baş verən sosial-iqtisadi proseslərdə bir gərginlik yaratmaqla, darmadağın etmək olar. Təkcə ölkədə yox, istənilən yaşayış məntəqəsini, təşkilatı, kollektivi, ailəni də mədəniyyət amillərinə təsir etməklə müxtəlif istiqamətlərdə sürətlə dəyişmək olar.

**Nəticə**

Qlobollaşmanı sürətlənməsi ilə hər bir cəmiyyət, sosial sistem günü-gündən müxtəlif dərəcələrdə mürəkkəbləşməkdədir. Bu mürəkkəbliyin dərəcəsi artdıqca, cəmiyyətdə baş verən sosial-iqtisadi proseslər də, mürəkkəbləşməkdə, şaxələnməkdə, biri-birinə daha çox təsir etməkdədir. Belə bir vəziyyətdə cəmiyyət olduqca həssaslaşır və mədəniyyət amilləri daha çox rol oynamağa başlayır. Mədəniyyət amilləri başqa tip amillərin – iqtisadi, ekoloji, siyasi, demoqrafik, siyasi və s. amillərin tənzimlənməsində daha çox rol oynamağa başlayır. Ona görə də cəmiyyətdə baş verən proseslərin, o cümlədən sosial-iqtisadi proseslərin idarə olunmasında mədəniyyət amillərindən daha çox istifadə etmək zərurəti artır. Amma təbii ki, bu amillərdən istifadə etmək üçün xüsusi metodologiyaya, elmi metodlara ehtiyac vardır. Müəllifin apardığı elmi araşdırmalarda bu sahədə mühüm nəticələr əldə edilmişdir. Bu nəticələrin bir neçəsi yüksək indeksli beynəlxalq elmi dərgilərdə də öz əksini tapmışdır.

## QAYNAQLAR


1. Qəşəmoğlu Ə. Sosial-iqtisadi problemlərin idarə olunmasının fəlsəfi, sosioloji problemləri / Ahəngyol elminə giriş. Bakı: Teknur, 2008, 243 s.
2. Fəlsəfə/ensklopedik lüğəti. Bakı: Azərbaycan ensklopediyası” Nəşriyyat poliqrafiya birliyi, 1997, 520 s.
3. Məmmədov F. İdarəetmə mədəniyyəti. Bakı: Apostrof, 2013, 672 s.
4. Аберкромби Н., Хилл С., Тернер Б. Социологический словарь. Казань: Издательство Казанского университета, 1997, 420 с.
5. Акофф Р, Эмери Ф. О целеустремленных системах, М.: Советское радио, 1974, 270 с.
6. Бессонов Б.Н. Социальная философия Франкфуртской школы. (Критические очерки). М.: Мысль, 1975, 359 с.
7. Давыдов Ю.Н. Критика социально-философских воззрений Франкфуской школы. М.: Наука, 1977, 319 с.
8. Современная западная социология: словарь. М.: Политздат. 1990, 374 с;
9. Gashamoglu A. A Fuzzy Mathematic Model of Progress in Management of Social Systems through Ahangyol Methods 13th International Conference on Application of Fuzzy Systems and Soft Computing, ICAFS 2017, 22-23 August 2017, Budapesht, Hunqari.
10. Gashamoglu A. Fuzzy mathematics & science of ahangyol. 12th International Conference on Application of Fuzzy Systems and Soft Computing, ICAFS 2016, 29-30 August 2016, Vienna, Austria;
11. Проблема культуры в философии Маркса http://www.gumer.info/bogoslov_Buks/Philos/Fil_Kult/08.php
12. Пути развития культуры в XXI веке: Концепция культуры Карла Маркса. http://subscribe.ru/archive/culture.people.putirazvitija/201009/19095513.html;

**_Summary_**

**_Ahmad Gashamoglu_**

**_The Leading Role of Cultural Systems in Management of Socio-Economic Processes_**

As long as the very rapidly running globalization process continues in the world, every society and social system increasingly becomes complex day by day and various factors increasingly play more active role in the development of the processes occurring inside them. Economic, demographic, ecological, political and other factors have a more sensitive impact on emerging processes, including social-economic processes. Under the influence of many theories, this idea has been formed so far that economic factors play a more decisive role in the development of the society. The Author notes that this may even be the case for simple, less developed and developing societies. However, this idea is not true for developed and complex societies. Although economic factors are very important in the formation of the life, the cultural system plays a more influential role as a regulatory factor in complex social systems. As long as the cultural system is strong, economic and also demographic, geographical, political and other factors are used more efficiently in the society. Contrariwise, if the cultural system is weak, any existing potential gets decayed in time and turns into an undesirable form. Now, in Japan, China, South Korea, Singapore and similar countries, not an economic miracle, but in fact, cultural miracle is observed. And one of the leading ideas of the Frankfurt sociology school which played an important role in the formation of the modern sociology yet in the previous century was to offer the factor of culture as a decisive factor. And many other experts supported that idea.

According to the Author who is the founder of the Science of Ahangyol which is getting successfully spread in the scientific world at the global level, an individual or social system is more cultural if both the goal that s/he or it sets for himself/herself/itself in his/her/its activity and his/her/its activity towards this goal ultimately helps more to the formation of harmony in the society and in the world in general. Such a definition or approach helps to use the cultural factor more constructively in the regulation of social-economic processes.

**_Keywords:_** *culture, management, socio-economic processes, systematic approach, ahangyol*

**_Резюме_**

**_Ахмед Гашамоглы_**

**_Ведущая роль системы культуры в управлении социально-экономическими процессами_**

С ускорением процесса глобализации каждое общество и социальная система становятся все более сложными и различные факторы играют все более активную роль в происходящих в них процессах. И экономические, и демографические, и экологические, и политические и др. факторы все более воздействуют на происходящие процессы, в том числе и к социально-экономическим. До сих пор под влиянием многих теорий сформировалось такое мнение, что экономические факторы играют более решающую роль в развитии общества. По мнению автора такая ситуация может быть оправдана в простых, малоразвитых, развивающихся обществах, однако в развитых, сложных обществах это мнение не оправдывает себя. Хотя экономические факторы чрезвычайно важны и в формировании жизнедеятельности в сложных социальных системах, но система культуры играет более доминирующую роль как регулирующий фактор. В обществе с сильной культурной системой экономические, а также демографические, географические, политические и др. факторы используются более эффективно. И наоборот, любой потенциал, имеющийся в случае со слабой культурной системой разрушается через определенное время, становится нежелательным. На самом деле в Японии, Китае, Южной Корее, Сингапуре и др. странах в настоящее время наблюдается не экономическое чудо, а чудо культуры. Еще в прошлом веке одна из ведущих идей Франкфуртской школы социологии, сыгравшей важную роль в формировании современной социологии, заключалась в том, что фактор культуры является решающим в обществе. Эту идею поддержали и многие другие специалисты.

В науке *ахенгйол*, предложенный автором, и ныне успешно распространенной в междуна-

родном научном мире, понятие культуры определяется следующим образом: тот индивид, та социальная система являются более культурными, которые в своей деятельности ставят перед собой такую цель и добиваются ее таким способом, что это способствует созданию более гармоничной ситуации вокруг себя. Такое определение, такой подход помогают более конструктивному использованию фактора культуры в управлении социально-экономическими процессами.

***Ключевые слова:*** *культура, менеджмент, социально-экономические процессы, системный подход, ахенгйол*

Redaksiya heyətinin üzvü fəl.ü.f.d., dos. Qaraməmmədli Yasin Alı oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 94**

# AZƏRBAYCAN SSR-də ALİ TİBB TƏHSİLİ (XX əsrin 20-ci illəri)

**İlham HƏSƏNOV***

Məqalə redaksiyaya daxil olmuşdur: 20 fevral 2019; çapa qəbul edilmişdir: 25 iyun 2019; online-da çap edilmişdir: 25 sentyabr 2019
Received: 20 February 2019; accepted: 25 June 2019; published online: 25 September

***Açar sözlər:*** *tibb, həkim, təhsil, səhiyyə, xəstəxana*

## Giriş

1917-ci ilin oktyabrında Rusiyada həyata keçirilmiş dövlət çevrilişi, Şimali Azərbaycan ərazisinin Sovet Rusiyasının XI ordusu tərəfindən işğalı, ADR-in siyasi süqutu idi, Rusiya bolşeviklərin "dünya inqilabı" siyasətinə xidmət edirdi. Bütün bu hadisələr mahiyyətcə Sovet Rusiyasının "vahid və bölünməz imperiyasının bərpası" sahəsində yeni "təşəbbüs"ləri idi. Rusiya bolşeviklərinin lideri V.İ.Leninin 1920-ci il 5 may tarixli Azərbaycan zəhmətkeşlərinə təbrik teleqramında "Yaşasın müstəqil Azərbaycan Sovet Sosialist Respublikası" şüarının ön plana çəkilməsi dərin düşünülmüş, demaqogiya ilə pərdələnmiş senarinin tərkib hissəsi idi. Azərbaycan Hərbi inqilab Şurasının (sonralar Azərbaycan HİŞ) Azərbaycan zəhmətkeşlərinə 1920-ci il 28 aprel müraciətində də "müstəqil Azərbaycan SSR-in yaradıldığı" elan edilirdi. "Ən inandırıcı sübut" ondan ibarət idi ki, respublikanın rəhbər orqanlarının formalaşmasında Azərbaycan xalqının nümayəndələri iştirak edirdilər. Həmin gün Azərbaycan HİŞ-in dekretinə əsasən N.Nərimanovun başçılığı ilə Azərbaycan SSR Xalq Komissarları Soveti (XKS) təşkil edilərək onun tərkibində D.X.Bünyadzadənin rəhbərliyi ilə Xalq Maarif Komissarlığı və Abid Əlimovun başçılığı ilə Xalq Səhiyyə Komissarlığı yaradılmışdı. Lakin, Azərbaycan HİŞ-nin və XKS-nin səlahiyyətləri tədricən məhdudlaşdırılıb Azərbaycan Kommunist partiyasının əlində cəmləşdirilsə də, Azərbaycan K(b)P özü də müstəqil siyasi partiya deyildi. O, Rusiya K(b)P-dən tam asılı idi. Sovet rejiminin ilk günlərindən səhiyyə sahəsində də milliləşdirilmə xətti tətbiq edilməyə başlanmış, Azərbaycan HİŞ-in 1920-ci il 28 aprel dekreti ilə ayrı-ayrı şəxslərə, şirkət və cəmiyyətlərə məxsus olan müalicə müəssisələri (xəstəxanalar, ambulatoriyalar, sanatoriyalar) onların əlindən alınıb milliləşdirilmişdi [8, 3-4]. 1920-ci ilin yayında Xalq Səhiyyə Komissarı vəzifəsinə inqilabçı-həkim A.Ə.Kazımov təyin edilmişdi. Yeni rəhbərlik ilk vaxtlardan bütün səhiyyə və tibbi-müalicə müəssisələrini vahid sistemə tabe etmək məqsədilə onların Səhiyyə Komissarlığı tabeliyinə verilməsi məsələsini qarşıya qoymuşdu. Azərbaycan XKS-nin göstərişi ilə AXC Xalq Səhiyyə Nazirliyi sərəncamında olan dövlət səhiyyə və müalicə müəssisələri, şəhər və quberniyaların özünüidarə orqanları tərəfindən maliyyələşdirilən şəhər, qəza, kənd xəstəxanaları, habelə pulsuz xidmət göstərən müalicə ocaqları Xalq Səhiyyə Komissarlığının ixtiyarına verilmişdi [9, 115].

### Azərbaycan SSR-də səhiyyə sahəsində ilk mühüm tədbirlər

Azərbaycan SSR XKS-nin 1920-ci il 12 sentyabr tarixli dekreti ilə ixtisaslı tibb

* tarix üzrə fəlsəfə doktoru, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
*e-mail: ilham.hesenov60@mail.ru*

işçilərindən istifadə etmək məqsədilə tibbi fəaliyyətlə məşğul olan bütün şəxslərin (həkimlər, müalicə ilə məşğul olan köməkçilər, feldşerlər, əczaçılar, şəfqət bacıları, diş həkimləri və b.) Xalq Səhiyyə Komissarlığının sərəncamına verilməsi qərara alınmışdı [11, 197]. Müalicə müəssisələrinin Xalq Səhiyyə Komissarlığı tərkibinə verilməsindən sonra orada əhaliyə pullu tibbi xidmət və müalicə ləğv edilərək pulsuz tibbi xidmətə keçilmişdi. O zaman sosial-iqtisadi problemlərin həllində əhalinin tibbi-sanitariya xidmətinin yenidən təşkili xüsusi əhəmiyyət daşıyırdı. Azərbaycan SSR Xalq Səhiyyə Komissarlığı qarşısında son dərəcə çətin, fövqəladə vəzifələr (respublikada sanitariya və epidemioloji işini əsaslı surətdə yenidən qurmaq, əhalinin iş və məişət şəraitini yaxşılaşdırmaq, yoluxucu və ümumi xəstəliklərə qarşı mübarizəni təşkil etmək; respublikada yeni müalicə-profilaktik müəssisələrin təşkili üçün binaların tikintisini genişləndirmək; əhalinin sağlığı keşiyində duran səhiyyə və tibbi təşkilatların köməyi ilə kütləvi sanitar-maarifçilik işlərini genişləndirmək; tibb kadrlarının hazırlanmasına diqqəti artırmaq) qoyulmuşdu [9, 115]. Azərbaycan SSR XKS-nin sədri N.Nərimanovun təşəbbüsü üzrə A.Ə.Kazımovun başçılığı ilə 1920-ci ilin yayında Malyariyaya Qarşı Dövlət Mübarizə Komitəsi yaradılmışdı. Xalq Səhiyyə Komissarlığı nəzdində yoluxucu traxomaya, dəri-zöhrəvi xəstəliklərinə qarşı mübarizə komitələri də təşkil edilmişdi [9, 115]. Xalq Səhiyyə Komissarlığının rəhbərlərinin (A.Əlimovun, A.Ə.Kazımovun və M.N.Qədirlinin) işgüzar fəaliyyəti, habelə Azərbaycan hökumətinin köməyi sayəsində Xalq Səhiyyə Komissarlığının idarəetmə aparatı yenidən qurulmuş, əhaliyə səhiyyə yardımı işi qaydaya salınmağa başlanmışdı.

Sovet rejiminin ilk günlərindən Azərbaycan SSR-də əhalinin sosial müdafiəsini təmin edən bir sıra qanunlar qəbul edilmiş, dövlət təşkilatlarının sığorta olunması, pulsuz tibbi xidmət, habelə əmək şəraitinin gigiyenası ilə bağlı tədbirlər görülmüşdü. Azərbaycan HİŞ-in 1920-ci il 28 aprel tarixli "Fəhlələrin sosial təminatı haqqında" dekretilə əmək qabiliyyətini itirmiş, müvəqqəti işləməyən və qocalığa görə işləmək imkanından məhrum olan fəhlələrin dövlət hesabına təmin olunması qərara alınmışdı [9, 1]. Azərbaycan HİŞ-in 1 iyun 1920-ci il tarixli "Fəhlə və qulluqçuların dövlət sosial sığortası haqqında Qanun"da bütün müəssisələrdə çalışan fəhlə və qulluqçular dövlət tərəfindən sığorta olunaraq xəstələndikdə onlara sosial yardım, o cümlədən pulsuz tibbi müalicə və xidmət göstərilməsi rəsmiləşdirilmişdi [9, 1]. Azərbaycan SSR hökuməti ilk vaxtlarda ciddi çətinliklərlə rastlaşırdı. Respublikada hökm sürən dağınıqlıq, aclıq, epidemiyalar, əhalinin maddi cəhətdən təminatının bərbad halda olması, vətəndaş müharibəsi, onun ardınca ölkədə siyasi hakimiyyət uğrunda gedən mübarizənin doğurduğu ciddi iqtisadi və sosial problemlər qısa zamanda həllini gözləyirdi. Bu məqsədlə görülən ilk tədbirlərdən biri Bakı fəhlələrinin məişət şəraitini yaxşılaşdırmaq üçün Fövqəladə Komissiyanın yaradılması olmuşdu. Bu dövrdə Azərbaycanın bir çox rayonlarında kəndlilərin maddi vəziyyətini yaxşılaşdırmaq və aclığı aradan qaldırmaq üçün fövqəladə komissiyalar təşkil edilmişdi [8, 4].

Azərbaycan SSR hökuməti və Xalq Səhiyyə Komissarlığı həkim mütəxəssislərin müəssisələrdə işə cəlb edilməsi və onlar üçün normal şərait yaratmaq məqsədilə yeni tədbirlər görürdülər. 1920-ci ilin sentyabrın 5-də Azərbaycan SSR XKS-nin iclasında respublikanın daxili vəziyyəti müzakirə olunarkən burada başqa məsələlərlə yanaşı keçmiş mütəxəssislərin sovet idarə və müəssisələrinə cəlb edilməsi, onların imkanlarından və təcrübələrindən istifadə olunması zərurəti göstərilmişdi. XKS-nin üzvü S.M.Əfəndiyevə yaradıcı ziyalıların yığıncağını keçirib onları işə cəlb etmək tapşırığı verilmişdi [9, 115]. Əhalinin müalicəsinin təşkilində başlıca məsələ respublikanın müalicə-profilaktik müəssisələrini tibbi kadrlarla təmin etməkdən ibarət idi. Hər şeydən əvvəl ixtisaslı həkimləri dövlət müalicə müəssisələrinə cəlb etmək lazım idi. Sovet hakimiyyətinin ilk günlərindən müalicə ocaqlarında işə başlayan azərbaycanlı həkimlər (M.R.Vəkilov, M.İ.Qayıbov, C.N.Ləmbəranski, B.Qayıbov, M.Şərifov, M.B.Sultanov, M.Ə.Mirqasımov, Ə.F.Qarayev, S.A.Seyidov, Ə.K.Əlibəyov, K.B.Mehmandarov və b.) respublika zəhmətkeşlərinə

tibbi yardım göstərməyə başlamışdılar [9, 85].

XX əsrin 20-ci illərinin əvvəllərindən başlayaraq, Azərbaycan SSR-də Sovet Rusiyasının təsir dairəsinin güclənməsi prosesi bütün sovet və partiya idarələrində olduğu kimi səhiyyə – tibb müəssisələrində də özünü göstərirdi. Başqa millətlərdən olan kadrlara üstünlük verilsə də, milli həkim və tibb işçilərinin hazırlanması işinə də ciddi əhəmiyyət verilirdi. Milli kadrların yoxluğu və ya çatışmazlığı üzündən səhiyyə və tibb ocaqlarında mühüm vəzifələrə qeyri-azərbaycanlılar təyin olunurdu. Məsələn, ilk illərdə Səhiyyə Nazirliyi sistemində yaranmış bu vəziyyəti daha aydın təsəvvür etmək üçün onun əsas şöbələrinə başçılıq edənlərin milli tərkibinə nəzər salmaq kifayətdir: sanitar-epidemiologiya şöbəsinə – S.İ.Slonevski, anaları və uşaqları mühafizə şöbəsinə Y.Y.Gindes, statistika şöbəsinə – P.İ.Rostovtsev, əczaçılıq şöbəsinə – İ.P.Punko, səhiyyə təşkilatı şöbəsinə – İ.D.Neyştadt rəhbərlik edirdilər [7, 22].

1922-ci ilin yazından Azərbaycan SSR-nin SSRİ tərkibinə birləşdirilməsi işinin sürətlənməsi ilə əlaqədar həmin ilin avqustunda gələcək müttəfiq respublikalarda səhiyyə orqanlarının fəaliyyətini koordinasiya etmək (əslində RSFSR-in rəhbərliyi ilə vahid nəzarətə almaq) məqsədilə Moskvada N.A.Semaşkonun sədrliyi ilə Rusiya Federasiyası, Ukrayna, Belorusiya, Azərbaycan, Gürcüstan və Ermənistan SSR Xalq Səhiyyə Komissarlarının birinci müşavirəsi keçirilmişdi. Müşavirə iştirakçıları “ölkədə epidemiya” ilə bağlı olan əsas məsələni müzakirə etmiş “yeni iqtisadi siyasət”lə əlaqədar müalicə işinin vəziyyətini nəzərdən keçirmiş, gələcək üçün nəzərdə tutulan “birlikdə fəaliyyət proqramı”nı müəyyən etmişdi [7, 26]. 1925-ci ilin ortalarından RSFSR Xalq Səhiyyə Komissarlığı ilə Azərbaycan SSR Xalq Səhiyyə Komissarlıqları arasında daha sıx əlaqələrin yaradıldığı müşahidə edilirdi. 1925-ci ilin martında SSRİ Səhiyyə Komissarı N.A.Semaşko ZSFSR MİK-nin Tiflisdə keçirilən sessiyasında iştirak edirdi. Sessiya qurtardıqdan sonra RSFSR Xalq Səhiyyə Komissarlığı müalicə şöbəsinin müdiri V.A.Berezin, anaları və uşaqları mühafizə şöbəsinin müdiri V.P.Lebedeva ilə birlikdə Azərbaycan SSR-ə gəlmişdi. Bu qısamüddətli səfər zamanı onlar respublikada səhiyyənin və ali tibb təhsilinin vəziyyəti ilə tanış olmuş, Azərbaycanın IV Sovetlər qurultayında və respublika Xalq Səhiyyə Komissarlığı Kollegiyasının iclasında çıxış etmişdilər. O, respublika hökumətinin yaxından köməyi nəticəsində keçirilən profilaktik tədbirlərin, xüsusən malyariyaya qarşı mübarizə üçün görülən işlərin xüsusi əhəmiyyət daşıdığını göstərmişdi [12, 67].

**Azərbaycan SSR-də səhiyyə sahəsində yerli mütəxəssislərin hazırlanması**

Azərbaycanda sovet hakimiyyətinin ilkaylarından xalq səhiyyəsini təşkil etmək və yenidən qurmaq üçün nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinin əsas çətinliyi kifayət qədər tibb mütəxəssislərinin olmaması idi. Ona görə də, bu dövrdə ölkədə yeganə ali təhsil ocağı olan Bakı Universitetini və onun tibb fakültəsini yenidən təşkil etmək tələb olunurdu.

1917-ci il oktyabr çevrilişindən sonra Rusiyada başlanmış və genişlənmiş vətəndaş müharibəsi əski imperiyanın bir çox ali məktəblərində təhsil alan azərbaycanlı tələbələrin, xüsusən yuxarı kurs tələbələrinin təhsili yarımçıq qoyub Vətənə qayıtmalarına səbəb olmuşdu. Bu tələbələrin isə yalnız 1919-cu ilin payızında Bakıda təşkil olunmuş Bakı Universitetinin tibb fakültəsində yuxarı kursların (IV-V) olmadığından orada təhsil almaq imkanları yox idi. Yalnız 1920-ci ilin ikinci yarısında, yəni Rusiyada vətəndaş müharibəsi qismən zəiflədiyi və onun mərkəzi şəhərlərində sabit və normal həyat şəraiti yaranmağa başladığı bir vaxtda bu şəhərlərdə universitetlərin fəaliyyətinin yenidən normal məcraya düşməsi ilə əlaqədar Azərbaycan SSR hökuməti Sovet Rusiyası hökumətinə müraciət edib həmin universitetləri tərk etmiş azərbaycanlı tələbələrin təhsillərini davam etdirmələrinə kömək etməyi xahiş etmişdi. RSFSR hökuməti Azərbaycan SSR hökumətinin bu xahişinə müsbət cavab verdi: RSFSR hökuməti 1920-ci ilin avqustundan Kiyev, Xarkov,

Tomsk və b. şəhərlərdəki universitetlərin tibb fakültələrində oxuyan azərbaycanlı tələbələrin nəqliyyatda pulsuz gedişinə, paltar və ərzaqla təmin olunmalarına göstəriş vermişdi [1, 3].

Azərbaycan SSR hökuməti RSFSR ali məktəblərinin Nizamnaməsi və Əsasnaməsini ali məktəb quruculuğunda əsas tutaraq AXC hökumətinin təşkil etdiyi Bakı Universitetinin bütün fəaliyyətinə nəzarət etmək, onun Şərqin və Qərbin universitet təhsili sistemi ilə əlaqələrini kəsib Sovet Rusiyasının universitet təhsili sisteminə uyğunlaşdırmaq və RSFSR hökumətinin ali təhsil qaydaları üzrə fəaliyyətini təmin etmək məqsədilə 1920-ci il 10 və 22 may dekretləri ilə Bakı Universitetini "yenidən" sovet ali məktəbi kimi təşkil etmişdi [8, 5]. Bolşeviklər bütün sahələrdə olduğu kimi, maarif, təhsil və səhiyyə işində də "yeni sovet qaydalarını" yaratmağa başladılar. Bununla əlaqədar olaraq Bakı Universitetinin, habelə onun tibb fakültəsinin həyatında dəyişikliklər edildi o sovet idarəçilik strukturlarına uyğunlaşdırılmağa başlandı. Universitetin bütün səlahiyyətləri sovet dövlət aparatından asılı vəziyyətə salınaraq onun göstəriş və tələblərini həyata keçirən təhsil müəssisəsinə çevrilmişdi. Universitetin sinfi tərkibi, onun tədris və tərbiyə işlərinin məzmunu və mahiyyəti dəyişdirilmişdi. Universiteti "yeni sovet cəmiyyət"inin tələblərinə cavab verən ali təhsil və "mədəniyyət mərkəzinə çevirmək" üçün Azərbaycan sovet hökuməti bütün imkanlardan istifadə etməyə çalışırdı. Universiteti muxtar idarəçilik dayaqlarından məhrum edib onu ideoloji sistemin mütəhərrik vasitəsinə çevirmək Universitetin işlərinə inzibati-partiya müdaxiləsi o qədər gücləndi ki, hətta Rusiya imperatorunun 1884-cü ildə universitetlərlə bağlı olaraq verdiyi fərman XX əsrin 20-ci illərindəki total dövlət tabeçiliyi ilə müqayisədə liberal təsir bağışlayırdı. Universitetdə azərbaycanca mühazirə oxuyacaq kadrlar, demək olar ki, yox idi. Ona görə də AXC qurucuları da sanballı milli kadr bazası yaradılanadək təhsilin rus dilində aparılması alternativini görmürdülər. Rəhbərlik də qeyri-milli kadrlardan ibarət idi. Belə ki, 1920-ci ilin yayında xəstəliyi ilə əlaqədar prof. V.İ.Razumovski ərizəsinə əsasən rektor vəzifəsindən azad edilərək, Saratov Universitetinə daimi işə keçmiş, universitetin rektoru vəzifəsinə tibb fakültəsinin dekanı prof. İ.İ.Şirokoqorov seçilmişdi. XX əsrin 20-ci illərin birinci yarısında universitetin bütün fakültəsində olduğu kimi tibb fakültəsində də aparıcı yeri yenə də rus alimləri tuturdular[10, 130]. XX əsrin 20-ci illərinin əvvəllərində Bakı Universitetinin maddi-texniki bazası o zaman ölkənin keçirdiyi iqtisadi-maliyyə çətinlikləri üzündən hələ zəif idi. 1919/1920-ci tədris ilində onun smetası Azərbaycan manatı ilə ("bon" pulu) 10 milyon 857 min təşkil edirdi. Bu isə Birinci Dünya müharibəsindən əvvəlki pula çevirdikdə cəmi 68 min manata bərabər idi. Bu halda il ərzində pedaqoji heyətin illik əmək haqqı min manatlarla hesablanırdı: professor 96 min, dosent 80 min, baş assistent 48 min, kiçik assistent 36 min, ordinator – 24 min manat əmək haqqı alırdı [10,130].

Universitetin başqa fakültələri kimi tibb fakültəsinin maddi-texniki bazası tədricən möhkəmlənirdi. 1924-cü ildən başlayaraq universitet sabit büdcə sisteminə keçərək onun gəlir və xərci kvartallar üzrə deyil, büdcə ili üzrə hesablanmağa başlamışdı. Universitet Xalq Maarif Komissarlığına tabe olub maliyyə məsələləri onun tərəfindən təmin edilirdi. O zaman universitetin büdcəsi Xalq Maarif Komissarlığı büdcəsindən ayrılan vəsaitdən əlavə, həm də xüsusi vəsaitdən - dotasiyalardan, habelə neft fondu hesabına universiteti himayəçiliyə götürmüş Azərbaycan SSR Xalq Komissarları Sovetinin ayırdığı vəsaitdən, maddi imkanı olan tələbələrdən alınan təhsil haqqından (imkanı olan tələbələr hər semestrdə 15 manat təhsil haqqı verirdilər) ibarət idi [13, 104]. 1925-ci ildə Bakı Universitetinə ayrılmış vəsaitin artırılması tibb fakültəsində tədrisin keyfiyyətini və onun maddi-texniki bazasını yaxşılaşdırmaq məqsədilə Bakı şəhər səhiyyə şöbəsi və fakültə arasında Paster adına xəstəxanaya universitet klinikalarını keçirmək haqqında razılıq müqaviləsi bağlamağa imkan vermişdi. Bundan əlavə, XX əsrin 20-ci illərinin ortalarında nəzəri ka-

fedralarla bərabər tibb fakültəsində elmi köməkçi müəssisələr (normal anatomiya institutu, patoloji-anatomiya institutu, fiziologiya institutu, histologiya və farmakologiya laboratoriyaları, topoqrafik anatomiya ilə birlikdə operativ cərrahiyyə kabinələri) təşkil olunmuşdu [13, 104].

Bakı Universitetinin ilk tədris ili olan 1919-1920-ci dərs ilində tibb fakültəsində daxili xəstəliklər və cərrahiyyə klinikaları fəaliyyətə başlamışdı. 1920-ci ildə orada mama-ginekologiya, əsəb və ruhi xəstəliklər, 1921-ci ildə isə göz xəstəlikləri, qulaq-boğaz-burun, dəri-zöhrəvi və uşaq xəstəlikləri klinikaları açılmışdı [15, 4]. Bakı Universitetinin tibb fakültəsinin klinikaları əsasən keçmiş Balaxanı küçəsi 83 saylı binada (indiki Füzuli küçəsindəki F.Ə.Əfəndiyev adına 4 saylı xəstəxanada) yerləşirdi. Burada fakültənin terapevtik və cərrahiyyə, mama-ginekologiya, əsəb xəstəlikləri, otolarinqologiya, daxili xəstəliklər, propedevtika klinikaları, habelə patoloji anatomiya və fizioloji kimya kafedraları yerləşirdi [10, 33]. Bakı Universitetinin tibb fakültəsinin bir çox klinika və kafedralarına Xalq Səhiyyə Komissarlığı müəssisələri və Bakı Səhiyyə şöbəsi yardım edirdi. Belə ki, uşaq xəstəlikləri klinikasına Nərimanov adına uşaq xəstəxanası, dəri-zöhrəvi xəstəliklər klinikasına Dəri-Zöhrəvi İnstitutu, ruhi xəstəliklər klinikasına Bayıl xəstəxanası, bakteriologiya və gigeniya kafedrasına Bakteriologiya və Gigiyena İnstitutu, Hospital-terapevtik və cərrahiyyə klinikaları, yoluxucu xəstəliklər və uşaq xəstəlikləri, patoloji anatomiya kafedrasının prozekturasına N.A.Semaşko adına xəstəxana, göz xəstəlikləri kafedrasına Mərkəzi Göz Xəstəlikləri Xəstəxanası, ümumi cərrahiyyə və desmurgiya kafedraları məhkəmə təbabəti (keçmiş Mixaylovski, sonralar isə M.Əzizbəyov adına xəstəxana) xəstəxanası yardım edirdi [10, 33].

XX əsrin 20-ci illərində Bakı Universitetinin tibb fakültəsinə bina verilməsi haqqında Azərbaycan SSR hökuməti qarşısında dəfələrlə məsələ qaldırılmasına baxmayaraq bu təşəbbüslər nəticəsiz qalmışdı. Yalnız 1929-cu il yanvar ayının 16-da Azərbaycan SSR XKS-nin sədri Q.M.Musabəyov Universitet binasının tikintisi üçün yardım edilməsi haqqında göstəriş vermişdi. Birinci il tikinti üçün Azərbaycan hökuməti neft fondundan 101 min manat vəsait buraxmışdı. Tibb fakültəsinin nəzəri kafedraları üçün iki korpus – anatomiya və fiziologiya korpuslarının tikintisi də nəzərdə tutulurdu. 1929-30-cu illərdə tikinti üçün dövlət büdcəsindən 200 min manat qoyulmuş, habelə XKS-i büdcəsindən 300 min manat vəsait ayrılıb xərclənmişdi [10, 33].

Avadanlıqlarla təchiz olunmaq baxımından tibb fakültəsi birinci yeri tuturdu. Təkcə bu fakültədə 25 kafedra fəaliyyət göstərirdi. Təqribən bütün kurslar müasir proqramlarla təmin edilmişdi, tədris bu proqramlara uyğun olaraq qurulmuşdu. Hesabatda xüsusi olaraq Normal anatomiya kafedrasının və Patoloji Anatomiya İnstitutunun müasir avadanlıqla təchizi məsələsinə toxunulurdu. Qeyd olunurdu ki, bu İnstitut "Köhnə Rusiya universitetlərinin eyni adlı müəssisələri ilə bir sırada dayana bilər" [8, 88]. Başqa bir sənəddə etiraf edilirdi ki, hal-hazırda bu fakültə RSFSR-dəki tibb fakültələrinin hər hansı biri ilə bəhsə girə "bilər" [3, v.161]. Patoloji anatomiyaya dair mühazirələr oxunarkən ekranda lentlər nümayiş etdirilir, epidiaskopdan istifadə olunurdu [4, v. 14-15].

**Nəticə**

Artıq 1923-cü ildə Azərbaycan Universitetinin tibb fakültəsi klinik tədris üçün yaxşı təchiz edilmiş müəssisələrə malik idi. O, səviyyəsinə görə Rusiya Universitetlərinin klinikalarından üstün idi. Görkəmli alim, professor M.Y.Yapovski Azərbaycan Universitetinin tibb fakültəsi ilə tanış olandan sonra demişdir: "Mən yerli tibb fakültəsi professorlarının çox gözəl heyətini qeyd etməliyəm. Onlar SSRİ-nin ən yaxşı universitetlərinin bəzəyi ola bilərlər" [5, 122]. Bununla belə, heç də bütün kafedralar eyni vəziyyətdə deyildi. Diaqnostika, ümumi cərrahiyyə, ümumi histologiya, otorinolarinqologiya kafedra-

larının nəinki təchizat bazası, hətta yerləri yox idi. Anatomiya kafedraları, hospitalik-terapevtik klinika, Patoloji İnstitutun muzeyi avadanlıqla tam təchiz olunmamışdı. Fəaliyyətinin ilk illərində tibb fakültəsində ən yüksək ixtisaslı professor-müəllim heyəti təşəkkül tapdı. Məsələn, mamalıq və ginekologiya kafedrasına rəhbərlik üçün məşhur mütəxəssis, Hərbi Tibb Akademiyasının privat-dosenti F.İ.İlyin, əczaçılıq kafedrasına isə Tiflisdən professor P.Y.Rostovtsev seçilmişdi. Qocaman patoloq professor N.Q.Usinski Krım Universitetindən gəlmişdi. Bakı Universitetinin tibb fakültəsi Moskva Universitetinin professoru M.A.Çlenovun şəxsində zöhrəvi xəstəliklər üzrə yüksək ixtisaslı mütəxəssis əldə etmişdi. Uşaq xəstəlikləri kafedrasına təcrübəli pediatr, professor A.O.Karnitski, göz xəstəlikləri kafedrasına professor K.A.Orlov, anatomiya kafedrasına Xarkov Universitetinin professoru K.N.Malınovski dəvət olunmuşdu. Onlar vaxtaşırı olaraq məhkəmə təbabəti kursunu oxumaq üçün Postovdan buraya gəlmiş Don Universitetinin professoru A.İ.Şibkovla birlikdə güclü bir heyət təşkil edirdilər. U.J.Şirokoqorov daha sonra qeyd edirdi ki, tibb fakültəsi 1922-ci ildə, yəni universitetin mövcudluğunun 3-cü ilində təqribən formalaşmışdı. Tibb fakültəsi özünün güclü professorlar heyətinə görə ittifaqda ən yaxşı fakültələr sırasında idi [13, 4]. Əgər 1919-1920-ci tədris ilində fakültədə cəmi 5 professor işləyirdisə, 1923-24-cü tədris ilində onların sayı 20-yə çatmışdı. Həmin dövrdə fakültəndə 25 kafedra və klinikadan əlavə iki kurs da fəaliyyət göstərirdi:

1. Patoloji anatomiya kafedrası yanında tibbi bakteriologiya və mikrobiologiya (1926-cı ildə bu kurs kafedraya çevrildi);
2. İnfeksiya xəstəlikləri. 1924-cü ildə o, kafedraya çevrildi, 1926-cı ildən isə yenidən “kurs” adlanmağa başladı [5, 122].

Yarandığı gündən tibb fakültəsini məşhur alimlər idarə etmişlər. Belə ki, 1919-1927-ci illərdə prof. İ.İ.Şirokoqorov (1922-ci ildə qısa müddət ərzində prof. A.A.Osman), 1927-ci ildən prof. A.A.Osman fakültənin dekanları olmuşlar. 1922-ci ilin avqust ayının 2-də Tibb fakültəsinin birinci buraxılışı oldu. Təntənəli iclasda həmin vaxt Bakıya gəlmiş ilk rektor V.İ.Razumovski, Universitetin professorları, Xalq Maarif Komissarı M.Quliyev və başqa komissarlar iştirak edirdilər. İclası dekan İ.İ.Şirokoqorov açaraq Bakı Universitetinin tibb fakültələrinin tam kursunu bitirmiş və fakültənin dövlət imtahanı verərək “həkim” adını almış 29 tələbə ilə bağlı olan qərarını elan etdi. Onların arasında 3 nəfər azərbaycanlı var idi: A.Əlibəyov, C.Sultanova, A.Şahtaxtınskaya-Babayeva. Bundan başqa 1921-ci ilin oktyabr ayında universitetin 5-ci kursunda təhsil olan 6 azərbaycanlı tələbə də RSFSR-in müxtəlif şəhərlərinə gedərək tibb təhsilini bitirib “həkim” adına layiq görülmüşdülər [6]. Sonrakı illərdə həmin məzunların sayı aşağıdakı kimi idi: 1922-1923-cü ildə 82 nəfər, 1923-cü ildə 213 nəfər, 1924-cü ildə 221 nəfər, 1925-1926-cı ildə 214 nəfər, 1926-1927-ci ildə 163 nəfər [12, 123]. Tələbələrin sayının azalmasının səbəbi həm ictimai-siyasi motivlərlə, həm də tələblərə qarşı çox böyük tələbkarlığın olması ilə əlaqədar idi. Beləliklə, tibb fakültəsi Universitetin aparıcı fakültəsi kimi inkişafa mane olan problemləri aradan qaldıraraq irəli getməkdə idi.

**QAYNAQLAR**


1. “Azərbaycan firqəsi”, 1920, 23 avqust.
2. Azərbaycan arxivi, 1971 1(9), s.88-93.
3. Azərbaycan MDA, f.57, s.1, iş 256, v.161.
4. Azərbaycan MDA, f.111, s.1, i. 47, v.14-15.
5. Atakişiyev A. M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universitetinin tarixi. İki hissədə, I hissə. Bakı : Bakı Universiteti Nəşriyyatı, 1991, 830 s.
6. “Бакинский рабочий”, 3 августа 1922 г.
7. Гасанов В.С. Высшее медицинское образование и медицинские кадры в Азербайджане.

Баку: 1965, 196 с.
8. Известия Революционного Комитета Азербайджана, 1920, №1, 28 мая, с. 3-4
9. Ибрагимов М.А. Здравоохранение Советского Азербайджана. Москва: Медицина, 1967, 274 с.
10. Маковельский А.О. Азербайджанский государственный университет им. В.И.Ленина. Первое десятилетие (1919-1920 гг.) Баку: Изд-во АГУ, 1930, 130 с.
11. Собрание узаконений и распоряжении правительства АССР за 1920 г., №2. с.12-20
12. Советское здравоохранение. 1978, №7, 154 с.
13. Широкогоров И.И. Медицинский факультет Бакинского Университета: Исторический очерк. Баку, Изд-во АГУ, 1928, 104 с.

**_Резюме_**

**_Ильхам Гасанов_**

**_Высшее медицинское образование в Азербайджанской ССР_**
**_(20-е гг. XX столетия)_**

Одним из сформулированных принципов советской власти было национализация в области здравоохранения. Указом Венного Революционного Комитета от 28 апреля 1920 года медицинские учреждения, больницы, амбулаторные учреждения, санатории принадлежащие частным лицам, компаниям и обществам, были переданы государству. Из-за нехватки национального персонала важные должности в медицинских учреждениях были заняты не азербайджанцами. Нехватка медицинского персонала была главной трудностью в реализации мер, направленных на организацию и восстановлению общественного здравоохранения с первых месяцев советской власти в Азербайджане. Поэтому необходимо было реорганизовать Бакинский университет, единственное в то время высшее учебное заведение в стране, и медицинский факультет при нем. В первый учебный год Бакинского Университета (1919-1929) на медицинском факультете начали действовать клиники внутренних болезней и хирургические. В 1920 году здесь функционировали клиники гинекологии, неврологических и психических заболеваний. С 1921 года стали действовать клиники офтальмологии, заболеваний уха и горла, дерматологии и педиатрии. В медицинском факультете преподавали лучшие профессора, и это делал медицинский факультет одним из лучших факультетов в союзе.

В целях улучшения жилищных условий медицинских работников в Баку были открыты столовые, им были предоставлены квартиры на льготных условиях и повышена заработная плата. С первых дней советской власти в Азербайджанской ССР были приняты ряд законов, обеспечивающих социальную защиту населения, меры по страхованию государственных органов, бесплатную медицинскую помощь и гигиену условий труда. Принятые меры позволили улучшить положение медицинских учреждений, особенно медицинских работников в районах и селах республики. Согласно Указу Совета Народного Комиссариата Азербайджанской ССР от 12 сентября 1920 года, все лица, занимающиеся медицинской деятельностью (врачи, ассистенты врачей, медицинские ассистенты, фармацевты, медсестры, стоматологи и т. д.) были переданы Народному Комиссариату Здравоохранения. После передачи медицинских учреждений в Комиссариат по здравоохранению платные медицинские услуги были отменены, началось предоставление бесплатных медицинских услуг.

**_Ключевые слова:_** *медицина, доктор, образование, здравоохранение больница*

**_Summary_**

**_İlham Hasanov_**

**_Higher medical education in the Azerbaijan SSR_**
**_(20s of the twentieth century)_**

One of the principles formulated by the Soviet government was nationalization in the field of healthcare. By a decree of the Vienna Revolutionary Committee of April 28, 1920, medical facilities, hospitals, outpatient facilities, and sanatoriums owned by private individuals, companies and societies were transferred to the state.

Due to the lack of national staff, important positions in medical institutions were not occupied by Azerbaijanis. The lack of medical personnel was the main difficulty in implementing measures aimed at

organizing and restoring public health from the first months of Soviet power in Azerbaijan. Therefore, it was necessary to reorganize Baku University, the only higher educational institution in the country at that time, and the medical faculty under it. In the first academic year of Baku University (1919-1929), internal medicine and surgical clinics began to operate at the medical faculty. In 1920, clinics of gynecology, neurological and mental diseases functioned here. Since 1921, clinics of ophthalmology, ear and throat diseases, dermatology and pediatrics began to operate. In order to improve the living conditions of medical workers, canteens were opened in Baku, they were provided with apartments on favorable terms and salaries were increased. The measures taken have improved the situation of medical institutions, especially medical workers in the districts and villages of the republic. According to the Decree of the Council of the People's Commissariat of the Azerbaijan SSR of September 12, 1920, all persons engaged in medical activities (doctors, medical assistants, medical assistants, pharmacists, nurses, dentists, etc.) were transferred to the People's Commissariat of Health. After the transfer of medical facilities to the Commissariat of Health, paid medical services were canceled, and the provision of free medical services began.

***Key words:*** *Medicine**,** doctor, education, hospital, healthy*

Redaksiya heyətinin üzvü t.e.d., prof. İsgəndərov Anar Camal oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT: 327**

# AZƏRBAYCAN VƏ YUNANISTAN ARASINDA TİCARİ-İQTİSADİ MÜNASİBƏTLƏRİN MÖVCUD VƏZİYYƏTİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

**İlyas HÜSEYNOV***

Məqalə redaksiyaya daxil olmuşdur: 12 fevral 2019; çapa qəbul edilmişdir: 4 iyul 2019; online-da çap edilmişdir: 25 sentyabr 2019
Received: 12 Februrary 2019; accepted: 4 July 2014; published online: 25 September

***Açar sözlər:*** *Yunanıstan, ticari-iqtisadi münasibətlər, Avropa İttifaqı, Trans Adriatik Boru Kəməri, Cənub Qaz Dəhlizi, diplomatiya, enerji təhlükəsizliyi, TAP, Şahdəniz*

## Giriş

Dünyanın ən qədim sivilizasiyalarından biri kimi Cənub-Şərqi Avropada yerləşən, Avropa Birliyinin və Şimali Atlantika Müqaviləsi Təşkilatının (NATO) üzvü olan Yunanıstanla Azərbaycan arasında ticari-iqtisadi münasibətlərin mövcud vəziyyətinin və inkişaf perspektivlərinin araşdırılması böyük aktuallıq kəsb edir. İkitərəfli iqtisadi münasibətlərə təsir edən əsas amillər sırasında enerji təhlükəsizliyinin təmin olunması əsas yer tutsa da, dövlət başçılarının qarşılıqlı səfərləri zamanı digər sahələrin də inkişaf etdirilməsi barədə dəfələrlə vurğulanmışdır. Bununla yanaşı, iki ölkənin iş adamlarının iştirakı ilə biznes forumların keçirilməsi də Azərbaycanla Yunanıstan arasında iqtisadi münasibətlərə və ticarət dövriyyəsinə öz töhfəsini verməkdədir.

## 1. İkitərəfli ticari-iqtisadi münasibətlərin inkişafında Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin rolu

Yunanıstan lap əvvəldən Azərbaycanın həm siyasi, həm də iqtisadi əhəmiyyətini və gələcəyini müəyyən etmişdir. Azərbaycan müstəqillik əldə etdikdən çox qısa vaxt sonra diplomatik əlaqələrin əsası qoyulmuşdur. Yunanıstan iki ölkəni bir-birinə tanıtmaq və hər iki xalqı mümkün qədər bir-birinə yaxınlaşdırmaqla dostluq, əminlik və qarşılıqlı inam üçün tədricən və ehtiyatla qəti və sürətli addımlar ataraq Azərbaycanda səfirlik açmışdır.

Azərbaycan və Yunanıstan arasında olan ticari-iqtisadi münasibətlərin inkişafında Heydər Əliyevin böyük xidmətləri olmuşdur. Yunanıstanın yerləşdiyi geosiyasi arealın önəmini dərindən bilən Heydər Əliyev Avropa Birliyinin üzvü kimi bu ölkənin dəstəyinə və iqtisadi-ticari münasibətlərdə qarşılıqlı faydalı əməkdaşlığa böyük ümidlərlə yanaşmışdır.

2003-cü il 18 iyun tarixində Ulu öndər Prezident sarayında Yunanıstanın Xarici İşlər nazirinin müavini İoannis Maqriotisi qəbul etmişdir. Görüşdə nazir müavini bildirmişdir. “TASİS proqramı çərçivəsində gözəl işlər görülmüş, proqram praktiki olaraq Azərbaycan reallıqlarına, tələblərinə uyğun modernləşdirilmişdir. Artıq Azərbaycanla Avropa Birliyi nümayəndələri arasında energetika məsələlərinə dair dialoq başlamışdır. Böyük məmnuniyyətlə demək istəyirəm ki, sizin qaz sənayesi sahəsindəki mütəxəssisləriniz bizim ölkəyə səfər ediblər və çox faydalı fikir mübadiləsi aparılmışdır. Bilirəm ki, enerji daşıyıcıları hasilatı Azərbaycan üçün, Avropa Birliyi üçün çox vacib sahədir. Deyə bilərəm ki, biz bu sahədə əlaqələrin yaradılmasında yeni bir mərhələ açırıq” (6, s. 123).

* doktorant, Bakı Slavyan Universiteti
*e-mail: ilyasdiplomat@gmail.com*